Xalqın qəzeti!

# Xalq qəzeti

№ 264 (30958) 16 dekabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Süni intellekt və rəqəmsallaşma çağdaş tərəqqinin ayrılmaz hissəsidir



*Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır.*

*Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilib



Səhifə ⇨ 8

## Rəqəmsal güc strategiyasının yeni manifesti

*Süni intellekt infrastrukturunun inkişafında Azərbaycanın enerji potensialı həlledici rol oynayır*




Böyük siyasət XXI əsrin ortalarına doğru irəlilədikcə dünyanın strateji prioritetləri də dəyişir. Ötən əsrin sonlarında neft və qaz qlobal güc balansının mərkəzində idisə, bu gün məlumat, süni intellekt və onların işləməsi üçün tələb olunan enerji də eyni mövqedə dayanır. Sözügedən kontekstdə dekabrın 8-də Bratislavada Azərbaycan Prezidenti İlham Əliyev və Slovakiya Prezidenti Peter Pelleqrininin mətbuata bəyanatları xüsusi diqqət çəkir.

*(ardı 3-cü səhifədə)*

## Süni intellekt hədəflərimiz



*Suveren infrastruktur və Generativ Aİ üçün münbit zəmin hazırlanır*

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin ABŞ-da OpenAI və NVIDIA kimi qlobal süni intellekt liderlərinin rəhbər heyətləri ilə görüşləri ölkəmizdə bu sahədə yeni mərhələnin başlandığına işarədir. Bu görüşlərdə Azərbaycanda “suveren süni intellekt infrastrukturu”nun qurulması və innovasiya, təhsil, lokal həllər üzrə əməkdaşlıq imkanları müzakirə edildi. Azərbaycan süni intellekt sahəsində dünya ilə inteqrasiya olmaqla yanaşı, milli maraqlarını qoruyan dayanıqlı bir ekosistem yaratmaq niyyətində olduğunu nümayiş etdirir.**

*(ardı 8-ci səhifədə)*

## “Sandıqlarda mürgüləyən” milyardlar...

*10 milyard dollarlıq yatırım niyə “ölü kapital”a çevrilib?*

***Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov bildirib ki, ölkə əhalisi, təxminən, 10 milyard dolları “yastıq altında” saxlayır. Onun sözlərinə görə, bu vəsait real iqtisadiyyata cəlb olunmadığı üçün “ölü kapital” hesab edilir və ölkənin maliyyə dövriyyəsinə mənfi təsir göstərir.***

*(ardı 15-ci səhifədə)*



## Strateji tərəfdaşlığın tarixi ədalətə işıq salan üfüqləri



Səhifə ⇨ 4

## Avropa miqrasiya problemini qorxu sindromuna çevirir



Səhifə ⇨ 4

## İrəvanda “uğursuz qocalar” döyüşə hazırlaşır



Səhifə ⇨ 5

## Təcrid, yoxsa dominantlıq?



Səhifə ⇨ 5

## Paşinyan, Napoleon və Erməni Apostol Kilsəsi



Səhifə ⇨ 6

## Bakı–Daşkənd tandemi: Strateji əməkdaşlığın idman meydanı




Səhifə ⇨ 7

## Azərbaycan–NATO tərəfdaşlığı yeni mərhələdə



Səhifə ⇨ 7

# İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılması və yük axınlarının "ağıllı" idarə edilməsi sisteminin tətbiqi məqsədilə **qərara alıram:**

**1** "Bir pəncərə" informasiya sistemi (bundan sonra – Sistem) yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

2.1.1. tələb olunan sənədlərin, o cümlədən kommersiya və nəqliyyat sənədlərinin təqdim edilməsi;

2.1.2. nəqliyyat vasitələrinə və daşınan mallara dair tələb olunan sənədlərin və məlumatların elektron qaydada tərtib edilməsi;

2.1.3. sərhədkeçmə prosedurları, daşıma qaydaları və şərtləri ilə bağlı məlumat verilməsi, eləcə də istifadəçilərin müraciətlərinin qəbulu və cavablandırılması;

2.1.4. yükdaşıma müqavilələrinin elektron qaydada bağlanılması, eləcə də bağlanılmış müqavilələrin təqdim olunması;

2.1.5. daşınan yüklərin bütün hərəkət marşrutu boyunca izlənilməsi;

2.1.6. ödənişlər aparılması, eləcə də həmin fəaliyyətlə bağlı statistik məlumatların əldə edilməsi;

2.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti, operatoru funksiyalarını isə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

2.3. Sistemlə lisenziya və icazələr (o cümlədən uyğunluğunun qiymətləndirilməsi ilə bağlı sertifikatlar və şəhadətnamələr), gömrük, vergi, qida təhlükəsizliyi, kənd təsərrüfatı, avtomobil nəqliyyatı sahələrində dövlət xidmətləri göstərilməsi, vergi ödəyicilərinin dövlət qeydiyyatı və uçotu, fiziki şəxslərin identikləşdirilməsi, ölkəyə gəlməsi, qeydiyyatı və ölkədən getməsi ilə bağlı informasiya sistemləri və ehtiyatları, habelə mülki aviasiya, dəmir yolları və dəniz nəqliyyatı sahələrində fəaliyyət göstərən qurumların, eləcə də ödənişlər aparılması, mülki məsuliyyətin və daşınan yüklərin sığortalanması üzrə ödəniş xidməti təchizatçılarının (kredit təşkilatlarının) və sığorta təşkilatlarının informasiya sistemləri və ehtiyatları arasında Azərbaycan Respublikasının normativ hüquqi aktları (məlumatların tərkibinin və məlumat mübadiləsinin hüquqi əsaslarını tənzimləyən) ilə müəyyən edilmiş hədlərdə məlumat mübadiləsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən aparılır.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. doqquz ay müddətində:

3.1.1. Sistemin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. beynəlxalq təcrübə nəzərə alınmaqla, idxal-ixrac, tranzit, nəqliyyat və logistika sahələrində fəaliyyətin rəqəmsallaşdırılmasının təmin olunması məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təklifləri əsasında Sistemin fəaliyyətinin təmin olunması üçün zəruri tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Sistemin aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

4.2. Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

4.3. Sistem vasitəsilə aparılan əməliyyatlara dair aylıq hesabatı onunla inteqrasiya olunan informasiya sistemlərinin və ehtiyatlarının mülkiyyətçilərinə (sahiblərinə və ya operatorlarına) təqdim etsin.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

### "Azərbaycan Bayrağı" ordeni ilə

Mirzəyev Rəfail Xalid oğlu – general-leytenant

### 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Abdullayev Qüdrət Həsən oğlu – general-mayor

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Adıgözəlov Elçin Şirxan oğlu – general-mayor
Məmmədov Vidadi Məmməd oğlu

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Hüseynov Xaliq Tapdıq oğlu – polkovnik
Musayev Füzuli İsa oğlu – polkovnik
Səmədov Hikmət Vasif oğlu – polkovnik
Nəcəfov Peyman Mehman oğlu – polkovnik-leytenant

### 3-cü dərəcəli "Əmək" ordeni ilə

Əsədov Elxan Xəlil oğlu

### "Tərəqqi" medalı ilə

Əhmədov Eldar Paşa oğlu
Əmrahov Azad Tahir oğlu
Quliyev Elçin Malik oğlu

### "Hərbi xidmətlərə görə" medalı ilə

Mirzəyev Şahin Əyyub oğlu – general-mayor
Məmmədli Cavid Qafar oğlu – polkovnik
Ağasiyev Ağasi Murad oğlu – polkovnik-leytenant
Cəfərov Natiq Oqtay oğlu – polkovnik-leytenant
Əsgərov Vüqar Nadirəli oğlu – polkovnik-leytenant
Əliyev Rüfət Zöhrab oğlu – mayor
Rzayev Akif Məhərrəm oğlu – mayor
Qalayev Zamin Zelan oğlu – gizir
Məmmədova Sevinc Xəzər qızı – gizir

### "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Əmiraslanov Xəzər Kamal oğlu
Əsədov Rüfət Nadir oğlu
İbrahimov Elçin Eldəniz oğlu
Qurbanov Kamal Vaqif oğlu
Nəsirov İsmayıl Rauf oğlu
Ömərli Vüsalə Saleh qızı

### 2-ci dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə

Fəradov Rüfət Lətif oğlu – daxili xidmət general-mayoru

### 3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə

Nəsirli Mehmandar İslam oğlu – daxili xidmət polkovnik-leytenantı
Zeynalov Famil Tofiq oğlu – daxili xidmət baş leytenantı
Cəfərov Ehtiram Fazil oğlu – daxili xidmət baş çavuşu
Əkbərov Azər Valeh oğlu – daxili xidmət baş çavuşu
Ələskərov Murad Kamal oğlu – daxili xidmət baş çavuşu
Həsənov Cəsarət Ziyəddin oğlu – daxili xidmət baş çavuşu
Həsənov Ramil Amil oğlu – daxili xidmət baş çavuşu
Xəlilov Ramil Ələkbər oğlu – daxili xidmət baş çavuşu
İmanov Yəhya Səfər oğlu – daxili xidmət baş çavuşu
Rzayev Məhəmməd Amil oğlu – daxili xidmət baş çavuşu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

### Müşahidə Şurasının sədri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

### Müşahidə Şurasının üzvləri:

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktorunun müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 19 (Cild I) 1-ci maddəsinə "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə edilsin və həmin maddədə "sessiyasının beşinci iclasında" sözləri "sessiyasında" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Konstitusiya Qanunu 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələr verilsin:

### "general-leytenant" ali hərbi rütbəsi

general-mayor Adil Ələsgər oğlu Abdullayevə

### "general-mayor" ali hərbi rütbəsi

polkovnik Fərhad Nəriman oğlu Səmədova
polkovnik Seymur Taleh oğlu Qaraşova

### "daxili xidmət general-mayoru" ali xüsusi rütbəsi

daxili xidmət polkovniki Vaqif Tofiq oğlu İbrahimova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il noyabrın 4-də Əlcəzair şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Əlcəzair Xalq Demokratik Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Aida Əli qızı Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# Avstraliya İttifaqının Baş naziri Zati-aliləri cənab Entoni Albanizə

**Hörmətli cənab Baş nazir!**

Sidneydə Hanuka bayramı ilə əlaqədar keçirilən mərasim zamanı törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbər bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror əməlindən hədsiz dərəcədə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Avstraliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# 20 yaşınadək kişilər arasında futbol üzrə Dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurasının 2025-ci il 2 oktyabr tarixli iclasında 20 yaşınadək kişilər arasında futbol üzrə Dünya çempionatının (FIFA U-20 World Cup) 2027-ci ildə Azərbaycanda və Özbəkistanda keçirilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycanın 20 yaşınadək kişilər arasında futbol üzrə Dünya çempionatı kimi mötəbər bir idman tədbirinə ev sahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkilinə müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1** 20 yaşınadək kişilər arasında futbol üzrə Dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri
"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru
Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti
Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı
Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı
Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı.

**2.** 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) ilə əlaqələndirmə işlərinin aparılması Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına həvalə edilsin.

**3** Təşkilat Komitəsi 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# DGK-nin sədri Zaqatalada vətəndaşlarla görüşüb



**Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Zaqatala rayon Heydər Əliyev Mərkəzində Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarından olan vətəndaşlarla görüşüb.**

Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***XQ***

# Vahid Cümşüd oğlu Axundov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim, iqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar dövlət qulluqçusu Vahid Cümşüd oğlu Axundov 2025-ci il dekabrın 14-də ömrünün 84-cü ilində vəfat etmişdir.

Vahid Axundov 1942-ci il fevralın 2-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1959–1964-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunda mühəndis-iqtisadçı ixtisası üzrə ali təhsil almışdır.

Vahid Axundov 1969-cu ildə iqtisad elmləri namizədi və 1981-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcələrini, 1986-cı ildə professor elmi adını almışdır.

Əmək fəaliyyətinə 1959-cu ildən başlayan Vahid Axundov 1964-cü ilədək Bakı dəri-qalantereya fabrikində və Bakı avtomobil ehtiyatı hissələri zavodunda müxtəlif işlərdə çalışmışdır. O, 1965–1966-cı illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsində iqtisadçı, 1966–1970-ci illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda böyük və baş iqtisadçı, 1970–1987-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat və Planlaşdırma İnstitutunda şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor, 1987–1991-ci illərdə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda elmi işlər üzrə prorektor vəzifələrini tutmuşdur.

Vahid Axundov 1991–1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin müşaviri və Azərbaycan Respublikasının iqtisadi siyasət üzrə Dövlət müşaviri, 1993-cü ilin may–noyabr aylarında Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzinin direktoru – Baş nazirin baş iqtisadi müşaviri olmuşdur. O, 1993-cü ildən 2017-ci ilədək Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri vəzifəsini icra etmişdir.

Vahid Axundov uzun illər Azərbaycanın milli maraqlarının qorunması naminə bilik və bacarığını əsirgəməyərək, peşəkarlığı və təşəbbüskarlığı sayəsində ölkədə iqtisadi islahatların uğurla aparılmasında, iqtisadiyyatın bütün sahələrinin dinamikliyinin təmin olunmasına yönəlmiş dövlət proqramları və konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə gerçəkləşdirilməsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Öz işində hər zaman obyektivlik və prinsipiallıq nümayiş etdirməklə dövlətçilik mövqeyindən çıxış etməsi ona dərin hörmət və ehtiram qazandırmışdır. Vahid Axundovun tədqiqatçı alim kimi iqtisadiyyatın ayrı-ayrı problemlərinin öyrənilməsinə dair 150-dən artıq sanballı araşdırması mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır.

Vahid Axundovun dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyəti və iqtisad elminin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1992-ci ildə "Əməkdar elm xadimi", 2006-cı ildə "Əməkdar dövlət qulluqçusu" fəxri adlarına layiq görülmüş, 2007-ci ildə "Şöhrət", 2012-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim, bacarıqlı təşkilatçı və təvazökar insan Vahid Cümşüd oğlu Axundovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Mehriban ƏLİYEVA,***
***Əli ƏSƏDOV,***
***Sahibə QAFAROVA,***
***Samir NURİYEV,***
***Eldar ƏZİZOV,***
***Şahmar MÖVSÜMOV,***
***Natiq ƏMİROV,***
***Mikayıl CABBAROV,***
***Azər ƏMİRASLANOV,***
***Ziyad SƏMƏDZADƏ***

# Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.**

Ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir.

AZƏRTAC xəbər verir ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

# Rəqəmsal güc strategiyasının yeni manifesti

**(əvvəli 1-ci səhifədə)**




Ölkəmizin başçısı qeyd etdi ki, informasiya texnologiyaları və data mərkəzlərinin yaradılması haqqında Slovakiya ilə fikir mübadiləsi aparılıb: "Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti 5 il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik".

Bəli, Prezident İlham Əliyevin fikirləri bir daha Azərbaycanın enerji ixracatçısı olmaqla kifayətlənmədiyini, həm də qlobal rəqəmsal infrastrukturun formalaşmasında aparıcı mövqeyə iddialı olduğunu göstərdi. Vurğulanmalıdır ki, süni intellekt sistemlərinin fəaliyyəti böyük enerji tələb edir. Bu səbəbdən dünyanın bir sıra aparıcı şirkətləri artıq daha stabil və ucuz enerji mənbələri olan məkanlara üz tuturlar. Şübhəsiz, mövzuya dair spesifik məqamlar var və onlara diqqət yetirək.

Avropa ölkələri enerji böhranı və artan tələbatla üzləşdiyi bir zamanda texnoloji sektor üçün münasib şərait tapmaqda çətinlik çəkirlər. Yəni Azərbaycanın təqdim etdiyi üstünlüklər məhz belə bir durumda xüsusi diqqət çəkir. Mövcud sahədə ölkəmizin göstəriciləri dünya miqyasında nadir sayılır. Nəzərə alaq ki, bu gün enerji süni intellekt hesablamaları üçün əvəzsiz resursa çevrilib. Respublikamızın onu sabit, uzunmüddətli və siyasi risklərdən uzaq şəkildə təmin etməsi sözügedən sahədə inkişafımız üçün üstünlük yaradır. Axı enerji dayanıqlılığı artıq data mərkəzlərinin yerləşdirilməsi üçün əsas seçim kriteriyasına çevrilir.

Azərbaycanın enerji strategiyası uzun illər ərzində mərhələli şəkildə transformasiyaya uğrayıb. "Əsrin müqaviləsi" ilə başlayan enerji epoxası artıq yeni bir istiqamət alıb. Belə ki, enerji siyasətinin təməli əvvəlcə neft və qaz üzərində qurulmuşdusa, daha sonra külək, günəş və hidropotensial kimi bərpaolunan mənbələr bu yanaşmanı zənginləşdirdi. İndi isə üçüncü mərhələ - rəqəmsal enerji dövrüdür. Bu dövrdə enerji həm də texnologiyanın özü üçün zəruri şərtdir. Nəzərə alsaq ki, süni intellekt sistemlərinin genişmiqyaslı fəaliyyəti onların yerləşdirildiyi data mərkəzlərindən asılıdır, həmin mərkəzlərin fasiləsiz enerji tələb etdiyi də əsas götürülməlidir. Məhz bu səbəbdən Azərbaycanın enerji strategiyası texnoloji inkişafın əsas dayağına çevrilir.

Prezident İlham Əliyevin soyuq bölgələrlə bağlı vurğusu da mövcud kontekstdə əhəmiyyətlidir. Dağlıq və soyuq iqlimli ərazilər data mərkəzləri üçün ideal şərait yaradır, çünki onların soyutma sistemində enerji sərfiyyatı kəskin azalır. Qusar, Qəbələ, eyni zamanda, işğaldan azad olunmuş Kəlbəcər, Laçın kimi bölgələrin gələcəkdə qlobal texnologiya investisiyalarının cəmləndiyi mərkəzlərə çevrilmələri ehtimalı yüksəkdir. Data mərkəzlərinin yerləşdirilməsi üçün ideal məkanların seçilməsinə gəldikdə isə məsələ sadəcə enerji ilə bitmir. İqlim, relyef, hava axınlarının sabitliyi, torpaq strukturu, logistika imkanları və siyasi təhlükəsizlik də bu baxımdan mühüm rol oynayır. Azərbaycanın dağlıq regionları sadalanan parametrlərin böyük əksəriyyətini özündə birləşdirir.

Soyuq iqlimli bölgələr illik temperatur dinamikasına görə data mərkəzlərinin texniki tələblərinə uyğun gəlir. Bu ərazilərdə havanın uzun müddət aşağı olması soyutma xərclərini optimallaşdırır. Hətta dünyanın aparıcı texnoloji mərkəzlərində belə bu cür əlverişli təbii şərait hər yerdə mövcud deyil.

Süni intellekt sistemlərinin gələcək inkişafına gəldikdə, bu, enerji təminatı ilə bilavasitə bağlıdır. Çünki gücün təmin olunacağı ölkələrin gələcəkdə qlobal rəqəmsal iqtisadiyyatın əsas oyunçularına çevrilmələri nəzərdə tutulub. Son dövrlər məlumatın qlobal həcmi də sürətlə artır. Bu, istər süni intellekt modellərinin inkişafı, istər bulud texnologiyalarının genişlənməsi, istərsə də dünya iqtisadiyyatının tam rəqəmsallaşması ilə izah olunur. Data mərkəzləri iqtisadiyyatın yeni sənaye obyektinə, onların yerləşdiyi ölkələr qlobal rəqəmsal proseslərin mərkəzinə çevrilir. Həmin iqtisadi modelin əsas dayağı isə enerjidir. Enerji sabitdirsə, ölkə rəqəmsal sistemlərin dayanıqlı məkanı kimi daha da əhəmiyyət qazanır. Azərbaycanın bu sahədə təqdim etdiyi imkanlar ölkəmizi qlobal miqyasda yeni oyunçu statusuna yüksəldir. Respublikamızın siyasi sabitliyi prosesdə həlledici amildir - data mərkəzləri 20–30 illik fəaliyyət dövrü üçün qurulduğundan, uzunmüddətli siyasi risklər minimuma endirilməlidir.

Beləliklə, dünyanın texnoloji xəritəsi hazırda sürətlə yenidən formalaşır. Avropada enerji asılılığı və rəqəmsal transformasiya, ABŞ ilə Çin arasında texnoloji rəqabətin kəskinləşməsi, süni intellekt modellərinin sürətlə böyüməsi və rəqəmsal iqtisadiyyatın genişlənməsi Azərbaycan üçün tarixi imkan yaradıb. Bratislava bəyanatı da məhz sözügedən proseslərin mərkəzində ölkəmizin öz rolunu dəqiq müəyyənləşdirdiyini göstərir.

***N.BEYDİYEVA***
***XQ***

# Strateji tərəfdaşlığın tarixi ədalətə işıq salan üfüqləri

**ABŞ Konqresində Azərbaycanla bağlı yardım məhdudiyyətlərinin, o cümlədən 907-ci düzəlişin ləğvi üçün yeni qanun layihəsinin irəli sürülməsi Vaşinqton–Bakı münasibətlərində son illərin ən diqqətçəkən dönüş nöqtələrindən biridir. Təşəbbüs bir tərəfdən ABŞ siyasətində dəyişən prioritetlərin, digər tərəfdən Azərbaycanın regionda yaratdığı yeni geosiyasi realıqların nəticəsi kimi dəyərləndirilir.**



Layihənin müəllifi – Nümayəndələr Palatasının üzvü Luna Anna Paulina, faktiki olaraq, 30 ilə yaxın davam edən tarixi ədalətsizliyə yenidən baxış prosesinə siyasi impuls vermiş oldu. Məhz bu kontekstdə üç fundamental sual ortaya çıxır: İlk olaraq cavablandırmalıyıq ki, ABŞ Konqresinin son 30 ildə Azərbaycana qarşı formalaşdırdığı qərəzli xətt nə idi və bugünkü dönüş nədən qaynaqlanır?

1990-cı illərin əvvəllərindən etibarən ABŞ Konqresində Azərbaycanla bağlı formalaşan siyasi mühit tədricən birtərəfli təsir kanallarının nəzarətinə keçdi. "Soyuq müharibə"dən sonra Vaşinqtonun yeni geosiyasi xətti hələ tam müəyyənləşməmişdi və bu boşluğu daha çevik fəaliyyət göstərən erməni lobbisi doldura bildi. Konqres üzvlərinə yönəlik siyasi təzyiq, maliyyə dəstəyi və informasiya manipulyasiyası nəticəsində Azərbaycan sanki postsovet mühitində "cəzalandırılması vacib olan tərəf" kimi təqdim olundu. Məhz bu atmosfer 907-ci düzəliş kimi ədalətsiz siyasi aktı doğurdu. İşğala məruz qalan ölkənin deyil, işğalçı tərəfin müdafiə olunduğu bu qərar hüquqi və siyasi məntiq baxımından izahsız idi.

Məhz bu dövrdə ABŞ-ın Cənubi Qafqaz siyasəti ümumiyyətlə ziddiyyətli bir labirintdən ibarət idi. Vaşinqton ATƏT-in Minsk qrupu çərçivəsində Rusiya ilə ortaq vasitəçi kimi çıxış etməli idi, lakin həmin mexanizm, əslində, ABŞ-ı iflic vəziyyətə saldı. Hər iki ölkənin regional maraqları bir-birinə zidd olduğundan, tərəflər "vasitəçilik" adı altında prosesləri, faktiki olaraq, donmuş vəziyyətdə saxladı.

Bəli, ABŞ özünün strateji oyununda Azərbaycanın əhəmiyyətini görmək istəmirdi, çünki struktur olaraq Minsk qrupu Rusiya tərəfindən manipulyasiya olunan platformaya çevrilmişdi. Digər tərəfdən, Ağ Evin müxtəlif administrasiyaları regiona daha çox ideoloji prizmadan baxırdı. Humanitar dəyərlərlə siyasi reallıqların qarışdığı, xristian həmrəyliyi kimi romantik yanaşmaların geosiyasətin sərt qanunlarından üstün tutulduğu bu dövr ABŞ-ın Cənubi Qafqaz siyasətini bəzən hətta emosional qərarlar səviyyəsinə endirirdi. Belə bir yanaşma nə Azərbaycanın ərazi bütövlüyü, nə də regionun real güc balansı baxımından səmərə verirdi. Əksinə, Ermənistanın işğal siyasətini legitimləşdirən, Azərbaycanın isə beynəlxalq hüquqa əsaslanan mövqeyini kölgədə qoyan qərarlar Qərbin öz strateji mövqelərini də zərbə altında qoyurdu.

Son otuz ildə formalaşmış bu qərəzli siyasi kurs Vaşinqtonu, faktiki olaraq, reallıqlardan uzaqlaşdırdı. Azərbaycan regionda enerji təhlükəsizliyi, nəqliyyat kommunikasiyaları, antiterror siyasəti və Qafqazın geoiqtisadi arxitekturasının yenilənməsi kimi sahələrdə əsas oyunçuya çevrilmişkən, ABŞ bu dinamikanı vaxtında dərk etmədi. Ermənistanın geosiyasi yükü Vaşinqtona strateji dividendlər gətirmirdi, Azərbaycanla soyuqluq isə həm Avropanın enerji təhlükəsizliyinə, həm də ABŞ-ın Rusiya və İranın təsir dairələrini məhdudlaşdırmaq planlarına zidd idi.

Məhz bu səbəbdən bu gün Konqresdə 907-ci düzəlişin ləğvinə yönəlmiş təşəbbüs tarixi ədalətə qayıdışdan daha çox, dəyişən geosiyasi mühitin məntiqi nəticəsi kimi görünür. Vaşinqton artıq anlayır ki, köhnə kursu davam etdirmək strateji itkiləri artırıb. Azərbaycana gəldikdə, ölkəmiz regionda yaratdığı yeni siyasi nizamla ABŞ üçün etibarlı tərəfdaşa çevrilib. Yəni Konqresdəki dönüş ABŞ siyasətinin qəfil yumşalması deyil, son illər dəyişən beynəlxalq güc balansının Vaşinqtonu rasionallığa məcbur etməsidir.

* * *

Daha sonra cavablandırmalıyıq ki, bəs Co Baydenin prezidentliyi dövründə anti-Azərbaycan xəttin gücləndiyi halda, Donald Trampın dövlət başçısı postuna geri dönüşü hansı praqmatik kursu aktuallaşdırdı? Nəzərə alaq ki, Bayden–Blinken administrasiyasının Cənubi Qafqaza yanaşması ilk gündən regionun real siyasi dinamikası ilə ayaqlaşmırdı. Vaşinqton uzun illərdir Avropa institutlarında kök salmış ermənipərəst qrupların təsiri altına düşərək, proseslərə ideoloji müstəvidən yanaşmağa başladı. Belə bir xətt Azərbaycanın 44 günlük müharibədən sonra yaratdığı yeni reallığı qəbul etmək əvəzinə, Minsk qrupunun vaxtilə iflasa uğramış mexanizmlərini dirçəltməyə yönəlmişdi. Halbuki həmin mexanizm illərlə bölgəni çıxılmaz vəziyyətdə saxlamış, Ermənistanın işğal siyasətini legitimləşdirən alətə çevrilmişdi.

Bayden komandası bütün bunları nəzərə almaq əvəzinə, Azərbaycanın haqlı mövqeyinə qarşı müxtəlif təzyiq vasitələrinə əl atdı. Demokratiya, insan haqları və dəyərlər adı altında irəli sürülən bəyanatlar, tezliklə siyasi tərəfkeşlik üçün alətə çevrildi. Vaşinqtonun bəzi rəsmilərinin revanşist dairələri ruhlandıran açıqlamaları yalnız Ermənistan daxilində qeyri-konstruktiv qüvvələri gücləndirdi və danışıqların təbii axarını pozdu. ABŞ bir tərəfdən vasitəçi rolunda çıxış etdiyini iddia edir, digər yandan isə prosesə ideoloji müdaxilələr edərək, özünün neytrallığını zəiflədirdi. Nəticədə, sabiq administrasiyanın bölgədəki təsir gücü xeyli azaldı və Vaşinqton, faktiki olaraq, Cənubi Qafqaz siyasətində təşəbbüsü Avropa və Rusiyaya ötürdü.

Trampın siyasi səhnəyə qayıdışı vəziyyəti kökündən dəyişdirdi. 2024-cü il seçkilərindən sonra formalaşan yeni administrasiya əvvəlki dövrün siyasi-sentimental yanaşmalarını kənara qoyub regiona daha sərt, rasionallığa əsaslanan strategiya ilə baxmağa başladı. Tramp komandasının prioritetləri qısa müddətdə aydın oldu: ABŞ-ın Rusiya qarşısında mövqelərinin gücləndirilməsi, enerji marşrutlarının təhlükəsizliyinin təmin olunması və İranın regional təsir səviyyəsinin balanslaşdırılması üçün Cənubi Qafqazda etibarlı tərəfdaşlara ehtiyac var idi. Elə bu mənzərədə Azərbaycan ən funksional seçim idi.

Yeni administrasiya anladı ki, Bayden dövründə tətbiq olunan təzyiq siyasəti Vaşinqtonu regionun real oyunçularından uzaqlaşdırmışdı. Tramp komandasının praqmatik baxışı isə tərəflər arasında gərginliyi azaltmaqla bərabər, Vaşinqtonun Bakı ilə əməkdaşlığı bərpa etməsini asanlaşdırdı. ABŞ siyasətində birdən-birə yaranan yumşalma regionun enerji xəritəsində Azərbaycanın oynadığı rol, Avropanın enerji diversifikasiyasına verdiyi töhfə və geosiyasi sabitlik baxımından yaratdığı dəyər Vaşinqtonu daha realist davranmağa vadar etdi. Bu kurs Vaşinqton–Bakı münasibətlərində uzun illərdir gözlənilən dönüş nöqtəsini formalaşdırdı. Etimad mühiti yenidən bərpa olundu, qeyri-praqmatik davranışlar arxa plana keçdi və ABŞ Azərbaycanın strateji tərəfdaş kimi əhəmiyyətini açıq şəkildə qəbul etməyə başladı. Təhlükəsizlik, enerji, regional sabitlik kontekstində yeni dövrün başlanğıcı bu praqmatik yanaşmanın nəticəsidir.

* * *

Nəhayət, sonuncu sualımızı cavablandıraq: siyasi dönüş ABŞ–Azərbaycan əlaqələrini hansı yeni mərhələyə daşıyır və bu, bölgədə sülhə necə təsir edir? Tramp administrasiyasının geri dönüşü ilə Vaşinqton–Bakı xəttində yaranan yeni siyasi dinamika münasibətlərin keyfiyyət etibarilə tamamilə başqa mərhələyə keçməsi deməkdir. Uzun illər ideoloji çərçivələrdə ilişib qalan əlaqələr indi daha çox liderlərin şəxsi siyasi iradəsinə, qarşılıqlı rəğbətə və praqmatizmin üstünlük təşkil etdiyi real siyasət anlayışına əsaslanır. ABŞ-ın Azərbaycana münasibətində yaranan bu ton dəyişikliyi göstərir ki, Vaşinqton prosesləri emosional yanaşmalardan çıxarıb yenidən strateji düşüncə müstəvisinə qaytarıb.

Münasibətlərdəki dəyişimin ən mühüm göstəricisi, əlbəttə ki, ABŞ Konqresində gündəmə gətirilmiş yeni qanun layihəsidir. Deməli, qanunverici orqan daxilində də məsuliyyət hissi formalaşır. Vaşinqtonun siyasi elitası anlayır ki, 30 illik məhdudiyyət siyasəti nə Ermənistanı daha güclü edib, nə də regionda ABŞ-ın nüfuzunu artırıb. Əksinə, bu məhdudiyyətlər Cənubi Qafqazda qərbyönlü siyasətin qarşısını kəsən yükə çevrilib. Məhz buna görə məhdudiyyətlərin ləğvi ABŞ-ın öz strateji maraqlarının yeni şərtlərə uyğunlaşması anlamına gəlir.

Yeni mərhələnin ən mühüm komponenti isə bölgədə sülhün perspektividir. Vaşinqton artıq aydın dərk edir ki, Ermənistanın qeyri-real tələblərinin müdafiəsi və revanşist ritorikanın stimullaşdırılması sülh prosesini dalana dirəyirdi. ABŞ üçün bu siyasəti davam etdirmək nə regiona dayanıqlı sabitlik gətirir, nə də Qərbin maraqlarını qoruyurdu. Azərbaycanın isə son illərdə yaratdığı geosiyasi model – açıq kommunikasiyalara əsaslanan yeni nəqliyyat şəbəkəsi, iqtisadi inteqrasiya təşəbbüsləri və regional həmrəyliyə yönəlmiş siyasət Vaşinqton üçün tamamilə yeni



perspektiv açır. ABŞ bu modeldə həm enerji təhlükəsizliyi üçün təminat, həm Rusiya–İran təsirinin balanslaşdırılması üçün dayaq, həm də Avrasiyanın mərkəzində etibarlı strateji tərəfdaş görür.

Sonda qeyd edək ki, Vaşinqton Bakı ilə əməkdaşlığın genişlənməsini Cənubi Qafqazda real sabitliyin yeganə yol xətti kimi görməyə başlayıb. Sülhə aparan siyasi xətt, bu mənada, konkret geosiyasi məntiqə söykənən, tərəflərin maraqlarının üst-üstə düşdüyü reallıqdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Avropa miqrasiya problemini qorxu sindromuna çevirir

## *Azərbaycan isə məsələyə regional nəzarət və hüquqi nizamlama baxımından yanaşır*

**Avropada miqrasiya məsələsi uzun müddət iqtisadi ehtiyaclar, əmək bazarı və humanitar öhdəliklər kontekstində müzakirə olunurdu. Lakin son illər sözügedən məsələ bu çərçivədən kənara çıxıb. Miqrasiya artıq Avropa üçün nə əmək bazarının tamamlayıcısı, nə də humanitar məsuliyyət sahəsi kimi qəbul edilir.**

Hətta Avropada miqrasiya ilə bağlı verilən qərarların böyük hissəsi real inteqrasiya mexanizmlərindən çox populist təzyiqlərə cavab vermək məqsədi daşıyır. Daha dəqiq desək, miqrant obrazı siyasi diskursda fərdi talelərdən və konkret reallıqlardan uzaqlaşaraq kollektiv təhlükə simvoluna çevrilir. Bu isə problemin həlli əvəzinə onun böyüməsini sürətləndirir.

Məsələni daha yaxşı anlamaq üçün əvvəlcə qitə dövlətlərinin miqrasiya siyasətini analiz etmək lazımdır. Məsələn, Almaniya uzun müddət Avropada miqrantların inteqrasiyası üçün ən real modellərdən biri kimi təqdim olunurdu. "Açıq qapı" siyasəti bir dövr rəsmi Berlinin humanitar liderlik iddiasını gücləndirmişdi. Lakin bu model siyasi səbir və ictimai konsensus tələb edirdi. Amma bu iki amil son illər sürətlə aşınmağa başladı. Sağçı Almaniya üçün Alternativ (AfD) partiyasının yüksəlişi miqrasiya mövzusunun əsas siyasi partiyalar tərəfindən sərtləşdirildiyini göstərib. Təhlükəli məqam ondadır ki, miqrasiya artıq struktur inteqrasiya problemindən daha çox ictimai təhlükəsizlik və mədəni uyğunluq məsələsi kimi təqdim olunur. Bu yanaşma miqrantları cəmiyyətin potensial risk qrupuna çevirir. Qəribəsi odur ki, Almaniya kimi işçi qüvvəsinə ciddi ehtiyacı olan ölkədə bu ritorika paradoks yaradır. Fransaya gəldikdə isə ölkədə miqrasiya müzakirəsi postkolonial məsuliyyətdən qaçış forması alır. Parisin miqrasiya mövzusu digər Avropa dövlətlərindən daha dərin tarixi qatlara malikdir. Çünki Şimali Afrika və Yaxın Şərqdən gələn miqrantlar Fransa cəmiyyətində milli kimliklə bağlı mübahisələrin mərkəzində dayanır. Mübahisələrin kökündə isə Fransanın müstəmləkə keçmişi ilə üzləşmək istəməməsi durur. Milli Birlik Partiyasının yüksəlişi bu çatların artıq siyasi normaya çevrildiyini göstərir. Görünür, rəsmi Paris, faktiki olaraq miqrasiya mövzusunu daxili mədəni müharibə aləti hesab edir. Bu isə radikallaşma risklərini maksimum həddə çatdırır.



Ümumiyyətlə, miqrasiya məsələsi, demək olar ki, bütün dünyanın diqqət mərkəzindədir. Məsələn, Böyük Britaniya üçün miqrasiya "Brexit" prosesinin ("Britain" və "exit" sözlərinin birləşməsindən yaranıb və Böyük Britaniyanın Aİ-dən çıxmasını ifadə edir) əsas ideoloji sütunlarından biri idi. Çünki Avropa İttifaqından çıxış miqrasiya üzərində tam nəzarət vədi ilə əsaslandırılmışdı. Lakin "Brexit"dən sonrakı dövrdə bu mövzu hökumətlərin siyasi uğursuzluqlarını ört-basdır etmək üçün gündəm alətinə çevrildi. Belə olan halda isə miqrant anlayışı tədricən hüquqi statusdan çıxarılaraq təhlükəsizlik kateqoriyasına salındı. La-Manş boğazından keçən miqrantların kriminal ritorika ilə təqdim olunması cəmiyyətdə empatiya hissini zəiflətdi və sərt tədbirlərin normallaşmasına zəmin yaratdı. Ruandaya deportasiya planı kimi təşəbbüslər isə cəza mexanizmlərinə əsaslanan idarəetmənin göstəricisi idi. Bu yanaşmalar miqrasiya problemini həll etməkdən daha çox onu hüquqi qeyri-müəyyənlik, sosial marginalizasiya və radikallaşma mənbəyinə çevirdi. Hazırda Böyük Britaniya daxil bir çox ölkələr miqrasiya məsələsini siyasi simvola çevirməklə real struktur problemlərdən yayınmağa çalışırlar. Dünyada miqrasiya məsələsi məhz "simptomlar" üzərindən idarə edilir. Müharibələr, iqlim böhranı, qlobal bərabərsizlik və postkolonial məsuliyyət kimi amillər kənarda qalır. Miqrantlar isə bu problemlərin simvolik "günah keçisinə" çevrilir.

* * *

Azərbaycan miqrasiya məsələsinə tarixi və təhlükəsizlik reallıqları prizmasından yanaşır. Yəni dövlətimizin miqrasiya ilə bağlı mövqeyi Avropadan köklü şəkildə fərqlənir. Bunun əsas səbəbi Azərbaycanın miqrasiya proseslərini real tarixi təcrübə kimi yaşamış ölkə olması ilə izah edilə bilər. Rəsmi Bakı illərlə həm miqrasiya, həm də məcburi köçkün problemi ilə üzləşib. Amma Avropadan fərqli olaraq dövlətimiz üçün miqrasiya nə daxili siyasi manipulyasiya alətidir, nə də ideoloji qarşıdurma mövzusu. Çünki siyasətdə əsas xətt təhlükəsizlik, hüquqi nəzarət və sosial balans üzərində qurulub. Cəmiyyət miqrasiya məsələsinə empirik (real faktlara əsaslanan) təcrübə ilə yanaşır. Xatırlatmaqda fayda var ki, onilliklər boyu bir milyondan artıq azərbaycanlı məcburi köçkün statusunda yaşayıb və yaşamağa davam edir. Bunun əyani sübutu kimi Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızı göstərə bilərik. Lakin onların taleyi Avropada tez-tez istifadə olunan "miqrant" anlayışı ilə eyniləşdirilə bilməz. Çünki bizdə vəziyyət daha ciddidir. Məhz bu reallıq miqrasiya məsələsinin romantik və ya ideoloji təqdimatına imkan vermir.

Xüsusi vurğulanmalıdır ki, ölkəmizin miqrasiya siyasəti dövlətçilik və regional sabitlik üzərində qurulub. Azərbaycan miqrasiya proseslərini milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi görür. Bu yanaşma Avropadakından fərqli olaraq institusional nəzarət və hüquqi mexanizmlər üzərindən qurulub. Azərbaycan üçün əsas prinsip miqrasiya proseslərinin şəffaf, nəzarətli və dövlət maraqlarına uyğun idarə olunmasıdır. Əslində, ölkəmizin miqrasiya yanaşması normativ model kimi dəyərləndirilə bilər. Avropa üçün əsas örnək miqrasiya probleminin institusional düşüncə və uzunmüddətli strategiya ilə idarə olunması ola bilər. Əks halda, anti-miqrant ritorika Avropanın öz dəyərlərini daxildən çürüdən məsələyə çevirəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Miqrasiya məsələsi həqiqətən də qlobal miqyasda ən həssas və ziddiyyətli mövzulardan biri kimi qalmaqdadır. Avropada və bir sıra inkişaf etmiş ölkələrdə miqrasiya həm də siyasi sabitlik və təhlükəsizlik problemi kimi qəbul olunur. Bu fonda Azərbaycan son illər formalaşdırdığı miqrasiya idarəetmə modeli ilə fərqli və diqqətçəkən yanaşma nümayiş etdirir. Ölkəmizin üstünlüyü ondan ibarətdir ki, miqrasiya siyasəti təhlükəsizlikyönümlü repressiv mexanizm əvəzinə, sosial siyasətin tərkib hissəsi kimi qurulub. Dövlət miqrasiya proseslərini nəzarətsiz buraxmır, amma, eyni zamanda, insan hüquqları, sosial adaptasiya və hüquqi şəffaflıq prinsiplərini ön plana çəkir. Problem ondadır ki, Azərbaycan tərəfindən uğurla qorunan bu balans bir çox ölkələrdə ya pozulub, ya da qurula bilməyib.

Son illər atılan addımlar – elektron xidmətlərin genişləndirilməsi, "ASAN xidmət" modeli ilə miqrasiya prosedurlarının sadələşdirilməsi, əmək miqrasiyasının hüquqi çərçivəyə salınması Azərbaycanı postsovet məkanında fərqləndirən əsas amillərdəndir. Bu gün tam məsuliyyətlə demək olar ki, ölkəmizdəki müvafiq dövlət qurumları miqrant üçün "xidmət göstərən institut" obrazı qazanıblar. Bu isə kölgə miqrasiyasının azalmasına və sosial gərginliyin minimuma endirilməsinə xidmət edir. Digər mühüm məqam Azərbaycanın multikultural mühitidir. Ölkə tarixən müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin birgə yaşadığı məkan olub. Bu amil miqrantların cəmiyyətə inteqrasiyasını asanlaşdırır. Avropada miqrant–yerli qarşıdurması əsas problemə çevrildiyi halda, Azərbaycanda bu məsələ böhran xarakteri daşımır. Dövlət siyasəti də bu harmoniyanı qorumağa yönəlib. Bunları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan miqrasiya sahəsində alternativ və balanslı model formalaşdırmağa nail olub. Bu model Avropadakı sərt antimiqrant yanaşmalardan fərqli olaraq, təhlükəsizliklə humanizmi uzlaşdırmağa yönəlib. Bu xəttin ardıcıl şəkildə qorunması Azərbaycanı miqrasiya idarəçiliyi sahəsində beynəlxalq müzakirələrdə real nümunə kimi göstərməyə imkan verir.

# Təcrid, yoxsa dominantlıq?

## *Vaşinqtonun təzyiqi Brüsseli taleyüklü seçimlə üzləşdirib*

**Vaşinqton ilə Brüssel arasında münasibətlər növbəti fikir ayrılığı və ya diplomatik gərginlik mərhələsini çoxdan geridə qoyaraq dərin çatın əmələ gəldiyi davamlı qarşıdurma müstəvisinə keçib. ABŞ Prezidenti Donald Tramp tərəfindən qəbul edilən yeni Milli Təhlükəsizlik Strategiyası Avropanın müharibədən sonrakı liberal elitasına və onun post-milli, bürokratik idarəçilik modelinə yönəlmiş qəti və dönməz qərar rolunu oynayır.**

Avropa İttifaqı (Aİ) rəhbərliyinin güzəştlər etməsinə baxmayaraq, Vaşinqtonun Brüsseli getdikcə ABŞ-ın təhlükəsizliyini zəiflədən qeyri-effektiv qurum kimi görməsi İkinci Dünya müharibəsindən sonra formalaşmış Qərb anlayışının sonunu və beynəlxalq münasibətlərdə praqmatik dövrün başlanğıcını simvolizə edir. Vaşinqtonun yeni kursu Avropadakı bəzi liberal şərhçilərin iddia etdiyi kimi özünütəcrid və ya "yeni Monro doktrinası" olmayıb, əksinə, Avropanın strateji acizliyini və ABŞ olmadan ən mühüm problemlərini belə həll etməyə qadir olmadığını göstərən amansız reallıqdır. Bu strategiya, faktiki olaraq, Aİ-ni tarixi seçim qarşısında qoyur: ya ABŞ-ın yeni qaydalarını qəbul edərək daha kiçik tərəfdaş roluna razılaşacaq, ya da ağrılı və xətalı olsa da, real suverenlik yolunu tutaraq taleyini müstəqil şəkildə müəyyən etməyə çalışacaq.

Bu tarixi qarşıdurmanın mahiyyətini dərk etmək üçün, ilk növbədə, ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyasında Avropaya yönəlik müddəalarını sistemli bilmək zəruridir. Sənəd diplomatik dillə pərdələnmiş olsa da, mahiyyət etibarilə Aİ-nin mövcud idarəçilik modelinə və siyasətinə qarşı yönəlmiş ittihamnamədir. Strategiyada ittifaqın üzləşdiyi miqrasiya böhranının "sivilizasiyanın silinməsi" (civilisational erasure) təhlükəsi yaratdığına edilən işarə təsadüfi ifadə seçimi deyil. Vaşinqton strateqlərinin nəzərində Brüsselin yürütdüyü "açıq qapı" siyasəti, nəzarətsiz miqrasiya axınları Avropa sivilizasiyasının təməlini təşkil edən milli kimlikləri, mədəni dəyərləri və ənənəvi həyat tərzini zəiflədərək uzunmüddətli perspektivdə Qərb sivilizasiyasının özünü təhlükə altına atır.

Strategiyanın ikinci kəskin tənqid hədəfi Aİ ölkələrində "siyasi azadlıq və suverenliyi sarsıdan" senzura praktikasıdır. ABŞ-ın baxış bucağından, xüsusən rəqəmsal platformalarda və sosial mediada "nifrət nitqi" ilə mübarizə adı altında həyata keçirilən sərt tənzimləmələr, əslində, Brüsselin rəsmi kursuna zidd olan alternativ fikirlərin susdurulması məqsədi güdür. ABŞ Dövlət katibinin müavini Kristofer Landaunun Aİ hakimiyyətlərini "seçilməmiş, qeyri-demokratik və qeyri-representativ" adlandırması və onların ABŞ-ın təhlükəsizliyini zəiflətdiyini bəyan etməsi məhz həmin fəlsəfi ayrılığın ən yüksək səviyyədə ifadəsidir.

İllərdir təbliğ olunur və Avropanın təhlükəsizliyini təmin etmək, müstəqil hərbi güc yaratmaq, xarici siyasətini Vaşinqtondan asılı olmadan müəyyənləşdirmək hədəfini güdür.

Lakin spektrin digər ucunda Aİ-nin diplomatiya xidmətinin rəhbəri Kaya Kallasın daha barışdırıcı və praqmatik mövqeyi dayanır. Onun Dohadakı forumda ABŞ-ın yeni strategiyasında Aİ-yə yönəlik tənqidlərin çox olduğunu, lakin onların bir daha praqmatik və birbaşa milli maraqlara söykənən şəkildə yenidən qurur. Vaşinqton artıq bütün dünyanın problemlərini həll etmək və müttəfiqlərinin təhlükəsizliyini təmənnasız şəkildə təmin etmək kimi ağır yükü daşımaq istəmir. Yeni strategiyanın mahiyyəti ondan ibarətdir ki, ABŞ öz tərəfdaşlarından daha çox məsuliyyət götürmələrini, müdafiə xərclərini artırmalarını və regional təhlükəsizliklərinin təminatında daha fəal rol oynamalarını tələb edir.



Bu ideoloji hücum qarşısında Aİ rəhbərliyinin reaksiyası qurumun daxilindəki dərin çaşqınlığı və strateji iflici açıq-aşkar nümayiş etdirdi. Avropa Şurasının sədri Antonio Koştanın Tramp administrasiyası ilə iqlim böhranı kimi məsələlərdə mövcud fikir ayrılıqlarının yeni strategiya ilə tamamilə fərqli müstəviyə keçdiyini, Avropa siyasətinə müdaxilə təhdidi ilə barışmayacaqlarını və "Avropanın suveren olması" gərəkdiyini bəyan etməsi Brüsselin bir hissəsinin ABŞ-ın patronajlığından çıxmaq və qlobal səhnədə müstəqil qütb kimi çıxış etmək arzusunu əks etdirir. Həmin "strateji muxtariyyət" ideyası, xüsusilə Fransa Prezidenti Emmanuel Makron tərəfindən qisminin hətta "ədalətli" olduğunu etiraf etməsi və yekunda "biz əsas müttəfiqlərik və bir yerdə dayanmalıyıq" deməsi ABŞ-ın hərbi çətirinin Avropa üçün hələ də əvəzolunmaz olduğunu dərk edən realpolitik cərəyanın göstəricisidir. Kallasın mövqeyi xüsusilə Rusiyanın təcavüzündən birbaşa təhdid hiss edən Şərqi və Mərkəzi Avropa ölkələrinin ümumi əhval-ruhiyyəsini əks etdirir.

Vaşinqtonun yeni kursunu "izolyasiyaizm" və ya "yeni Monro doktrinası" kimi təqdim etməyə çalışan Avropanın liberal şərhçilərinin arqumentləri tamamilə əsassız görünür. ABŞ dünyadan təcrid olunmur; əksinə, xarici siyasətini daha selektiv, Brüsseldəki görüşlərdən kənarda qalmaqla Amerika hökuməti heç nə itirmədi.

* * *

Bütün bu proseslərin fonunda Avropanı transatlantik münasibətləri qeyri-müəyyənliklə müşayiət olunan, ciddi transformasiya və yeni güc balanslarının formalaşdığı çətin gələcək gözləyir. Birincisi, Aİ daxilində parçalanma dərinləşəcək. ABŞ ilə sıx təhlükəsizlik əlaqələrinə üstünlük verən Şərqi və Mərkəzi Avropa ölkələri (Polşa, Baltikyanı dövlətlər və s.) ilə "strateji muxtariyyət" arzusunda olan Qərbi Avropa nüvəsi (Fransa, qismən Almaniya) arasında ziddiyyətlər daha da kəskinləşəcək. Vaşinqton Brüsseli arxa plana çəkərək birbaşa Varşava, Buxarest və digər paytaxtlarla ikitərəfli hərbi və siyasi sazişlər imzalamağa davam edəcək. Həmin proses Aİ-nin vahid xarici siyasət orqanı kimi rolunu tamamilə nominal səviyyəyə endirə bilər.

İkincisi, "Brüssel effekti"nin, yəni Aİ-nin öz daxili bazarının gücü vasitəsilə qlobal standartları (ətraf mühit, rəqəmsal tənzimləmə, istehlakçı hüquqları və s.) müəyyən etmək qabiliyyətinin zəifləməsi sürətlənəcək. ABŞ Aİ-nin tənzimləmə modelinə açıq şəkildə meydan oxuyaraq, öz şirkətlərini qorumaq və daha azad ticarət prinsiplərinə əsaslanan alternativ standartlar irəli sürmək üçün digər ölkələrlə yeni ticarət blokları yaratmağa çalışacaq.

Üçüncüsü, Avropa real seçim qarşısında qalacaq: ya öz hərbi potensialını kəskin şəkildə artırmalı, ya da ABŞ-ın yeni şərtlərini qəbul etməlidir. Real Avropa Ordusunun yaradılması ideyası onilliklərdir müzakirə olunsa da, heç vaxt reallaşmayıb. Bunun üçün nə maliyyə resursları, nə vahid komandanlıq strukturu, nə də, ən əsası, siyasi iradə mövcuddur. Ayrı-ayrı ölkələrin milli maraqları ümum-Avropa maraqlarından hələ də üstün hesab olunur. Bu səbəbdən daha real ssenari, Avropanın müəyyən daxili müqavimətdən sonra ABŞ-ın liderliyini qəbul etməsi, lakin həmin ittifaqın artıq "bərabərhüquqlu tərəfdaşlıq" yox, Vaşinqtonun dominant olduğu iyerarxik model üzərində qurulmasıdır.

Şahidi olduğumuz proseslər, sadəcə, bir administrasiyanın siyasətindən qaynaqlanan müvəqqəti böhran deyildir. Bu, Qərb sivilizasiyasının öz daxilində baş verən dərin tektonik hərəkətlərin, fərqli inkişaf modellərinin, dünya baxışlarının toqquşmasının nəticəsidir. ABŞ-ın yeni Milli Təhlükəsizlik Strategiyası tarixi prosesin katalizatoru və manifesti rolunu oynadı. Köhnə transatlantik ittifaq "soyuq müharibə" dövrünün ortaq təhdidləri və liberal internasyonalizm idealları üzərində qurulmuşdu. Həmin təməllər artıq mövcud deyil. Dünya dəyişib və ABŞ da yeni dünyaya uyğun siyasət yürüdür. Avropa İttifaqı isə hələ də keçmişin illüziyalarından tam qurtula bilməyib və yeni reallıqlara uyğunlaşmaqda çətinlik çəkir. Qarşıdakı illər Avropanın taleyini müəyyən edəcəyi çətin sınaqlar dövrü olacaq. Vaşinqton isə həmin prosesi kənardan, praqmatik maraqları və soyuq strateji hesablamaları ilə izləyəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# İrəvanda "uğursuz qocalar" döyüşə hazırlaşır

## *Ter-Petrosyanın EMKP sədri seçilməsi müxalif düşərgənin qəflətdən ayılmadığını göstərir*

**Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan yenidən Erməni Milli Konqresi Partiyasının sədri seçilib. Bu barədə Hayastan mətbuatı məlumat yayıb. Müvafiq qərar partiyanın dekabrın 14-də baş tutan IV qurultayında 29 üzv arasında keçirilən gizli səsvermə nəticəsində qəbul olunub. Qurultay nümayəndələri Ter-Petrosyanın siyasi qüvvənin lideri kimi qalmasını dəstəkləyərək, onun partiya sədri kimi səlahiyyətlərini təsdiqləyiblər.**

Qeyd edək ki, Erməni Milli Konqresi ölkənin müxalif siyasi partiyasıdır. Təşkilat 2008-ci ildə L.Ter-Petrosyanın rəhbərliyi ilə 13 müxalifət partiyasının seçki bloku kimi yaradılıb və Erməni Milli Konqresi adlanırdı. Məqsəd həmin il keçirilən prezident seçkilərində iştirak etmək idi. Hərəkat 2013-cü ildə seçki blokunun bazası əsasında vahid siyasi partiyaya çevrilib və onun adı da dəyişdirilərək Erməni Milli Konqresi Partiyası adlandırılıb.

Levon Ter-Petrosyanın yenidən Erməni Milli Konqresi Partiyasının sədri seçilməsi ilk baxışdan sıradan partiyadaxili qərar təsiri bağışlaya bilər. Lakin bu hadisə daha geniş kontekstdə Ermənistan müxalifətinin real vəziyyətini, siyasi alternativsizlik problemini və cəmiyyətdə dərinləşən lider boşluğunu açıq şəkildə ortaya qoyur. Partiya qurultayında Ter-Petrosyanın yenidən sədr seçilməsi, əslində, yeni mərhələnin başlanğıcı deyil. Bu, daha çox köhnə siyasi xəttin davam etdirilməsi, vaxtilə formalaşmış, lakin artıq öz aktuallığını itirmiş modelin qorunub saxlanması cəhdidir. Erməni Milli Konqresi Partiyası uzun müddətdir ki, Ermənistan siyasətində aparıcı rol oynamır və onun ictimai təsir imkanları xeyli zəifləyib.

* * *

Qurultaydan sonra verilən açıqlamalar Ter-Petrosyanın 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkilərində iştirakı ehtimalını gücləndirdi. Əslində, bu mövzu yeni deyil. Bununla bağlı lap əvvəldən məlumatlar dolaşırdı. Məsələn, hələ bu ilin sentyabr ayında partiya sədrinin müavini Levon Zurabyan Erməni Milli Konqresi Partiyasının 2026-cı il seçkilərində iştirak etmək niyyətində olduğunu dolayısı ilə təsdiqləmişdi. Sədr müavini partiyanın seçkilərlə bağlı digər siyasi qüvvələrlə əməkdaşlığa hazır olduğunu da bildirmişdi: "Erməni Milli Konqresi Partiyası əsas rola can atmır, digər qüvvələrlə əməkdaşlığa da hazırdır".

Bütövlükdə, Ter-Petrosyanın iddiasından asılı olmayaraq onun gələnilki seçkilərdə şansının yüksək olduğunu söyləmək mümkün deyil. Burada birinci və ən açıq amil yaş məsələsidir. Cəmi bir neçə həftədən sonra – 2026-cı il yanvarın 9-da Ter-Petrosyan 81 yaşını tamamlayacaq. Bu yaşda siyasətçinin uğur qazanacağı az inandırıcıdır. Hər halda, Ter-Petrosyan elə yüksək qabiliyyətə malik deyil ki, məsələn, Almaniya Federativ Respublikasının ilk federal kansleri Konrad Adenauer kimi ahıl çağında – 73 yaşında siyasi hakimiyyətə gəlsin və 87 yaşına kimi ölkəni idarə etsin. Ermənistan kimi dinamik, eyni zamanda, dərin siyasi böhran içində olan ölkədə elektorat daha çevik, aktiv və gündəmin tələblərinə uyğun lider axtarır. Yaş təkcə bioloji göstərici deyil, həm də siyasi–psixoloji faktordur.

İkinci mühüm məqam onun siyasi irsidir. Ter-Petrosyanın hakimiyyət illəri Ermənistan üçün uğurlu dövr kimi xatırlanmır. Onun idarəçiliyi Ermənistan üçün yaxşı heç nə ilə yadda qalmayıb. Ölkə Birinci Qarabağ müharibəsindən qalib ayrılsa da, 1990-cı illər ölkənin tarixində iqtisadi iflas, sosial çətinliklər, enerji böhranı və kütləvi miqrasiya ilə yadda qalıb. Həmin illərin simvolu olan siyasi fiqurun bu gün çıxış yolu kimi təqdim edilməsi cəmiyyətin geniş təbəqələri üçün inandırıcı deyil. Əlavə olaraq qeyd etmək lazımdır ki, məhz Ter-Petrosyan dövründə dövlət institutları zəif formalaşdı, siyasi məsuliyyət mexanizmləri isə faktiki olaraq işləmədi. Onun rəhbərliyi illərində qəbul edilən bir çox qərarlar qısamüddətli siyasi maraqlara hesablandığı üçün uzunmüddətli nəticələr doğurmadı. Cəmiyyətdə ədalət və bərabərlik gözləntiləri reallaşmadı, sosial uçurum daha da dərinləşdi. Bu dövrdə yaranan idarəçilik ənənələri sonrakı illərdə də sistemli problemlərin əsasını qoydu. Məhz buna görə Ter-Petrosyanın siyasi irsi bu gün ümid deyil, daha çox xəbərdarlıq kimi dəyərləndirilir.

Üçüncü faktor müxalifət düşərgəsinin dərin parçalanma içində olmasıdır. Erməni Milli Konqresi Partiyası nə kütləvi elektorat bazasına malikdir, nə də digər müxalif qüvvələri ətrafında birləşdirə biləcək mərkəz rolunu oynaya bilir. Zurabyanın "hakimiyyəti təkbaşına dəyişə biləcək qüvvə yoxdur" etirafı, əslində, müxalifətin öz acizliyini dolayısı ilə təsdiqləməsidir. Bu etiraf fonunda Ter-Petrosyanın "mühüm rol" iddiası daha çox nəzəri xarakter daşıyır. Bundan başqa, müxalifət daxilində şəxsi ambisiyalar və liderlik rəqabəti ümumi strategiyanın formalaşmasına imkan vermir. Ayrı-ayrı qruplar arasında etimadsızlıq o qədər dərinləşib ki, hətta taktiki əməkdaşlıq belə real nəticə vermir. Erməni Milli Konqresi Partiyası bu parçalanmanı aradan qaldıra biləcək siyasi çəkidən və təşkilati resurslardan məhrumdur. Belə şəraitdə Ter-Petrosyanın adı birləşdirici faktor yox, əksinə, mübahisəli keçmişi xatırladan simvol kimi çıxış edir. Nəticədə müxalifət cəmiyyətə alternativ yol deyil, yalnız daxili ziddiyyətlərin davamını təklif etmiş olur.

Dördüncü və əsas məsələ siyasi gündəmin dəyişməsidir. Ermənistan bu gün 1990-cı illərin ritorikasını yox, postmüharibə dövrünün reallıqlarını yaşayır. Təhlükəsizlik, regional kommunikasiyalar, iqtisadi adaptasiya və xarici siyasətdə balans axtarışı əsas mövzulara çevrilib. Ter-Petrosyan isə bu yeni gündəmin memarı kimi görünmür. Onun çıxışları və siyasi mövqeyi daha çox keçmiş debatların davamı təsirini bağışlayır. Üstəlik, Ermənistan cəmiyyətində prioritetlər köklü şəkildə dəyişib və seçici emosional çağırışlardan çox konkret çıxış yolları gözləyir. Yeni siyasi gündəm çevik diplomatiya, praqmatik iqtisadi qərarlar və təhlükəsizlik risklərinin real qiymətləndirilməsini tələb edir. Ter-Petrosyan isə bu istiqamətdə nə aydın yol xəritəsi, nə də inandırıcı proqram təqdim edə bilib.



Bütün bunların fonunda Ter-Petrosyanın yenidən sədr seçilməsi müxalifətin yenilənməsi yox, əksinə, durğunluğunun göstəricisi kimi qiymətləndirilə bilər. Ermənistan siyasətində yeni mərhələnin açılması üçün yeni simalar, yeni ideyalar və dəyişən regional reallıqlara uyğun siyasi baxışlar lazımdır. Köhnə liderlərin geri dönüşü isə real alternativ formalaşdırmır, daha çox emosional nostalgiya yaradır…

* * *



**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Ter-Petrosyanın yenidən Erməni Milli Konqresi Partiyasının sədri seçilməsi ölkə siyasətində sistem böhranının açıq əlamətidir. Onun sözlərinə görə, müxalifət yeni liderlər və müasir platformalar ortaya çıxara bilmədiyi üçün siyasi səhnədən, faktiki olaraq, çəkilmiş fiqurlara yenidən müraciət edir. Bu isə seçici üçün real seçim imkanını daha da daraldır: "Ter-Petrosyanın əsas problemi onun keçmişlə assosiasiya olunmasıdır. O, Ermənistan cəmiyyətində nə gələcək layihəsinin müəllifi, nə də böhrandan çıxışın simvolu kimi qəbul olunur. Əksinə, onun adı daha çox itirilmiş imkanlar, daxili qarşıdurmalar və dövlət institutlarının zəif formalaşdığı dövrlə bağlı xatırlanır. 2026-cı il seçkilərində Ter-Petrosyanın iştirakı daha çox simvolik xarakter daşıyacaq. Bu iştirak siyasi nəticədən çox, müxalifətin mövcudluğunu xatırlatmaq cəhdidir. Lakin Ermənistanın qarşısında duran problemlər simvolik addımlarla deyil, yeni siyasi düşüncə ilə həll oluna bilər. Mövcud mənzərə göstərir ki, köhnə liderlərin geri dönüşü bu boşluğu doldurmaq gücündə deyil".

Siyasi ekspert onu da vurğuladı ki, cəmiyyətin əhəmiyyətli hissəsi artıq siyasi eksperimentlərdən və keçmiş fiqurların yenidən dövriyyəyə buraxılmasından yorulub. Onun fikrincə, bu cür addımlar müxalifətin intellektual və kadr potensialının nə dərəcədə məhdud olduğunu da açıq şəkildə nümayiş etdirir. İ.Hüseynov hesab edir ki, seçici davranışına təsir göstərmək üçün təkcə tanınmış ad kifayət etmir, konkret proqram və inandırıcı komanda tələb olunur: "Ter-Petrosyan faktoruna ümid bağlanması müxalifət daxilində yeni simaların önə çıxmasını ləngidir. Nəticə etibarilə, bu yanaşma Ermənistan müxalifətinin uzunmüddətli perspektivdə zəifləməsinə xidmət edir".

***Səxavət HƏMİD***
***XQ***

# Xəzəryanı region və müasir geosiyasət: Azərbaycan konteksti

**I MƏQALƏ**



## “Böyük neft oyunu” Xəzərin dəyişən geosiyasəti fonunda

XXI əsrin üçüncü onilliyində Xəzər hövzəsinin geosiyasətini, bir qayda olaraq, “mürəkkəb və çoxtərəfli fenomen” adlandırırlar. Onun əsas komponentləri kimi enerji resurslarını, onların nəqlini, təhlükəsizliyi, ekologiyanı, 5 xəzəryanı dövlətin rəqabətini və qlobal geosiyasi güclərin təsirini vurğulayırlar. Bu zaman əsas məsələ kimi Xəzərin statusunu, onun sektorlara bölünməsini, boru marşrutları layihələrini, münaqişələri, ekoloji problemləri, son zamanlar isə dəniz səviyyəsinin düşməsini önə çəkirlər. Bunlar, müəyyən mənada Xəzər hövzəsindəki gərginliyi ifadə edirlər.

Bundan başqa, XXI əsrdə Xəzər maraqların “kəsişmə sahəsi” kimi qəbul edilir. Xəzər hövzəsi Avropa, Asiya və Yaxın Şərq arasında körpüdür. Burada dünya və regionun güclü dövlətlərinin energetik, iqtisadi və hərbi maraqları toqquşur.

Bu təsəvvürlər indiki mərhələdə tamamilə məntiqi və qəbul edilmiş görünür. Ancaq Xəzərin hövzə, region, geosiyasi məkan kimi hazırkı statusa gəlib çıxması ayrıca hadisədir. Çünki tarixi mənbələr, aparılan tədqiqatlar göstərir ki, əslində, Xəzər bütövlükdə dünya geosiyasətində, iqtisadiyyatının transformasiyalarında, hərbi proseslərin gedişində, müxtəlif dövlətlərin münasibətlərinin tarixi təkamülündə xüsusi rol oynamışdır. Faktlardan aydın görünür ki, Xəzər qədimdən böyük dövlətlərin diqqətini çəkmişdir, son bir neçə yüz ildə isə böyük geosiyasi oyunların mühüm tərkib hissəsi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müasir mərhələdə Xəzər nefti ilə əlaqəli aparılan mübarizəni “böyük neft siyasi oyunu” adlandırması çox maraqlıdır. Bu tezisin mənasını tam dərk etmək üçün dövlət başçısı İlham Əliyevin Azərbaycan neftinin dünya siyasətində yeri və rolu kontekstində yazdığı iki əsərində gətirdiyi faktlar və irəli sürdüyü fikirləri təhlil etmək lazımdır.

Əlbəttə, bunun üçün daha geniş tədqiqat tələb olunur. Ancaq həmin kitablarda yer almış fikirlərin yığcam geosiyasi anlamı da mümkündür. Həmin kitablar “Azərbaycan nefti dünya siyasətində” (1997-ci il) və “Azərbaycanın Xəzər nefti” (2003-cü il) adlanırlar. Bu kitablar Ulu öndərin göstərişi ilə Azərbaycan neftinin dünya siyasətindəki rolunun tədqiq edilməsinə həsr edilmiş çoxcildliyin tərkib hissələridirlər. Onların tərtib edilməsində Akif Muradverdiyev də iştirak etmişdir.

Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan Prezidenti həmin əsərlərdə çox dərin və geniş təhlillər aparmış, çoxlu sayda faktlara müraciət etmiş və konseptual aspektdə olduqca maraqlı və əhəmiyyətli nəticələr əldə etmişdir. Müasir dövlət quruculuğu, geosiyasi tədqiqat, siyasi-diplomatik fəaliyyət və uzun müddəti əhatə edə bilən strateji proqnozların verilməsi baxımından son dərəcə qiymətli əsərlərdir.

Həmin əsərlərdə yer almış fikirlər müasir analitiklərin Xəzərin geosiyasətini “dəyişən, dinamik proses” adlandırmaları fonunda konseptual aspektlə yanaşı, çox əhəmiyyətli praktiki məna kəsb edirlər. Çünki dəyişən geosiyasət özlüyündə çevik və sistemli yanaşma tələb edir. Bu, faktiki olaraq müasir elmi tədqiqatda aparıcı yer tutan mürəkkəb, qeyri-xətti və açıq sistemlərin adekvat elmi dərkinə nail olmağı tələb edir. Azərbaycan Prezidentinin tədqiq etdiyi konseptual xarakterli problemlərin həllinə yanaşması məhz həmin baxımdan çox maraqlı və məntiqidir.

Burada bir sıra terminoloji izahdan sonra Azərbaycan Prezidentinin məsələnin tarixinə və müasir geosiyasi xüsusiyyətlərinə olan baxışları əsasında Xəzərin geosiyasətinin əsas hesab etdiyimiz məqamlarını araşdırmağa çalışacağıq.

## “Xəzər regionu”ndan “Böyük Xəzər”ə

Son illərin nəzəri tədqiqatlarında “Xəzər hövzəsi”, “Xəzər regionu”, “Xəzəryanı region”, “Xəzərin geosiyasi məkanı”, “Böyük Xəzər” kimi terminlər müxtəlif kontekstlərdə işlədilir. Lakin onlar müəyyən dərəcədə mənaca fərqləndirilirlər. Bir sıra hallarda isə sinonim olaraq işlədilirlər. Bu, bir qədər terminoloji mürəkkəblik (və ya qeyri-müəyyənlik) yaradır. Ancaq hansı kontekstdə termindən istifadə edildiyinə diqqət edəndə mənzərə aydınlaşır.

Vurğulanan terminlərin hər biri üçün ortaq olanı “Xəzər” sözüdür. Xəzər burada iki anlamda - dəniz (su yeri) və geosiyasi anlamı olan coğrafi məkan, ərazi kimi işlədilir. Bu baxımdan yuxarıdakı terminlər arasında ciddi məna fərqi mövcud deyildir – onların hər biri Xəzərin nəzəri obrazına daxildir.

Bir sıra tədqiqatlarda vurğulanır ki, hazırda “Xəzərin geosiyasi məkanı” əsas olaraq “Böyük Xəzər” termini ilə ifadə edilir. Bura regionun təbii ehtiyatları və nəqliyyat-kommunikasiya potensialı da daxildir. Bundan başqa, Xəzərin vahid ekosistemi və bioloji müxtəlifliyi kimi mühüm anlayışlar da aiddir. O halda “Böyük Xəzər”i geosiyasi konsept kimi, ümumiyyətlə, “Xəzər regionu” anlayışının tərkib hissəsi kimi təsəvvür edə bilərik.

Bununla yanaşı, elmi ədəbiyyatda adətən Xəzər regionu məhdud mənada da dərk edilir. Yəni o, dəniz su sahəsinə çıxan ərazilər olaraq təsəvvür edilir. Geniş anlamda isə Xəzər regionu Cənubi Qafqaz və Mərkəzi Asiyanı əhatə edən geosiyasi məkan olaraq qəbul edilir.

“Xəzər hövzəsi” Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İranın qurudan əhatə etdiyi su hövzəsidir. “Xəzəryanı region” dənizə çıxışı olan 5 dövlətin əhatə etdiyi geosiyasi məkandır.

Bu terminoloji müqayisələrdən belə alınır ki, daha uyğun olanı “Xəzəryanı region”dur. Çünki o, həm su hövzəsini, həm də onu əhatə edən bütün əraziləri tam olaraq nəzərə almağa imkan verir. Bununla yanaşı, müasir geosiyasi anlam üçün “Böyük Xəzər” anlayışının mənasına baş vurmaq gərəkdir. Bunun başlıca səbəbi hazırda bir sıra geosiyasi xarakterli nəzəri yanaşmalarda məhz “Böyük Xəzər” anlayışına tez-tez rast gəlinir və həm də onun konseptuallıq məna yükü genişdir.

## “Böyük Xəzər” – “dünyanın karbohidrogen deposu”

Tədqiqatçılar vurğulayırlar ki, “Böyük Xəzər” anlayışı daha çox Xəzərin “geosiyasi ölçülməsi” üçündür. Ancaq onun hələlik dayanıqlı izahı yoxdur. Həmin anlayış əsasən böyük geosiyasi güclərin geosiyasi maraqlarına uyğun izah edilir. Bu o deməkdir ki, “Böyük Xəzər” sırf konseptual-nəzəri termindir və onun məna yükü müxtəlif böyük dövlətlərin maraqlarından asılı olaraq dəyişə bilir. Bu, bir tərəfdən, əlbəttə nəzəri qeyri-müəyyənlikdir, digər tərəfdən isə müasir mərhələdə Xəzəryanı regionun qlobal miqyasda geosiyasi aktuallığının təsdiqidir.

XXI əsrdə Xəzər əvvəlki dövrlərdən daha çox “siyasiləşdirilmiş və geosiyasiləşdirilmişdir”. Bu prizmada hələ keçən əsrin son onilliyindən Azərbaycan neftinə dünya siyasəti kontekstində yanaşmağın uzaqgörənlik olduğuna şübhə yoxdur. Ulu öndərin xüsusi olaraq Azərbaycan neftinin dünya siyasətində yeri və rolunu tədqiq etməyi tapşırması liderin yüksək zəkasından xəbər verir. Məsələnin digər mühüm tərəfi, əlbəttə, Azərbaycanda neft istehsalı, istismarı və nəqlinin qədim tarixə malik olması ilə bağlıdır. Bununla əlaqədar Prezident İlham Əliyev yazır ki, Ulu öndər Azərbaycanın neft tarixini çox dərindən bildiyinə, onun siyasi və geosiyasi əhəmiyyəti ilə yanaşı, dövlətçiliyimizdə tutduğu mühüm yeri tam dərk etdiyinə görə uğurlu neft siyasəti aparmışdır.

“Böyük Xəzər” termini Azərbaycan Prezidentinin vurğuladığımız fikrinin nə dərəcədə əhəmiyyətli olduğunu əlavə olaraq təsdiq edir. Belə ki, “Böyük Xəzər” “Xəzəryanı region” anlayışının iki aspektdə - ərazi və nəqliyyat-daşınma üzrə, genişlənməsidir. Nümunələrə baxaq.

Avropa Şurası terminologiyasında “Böyük Xəzər regionu” adı altında 5 Xəzəryanı ölkənin əraziləri və onlara yaxın olan, Xəzərlə tarixi, iqtisadi və mədəni əlaqələrə malik ölkələr (Özbəkistan, Gürcüstan, Ermənistan) birləşdirilmişdir. Ermənistanı hansı əsasla AŞ bura daxil etmişdir, məlum deyildir. Çünki Ermənistan adlanan dövlət XX əsrin ikinci onilliyində Azərbaycan ərazilərinin hesabına yaradılmışdır ki, ölkə kimi onun Xəzərlə hansısa tarixi əlaqəsindən söhbət gedə bilməz.

ABŞ diplomatı R.E.Hoqlend “Böyük Xəzər” regionunu “dünyanın ən böyük karbohidrat depozit mərkəzi” adlandırır və onun uğrunda Rusiya, Çin, ABŞ və Avropanın mübarizə apardığını vurğulayır.

Bir başqa yanaşmada, “Böyük Xəzər” 5 Xəzəryanı dövləti və “Xəzəryanı onluğu” (Ukrayna, Türkiyə, Gürcüstan, Ermənistan, İraq, Qırğızıstan, Özbəkistan, Tacikistan, Əfqanıstan, Pakistan) birləşdirir.

Digər təsnifdə “Böyük Xəzər” kimi Şimali Qafqazı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı əhatə edən ərazi verilir. Elə yanaşmalar vardır ki, Xəzəri Qara dəniz hövzəsi ilə vahid geosiyasi məkanda görür. Digərlərində hansısa regional və ya beynəlxalq təşkilatın maraqları kontekstində (məsələn, MDB və ya AİB) “Böyük Xəzər”dən bəhs edirlər. Ancaq onların hər birinə ayrıca nəzəri baş vurmadan da “Böyük Xəzər”in müasir mərhələdə geosiyasi anlamı üzərində dayana bilərik.

## Xəzərin geosiyasi aktuallaşması

Gətirilən nümunələrdən görünür ki, Xəzər, ümumiyyətlə, müasir mərhələdə çox ciddi və geniş geosiyasi kontekstdə dünya siyasətinin predmetidir. Onun müxtəlif aspektləri vardır.

Birincisi, Xəzər regionu ərazi kimi əsas olaraq geosiyasi kontekstə malikdir. Yəni müasir mərhələdə Xəzər region ölkələrinin və böyük güclərin məhz geosiyasi aspektdə rəqabət meydanıdır.

İkincisi, Xəzərin “Böyük Xəzər”ə çevrilməsi Xəzəryanı ölkələrlə yanaşı, yaxın və uzaq qonşuların da bu regionda mövcud olan reallıqlara marağının son dərəcə artması ilə bağlıdır. Məsələn, coğrafi olaraq uzaq olan Ukrayna və ya İraqın “Böyük Xəzər”ə daxil edilməsinin başqa hansı anlamı ola bilər? Bu ölkələrin də geosiyasi olaraq Xəzərə aid edilməsi onların təbii resursların istehsalı, istismarı və nəqlində iştirak istəyi ilə əlaqəlidir. Çünki XX əsrin son onilliyindən Azərbaycan Xəzər neft və qazını böyük məharətlə dünya siyasətinin aktual məsələsinə çevirmişdir. O zamandan bu yana rəsmi Bakı çox ciddi və geniş addımlar atmış, layihələr həyata keçirmiş, dünyanın ən güclü şirkətlərini bu prosesə daxil etmiş və faktiki olaraq qlobal miqyasda, obrazlı desək, “Xəzər konsorsiumu” yaratmışdır. İndi uzaq ABŞ və Çindən tutmuş irili-xırdalı çoxlu sayda dövlət “xəzərli” olmağa can atır. Onlar özlərini Xəzər hövzəsinə ərazi və siyasi çıxışı olan ölkə kimi hiss edirlər. Hətta bir sıra ölkələr inciyir, umur, küsür və s.

Ancaq cəmi 32 il öncə vəziyyət tamam başqa idi. Belə ki, Ermənistan və havadarları Azərbaycanı məhv etməyə çalışanda, indi Xəzər həvəsli olanların heç biri Bakının yanında dayanmadı, ona dəstək vermədi. Heydər Əliyevin lider müdrikliyi, siyasi-diplomatik məharəti və qətiyyətli addımları olmasa idi, indi “Böyük Xəzər” anlayışı yox idi və ya heç “kiçik Xəzər”-dən danışmağa həvəsli olan dövlət tapmaq mümkün olmazdı.

Tarix isə hökmlüdür. Azərbaycan xalqının qüdrətli oğlu Heydər Əliyev tarixin hökmünü, öz xalqının hökmlü tarixini və ayrıca neftin dövlətçilikdə oynadığı rolu da çox gözəl bilirdi. Məharəti, iradəsi və qətiyyəti ilə Azərbaycanın neft diplomatiyasını dünya siyasətinin incisinə çevirdi və Azərbaycan neftinin adını dünya sərvəti kimi tarixə qızıl hərflərlə yazdı. Məhz Ulu öndərin neft siyasəti XXI əsrdə “Xəzəryanı region”u “Böyük Xəzər”ə qədər geosiyasi mənada genişləndirdi! Bunun tarixdən gələn məqamları və müasir dünya siyasəti kontekstində təsirli faktorları olan izahı mövcuddur.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**“Məni hakim edən kilsə yox, özüməm və xalqın iradəsidir”. Böyük sərkərdə Napoleon Bonapart 1804-cü il dekabrın 2-də Parisdə Notr-Dam kilsəsində başına imperator tacını qoyarkən, həm o dövrün Fransa, həm də Avropa cəmiyyətinə məhz bu mesajı verdi. O, hərəkəti ilə hakimiyyətini kilsədən və Roma Papasından üstün tutduğunu göstərdi. Halbuki, həmin vaxtadək Avropa hökmdarlarının başlarına tacı papalar qoyurdular. Əslində, Notr-Dama gəlmiş Papa VII Piy də buna ümid bəsləyirdi...**

# Paşinyan, Napoleon və Erməni Apostol Kilsəsi

## *Nikol “qara keşiş”in müqəddəslik maskasını çıxara biləcəkmi?*

Bəli, Orta əsr Avropasında krallar kilsə tərəfindən, bir növ, müqəddəsləşdirilirdilər. Napoleon bu ənənəyə qarşı çıxdı və Fransa Burjua İnqilabının “hakimiyyət xalqa məxsusdur” ideyasını əməli müstəviyə daşıdı. Axı həmin vaxtın klişesinə görə, hakimiyyət Tanrıya məxsus idi, Tanrının yer üzündəki təmsilçisi kilsə sayılırdı. Papalar isə hökmdarların başlarına tac qoymaqla, onların legitimliklərini təsdiqləyirdilər.

Bəli, Napoleon dahi sərkərdə olmaqla yanaşı, eyni zamanda o dövrün sərt və qətiyyətli lideri kimi qiymətləndirilir. O, hərəkəti ilə dövlət–kilsə münasibətlərində yeni dövrün rəmzi başlanğıcını qoydu. Belə bir dolaşıq labirintdə xalq imperatorun şəxsində özünün taleyinə cavabdeh şəxsi gördü və kilsəni deyil, məhz bu cavadehliyi müqəddəsləşdirdi. Nəticə etibarilə, Napoleon Fransada sekulyar dövlətin qurulduğunu, hakimiyyətin mərkəzləşdirildiyini prinsipial məqam kimi bəyan etdi, bütövlükdə “qoca qitə”nin gündəmini dəyişəcək ənənənin əsasını qoydu.

Bəribaşdan deyək ki, bu yazıda Napoleon Bonapartla Ermənistanın baş naziri Nikol Paşinyan arasında hansısa paralellər aparmaq, oxşarlıqlar tapmaq niyyətindən uzağıq. Ancaq fakt faktlığında qalır ki, Nikol ölkəsində kilsə-dövlət münasibətlərində yenilik edir. Onu da deyək ki, bu yeniliyin özü də Orta əsr Avropasının siyasi-mənəvi sistemindəki kimi deyil. Çünki kilsə o dövrün Avropasının, belə demək mümkünsə, həyatına oturmuş reallıq idi və hətta Napoleondan təxminən 3 əsr əvvəlki məşhur Reformasiya hərəkatı da bu reallığı bir o qədər dəyişmək gücündə olmamışdı.

Əlqərəz, müstəqillik dövrü Ermənistanının siyasi-dini həyatında kilsə avantürizmin dayağı kimi çıxış edib. Əslində, bu amplua ümumən erməni kilsəsinin spesifik mahiyyətindən və təməlindən qaynaqlanıb. Nəzərə alaq ki, kilsə Ermənistanın dövlətsizlik dövrünün məhsuludur. Yəni dövlət olmayanda erməni kilsəsi fəaliyyət göstərmiş və birincinin funksiyalarını da əlində cəmləşdirmişdi. Problem həmin funksiyalara baxışın qüsurlu olmasında idi. Axı erməni terrorizminin, hər cür fitnə-fəsadın ilhamvericisi qismində məhz kilsə çıxış etmişdi.

Ermənistan dövlət kimi müstəqilliyini elan etdikdən sonra da kilsə məhz dövlətsizlik dövrünün məhsulu ampluasında qaldı. Bu dəfə təcavüzün, qəsbkarlığın təşəbbüskarı qismində çıxış etdi, habelə ölkədə otuz ilə yaxın müddətdə iqtidarı əlində saxlamış xunta rejiminin başlıca dayağına çevrildi. Hər iki tərəf birləşib həm erməni xalqının hüquqlarını saymazdan gəldi, həm də Azərbaycan torpaqlarını işğalda saxladı.

Deməli, kilsə 44 günlük müharibə məğlubu olan Paşinyan iqtidarına qarşı çıxmalı idi və çıxdı da. Çünki iqtidar erməni ambisiyalarının davamını gətirməyi bacarmadı, məğlub duruma düşdü. Ambisiyanın motivi isə son dərəcə bəsitdir – xarici güclərə arxalanmaq, onların aləti rolunda çıxış etmək. Paşinyanın mövcud istiqamətdəki fəaliyyəti kilsəni razı salmadı və razı sala bilməzdi. Ancaq məsələnin digər tərəfi də var.

Hesab edirik ki, Ermənistanın hazırkı iqtidarı nə zamansa erməni kilsəsi ilə ziddiyyətlərin ən yüksək məcraya çatacağını proqnozlaşdırır və hazırlığını da bu ehtimala uyğun görürdü. İndi isə necə deyərlər, bıçaq sümüyə dirənib. N. Paşinyanın dekabrın 14-də Ayqeşatdakı Müqəddəs Gevork kilsəsində liturgiyaya qatılması və mərasim başa çatdıqdan sonra açıqladığı fikirlər qənaətimizin təsdiqidir. Hərçənd, Ermənistanda 2018-ci ildən başlayaraq, kilsə-hakimiyyət ziddiyyətlərinin ən müxtəlif təzahür formaların nəzərə çarpdığından da xəbərdarıq.

...Liturgiyanı ənənəvi olaraq Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin katolikosu II Qaregin deyil, Armavirdəki yeparxiyanın rəhbəri arxiyepiskop Sion aparıb. O, II Qareginin istefası tələbinə qoşulub və Paşinyanla görüşüb. Baş nazir isə kilsə əleyhinə növbəti fikirlərini səsləndirərkən bunları deyib: “Hazırda hər bazar günü liturgiyaya gedirəm. Yeri gəlmişkən, bu barədə də danışırlar və soruşurlar ki, niyə əvvəlki dövrdə getmirdim. Məhz eyni səbəbdən. Çünki bəzi yüksək vəzifəli kilsə məmurları öz hərəkətləri ilə mənim kimi minlərlə, hətta on minlərlə insanı kilsədən uzaqlaşdırıblar. Bəli, onlar insanları kilsədən uzaqlaşdırıblar. Bu atmosferdə və bu mühitdə daim gəlib liturgiyada iştirak mümkün deyildi. Onlar (II Qaregin və tərəfdarları nəzərdə tutulur – red.) sektantlıqdan çox danışırlar, amma ən böyük sektant Ktriç Nersisyan (Paşinyan II Qaregini öz adı ilə adlandırır – red.) və onun ən yaxın ətrafıdır. Sekta nədir? Bu, inancın təhrif edilməsi, yəni eybəcərləşdirilməsi, onun dəyərdən salınmasıdır. Bu isə yekunda insanı inancdan uzaqlaşdırır”.



Paşinyan, həmçinin, bildirib ki, Erməni Apostol Kilsəsinin rəhbərliyi on minlərlə insanı kilsədən uzaqlaşdırdığından, onlar öz mənəvi axtarışlarında müxtəlif mərkəzlərə tapınıblar. Bolşevizmin lideri Leninin Orta əsr Avropasında antikilsə hərəkatlarına xalq ruhu gətirmək üçün dilə gətirdiyi məşhur fikrə görə isə bir quruluşu dəyişmək üçün ondakı müqəddəslik maskasını söküb atmaq lazımdır. Məsələyə mövcud prizmadan yanaşsaq, Paşinyan 2018-ci ildə Ermənistanda hakimiyyəti dəyişdi, ancaq illər ərzində həmin hakimiyyətin tapındığı müqəddəsliklə bacarmadı.

Görünür, Nikol hazırda mövcud istiqamətdə daha qətiyyətli addımlar atmağa girişib. Son illər II Qareginin və tərəfdarlarının total şəkildə nüfuzdan salınmaları, o cümlədən dekabrın 14-də keçirilmiş yeni liturgiya törəni göstərir ki, baş nazir daha qətiyyətli davranmağa iddialıdır. Çünki başqa çıxış yolu yoxdur. Axı 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək. II Qareginin və Erməni Apostol Kilsəsinin isə iqtidara qarşı çıxan müxalif düşərgənin tərəfini saxladığı heç kəsə sirr deyil. Deməli, Nikol köhnə quruluşun yenidən müqəddəslik maskası ilə “silahlanmasına” yol verməməlidir. Paşinyanın istəyinə nə dərəcədə müvəffəq olacağına gəldikdə, gedişatı zaman göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakı–Daşkənd tandemi: Strateji əməkdaşlığın idman meydanı

**2027-ci ildə 20 yaşadək kişilər arasında futbol üzrə Dünya Çempionatının final mərhələsi Azərbaycan və Özbəkistanda keçiriləcək. Bu, təkcə idman sahəsində deyil, həm də geosiyasi, mədəni və strateji müstəvilərdə mühüm məna daşıyır. Ona görə ki, bu qərar son illər Türk dünyasında müşahidə olunan inteqrasiya proseslərinin praktik nəticələrindən biridir və regiondaxili əməkdaşlığın artıq real beynəlxalq layihələr səviyyəsinə yüksəldiyini təsdiqləyir.**

Azərbaycan və Özbəkistan Türk dünyasının ən qədim dövlətçilik ənənələrinə malik ölkələrindəndir. Ortaq tarix, dil və mədəniyyət bu iki xalq arasında münasibətləri diplomatik əlaqələr çərçivəsindən çıxararaq dərin qardaşlıq səviyyəsinə yüksəldib. Müstəqillik dövründə bu əlaqələr yeni məzmun qazanaraq strateji tərəfdaşlıq mərhələsinə çatıb. Son illərdə imzalanan siyasi, iqtisadi və humanitar sənədlər, qarşılıqlı səfərlər və ortaq layihələr bu münasibətlərin sistemli xarakter aldığını göstərir. U-20 Dünya Çempionatına birgə ev sahibliyi də məhz bu prosesin məntiqi davamıdır.

Bu hadisənin Türk Dövlətləri Təşkilatı baxımından əhəmiyyəti xüsusilə diqqətəlayiqdir. TDT artıq yalnız mədəni platforma deyil, siyasi və iqtisadi koordinasiya mərkəzinə çevrilməkdədir. Beynəlxalq miqyaslı bir idman tədbirinin üzv ölkələr tərəfindən birgə təşkili təşkilatın funksional gücünü və qlobal iddialarını nümayiş etdirir. Bu çempionat Türk dünyasının həm də ortaq gələcəyə sahib olduğunu dünyaya göstərən simvolik bir hadisədir.

Əlbəttə, bu qərarın arxasında Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında formalaşmış yüksək səviyyəli siyasi etimad və şəxsi dostluq münasibətləri dayanır. Müasir beynəlxalq münasibətlərdə liderlərarası şəxsi münasibətlərin böyük layihələrin reallaşmasında mühüm rol oynadığı danılmazdır. Hər iki prezidentin idmana, xüsusilə gənclər futboluna verdiyi önəm, ölkələrində yaradılan müasir idman infrastrukturu və əvvəlki beynəlxalq yarışların uğurla təşkili FIFA və digər qurumların etimadını qazanmağa şərait yaradıb. Bu da birgə ev sahibliyinin qəbul olunmasını asanlaşdıran əsas amillərdən biridir.

Hər iki liderin uğurlu idman siyasəti və futbolun inkişafına verdiyi yüksək önəm beynəlxalq idman qurumlarının etimadını qazanmağa imkan verib. Prezidentlərin mütəmadi görüşləri və yüksək səviyyəli dialoqları bu birgə layihənin uğurla irəliləməsi üçün möhkəm siyasi iradə nümayiş etdirir. Onların şəxsi münasibətləri iki ölkənin böyük bir tədbiri sinxron və yüksək təşkilatçılıqla keçirə biləcəyinə dair beynəlxalq ictimaiyyətdə inam yaradır. 2027-ci il çempionatı hər iki ölkənin beynəlxalq arenada idman potensialını, müasir infrastrukturunu və təşkilatçılıq qabiliyyətini nümayiş etdirmək üçün misilsiz bir fürsətdir.

Azərbaycan üçün bu, futbol tarixində ilk dəfə kişilərin dünya çempionatının final mərhələsinə ev sahibliyi və millinin iştirakını təmin etmək deməkdir. Tədbir yerli futbolun inkişafına, gənc istedadların kəşf edilməsinə və gənclər arasında əməkdaşlığın dərinləşməsinə böyük təkan verəcək. Eyni zamanda, minlərlə azarkeşin səfəri turizmi canlandıracaq, yerli iqtisadiyyata əhəmiyyətli gəlir gətirəcək və hər iki ölkəni Avropa ilə Asiya arasında bir mədəniyyət körpüsü kimi möhkəmləndirəcək.




2027-ci il U-20 Dünya Çempionatı Azərbaycan və Özbəkistan üçün gənclər siyasəti baxımından da strateji əhəmiyyət daşıyır. Gənclər arasında idman əməkdaşlığı, mədəni mübadilə və sağlam rəqabət mühiti formalaşacaq. Minlərlə gənc futbolçu, məşqçi və azarkeş bu iki ölkə ilə yaxından tanış olacaq, bu da uzunmüddətli humanitar əlaqələrin möhkəmlənməsinə xidmət edəcək. Azərbaycan üçün isə bu çempionat futbol tarixində yeni mərhələ açır və ölkənin dünya futbol xəritəsində mövqeyini daha da gücləndirir.

İqtisadi baxımdan da bu tədbirin təsiri böyük olacaq. Turizmin inkişafı, xidmət sektorunun genişlənməsi, infrastruktur layihələrinin sürətlənməsi hər iki ölkə üçün əlavə iqtisadi dividendlər və yeni iş imkanları yaradacaq. Eyni zamanda, Azərbaycan və Özbəkistan Avropa ilə Asiya arasında yerləşən strateji mövqelərini idman diplomatiyası vasitəsilə daha da möhkəmləndirərək, özlərini qlobal tədbirlərin etibarlı tərəfdaşı kimi təqdim edəcəklər.

Nəticə etibarilə, 2027-ci il U-20 Dünya Çempionatına Azərbaycan və Özbəkistanın birgə ev sahibliyi etməsi yalnız idman hadisəsi deyil. Bu qərar Türk dünyasının birliyinin gücləndiyini, iki qardaş ölkə arasında strateji əməkdaşlığın yeni mərhələyə keçdiyini və liderlərin siyasi iradəsi sayəsində regional gücün beynəlxalq miqyasda tanındığını nümayiş etdirən tarixi bir hadisədir. Çempionat Türk dünyasının səsinin daha uca eşidildiyi, ortaq dəyərlərin qlobal səviyyədə təbliğ olunduğu mühüm bir platforma olacaq.

Belə mühüm tədbirin yüksək səviyyədə keçirilməsilə bağlı Prezident İlham Əliyev Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzalayıb. Bu, dövlətimizin tədbirlərə yalnız idman yarışı deyil, strateji beynəlxalq layihə kimi yanaşdığını göstərir. Təşkilat Komitəsinin formalaşdırılması Azərbaycan hökumətinin turnirin yüksək səviyyədə təşkili, infrastruktur, təhlükəsizlik, logistika və beynəlxalq koordinasiya məsələlərinə sistemli yanaşdığını nümayiş etdirir. Bu addımı, eyni zamanda, Azərbaycanın beynəlxalq tədbirlərin idarə olunması sahəsində formalaşmış institusional təcrübəsinin davamı kimi qiymətləndirmək olar.

Bir sözlə, 2012-ci il çempionatı, Azərbaycanın 2015-ci ildə İlk Avropa Oyunları, 2016-cı ildən etibarən Formula 1 Qran-priləri, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları və 2019-cu ildə UEFA Avropa Liqasının finalı kimi mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi ölkəmizə gələcəkdə daha böyük və məsuliyyətli yarışların təşkili üçün zəngin təcrübə və yüksək etimad qazandırmışdı. Məhz bu ardıcıl və uğurlu təşkilatçılıq təcrübəsi Azərbaycanın beynəlxalq idman qurumları tərəfindən etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin etmiş, ölkənin qlobal idman xəritəsində mövqeyini daha da möhkəmləndirmişdi. Bu amil 2027-ci il U-20 Dünya Çempionatına ev sahibliyi hüququnun qazanılmasını şərtləndirən əsas faktorlar sırasında xüsusi yer tutur və Azərbaycanın uzunmüddətli idman strategiyasının nəticə verdiyini aydın şəkildə nümayiş etdirir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Azərbaycan–NATO tərəfdaşlığı yeni mərhələdə

## *Ortaq layihələr regional sabitliyə və təhlükəsizliyə xidmət edir*

**Azərbaycan–NATO əməkdaşlığı ardıcıl və davamlı inkişaf edir, ölkəmizin təhlükəsizlik və müdafiə siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu əməkdaşlıq özündə yalnız hərbi sahəni əhatə etmir, həm də strateji tərəfdaşlıq, humanitar təhlükəsizlik və regional sabitlik aspektlərini birləşdirir. Ölkəmizin NATO ilə qarşılıqlı fəaliyyətinin təməlində “Sülh naminə tərəfdaşlıq” proqramı və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (IPAP) dayanır. Bu çərçivədə aparılan tədbirlər Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılmasına, hərbi idarəetmə sistemlərinin modernləşdirilməsinə və beynəlxalq təhlükəsizlik çağırışlarına adaptasiyasına xidmət edir.**



Bakıda keçirilən “NATO-nun 16 günü” çərçivəsində Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi, kontr-admiral Yusuf Karagüllenin başçılıq etdiyi nümayəndə heyətinin səfəri əməkdaşlığın ardıcıl və dinamik xarakter daşıdığını göstərir. Səfər zamanı Müdafiə Nazirliyində və Heydər Əliyev adına Hərbi İnstitutda aparılan müzakirələr, həmçinin Quru Qoşunlarının və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrinə baxış Azərbaycanın NATO ilə münasibətlərinə verdiyi önəmi nümayiş etdirib. Tədbirlərdə qeyd olunub ki, Azərbaycan–NATO əməkdaşlığı çərçivəsində ölkəmiz beynəlxalq təhlükəsizliyin təminatında fəal iştirak edib. Azərbaycan Ordusunun şəxsi heyətinin sülhməramlı missiyalardakı fəaliyyəti qlobal təhlükəsizliyə dəyərli töhfə kimi qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycanın sülhməramlı əməliyyatlarda fəal iştirakı NATO ilə əməkdaşlığının mühüm göstəricilərindən biridir. Ölkəmiz Kosovoda, İraqda və Əfqanıstanda NATO bayrağı altında həyata keçirilən beynəlxalq missiyalarda məsuliyyətli tərəfdaş kimi çıxış edib. Azərbaycan Silahlı Qüvvələrinin kontingenti ISAF və “Qətiyyətli dəstək” missiyaları çərçivəsində təhlükəsizliyin təmin olunması, strateji obyektlərin qorunması və logistika dəstəyi sahəsində mühüm töhfələr verib. 2021-ci ildə Əfqanıstanı tərk edən son sülhməramlı kontingentlərdən biri də Azərbaycan ordusu olub ki, bu da ölkəmizin beynəlxalq öhdəliklərə sadiqliyini bir daha təsdiqləyib.

* * *

Azərbaycan NATO ilə əməkdaşlığı yalnız sülhməramlı əməliyyatlarla məhdudlaşmır. Bu əməkdaşlıq daha geniş spektri əhatə edir. Onlardan biri hərbi təlimlərdə iştirakdır. Azərbaycanın NATO hərbi təlimlərində iştirakı ordumuzun peşəkarlığının artırılması və əməliyyat hazırlığının gücləndirilməsinə xidmət edir. Təlimlər zabit və gizirlərin peşəkarlığını, liderlik bacarıqlarını gücləndirib və qərargah səviyyəsində planlaşdırma qabiliyyətlərini təkmilləşdirib. Bu təlimlər həm də Azərbaycanın beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyasını gücləndirib. Azərbaycan Ordusunda aparılan islahatlar Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, peşəkarlıq səviyyəsinin yüksəlməsinə və müdafiə imkanlarımızın artırılmasına şərait yaradıb. İkinci Qarabağ müharibəsi zamanı bu əməkdaşlığın strateji əhəmiyyəti özünü açıq şəkildə göstərdi.

Əməkdaşlığın digər vacib istiqaməti mina və partlamamış hərbi sursatlarla mübarizədir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən birgə əməliyyatlar mülki əhalinin təhlükəsizliyini təmin etməklə yanaşı, NATO Dəstək və Təchizat Agentliyi (NSPA) ilə əməkdaşlıq vasitəsilə mina təmizləmə əməliyyatlarının planlaşdırılmasına, müasir texnologiyaların tətbiqinə və yerli mütəxəssislərin hazırlanmasına imkan yaradıb.

Azərbaycan–NATO əməkdaşlığının digər mühüm istiqaməti təhlükəsizlik dialoqudur. Terrorizm, kiber hücumlar və enerji təhlükəsizliyi kimi transsərhəd təhdidlər fonunda tərəflər arasında məlumat mübadiləsi və institusional əməkdaşlıq intensivləşib. Azərbaycanın strateji enerji istehsalçısı və etibarlı tranzit ölkə kimi rolu NATO ilə enerji təhlükəsizliyi sahəsində dialoqu əhəmiyyətli edib. Bu əməkdaşlığın nəticəsidir ki, alyans Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyib. Bu dəstək, xüsusilə Alyansın Zirvə



görüşlərinin yekun sənədlərində açıq şəkildə ifadə olunub. Həmin sənədlərdə Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinin vacibliyi vurğulanıb. Bununla bağlı NATO-nun Azərbaycandakı əlaqələndirici səfirliklərinin (NATO Contact Point Embassies, CPE) rəhbərləri Elçin Qasımov (Slovakiya) mətbuata müsahibəsində deyib ki, NATO Ermənistan və Azərbaycan arasında sülh sazişi ilə bağlı danışıqların başa çatmasını alqışlayır və sazişin imzalanmasını və ratifikasiyasını səbirsizliklə gözləyir. Bu, normallaşma prosesində irəliyə doğru mühüm addımdır və regional təhlükəsizliyin möhkəmləndirilməsinə töhfədir”.

**Politoloq Elməddin Behbud** XQ-yə dedi ki, bu gün NATO ilə Azərbaycan arasında münasibətlərin çox geniş spektri mövcuddur: “Bu, Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində həyata keçirdiyi islahatları, NATO-nun sülhməramlı fəaliyyətlərində iştirakını, hərbi təhsil və digər məsələləri əhatə edir. Azərbaycan NATO üzvü olan bir çox dövlətlərin enerji təhlükəsizliyində, xüsusilə təbii qazla təminatında vacib rol oynayır.

Azərbaycan bir tərəfdən NATO-nun siyasi və hərbi potensialı ilə əməkdaşlıq edir, digər tərəfdən Alyansın üzvü olan Türkiyənin strateji müttəfiqidir. Bu istiqamətdə qarşılıqlı fəaliyyətin əsas istiqamətlərindən biri Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılmasıdır. Türkiyə və NATO-nun dəstəyi ilə Azərbaycan Müdafiə Nazirliyinin müxtəlif strukturlarında, o cümlədən “Komandos” xüsusi təyinatlı bölmələrində yenidən hazırlıq və təlim prosesləri həyata keçirilir. Bununla yanaşı, Azərbaycan ordusunun zabit heyətinin NATO proqramları çərçivəsində hazırlanması daimi əsasda təşkil olunur. Şimali Atlantika Alyansının nümayəndələrinin və NATO strukturlarının iştirakı ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin inkişaf perspektivləri müzakirə edilir. Bəli, Azərbaycan ordusu NATO standartlarına uyğun formalaşdırılır ki, bu da ölkənin Alyansla əməkdaşlıq səviyyəsinin daha da möhkəmlənməsinə xidmət edir”.

Beləliklə, Azərbaycan–NATO əməkdaşlığı ölkəmizin həm müdafiə imkanlarını, həm də beynəlxalq sülh və təhlükəsizliyə verdiyi töhfəni artıran strateji tərəfdaşlıqdır. Bu münasibətlər ölkəmizin müasir çağırışlara cavab verən, çevik və peşəkar ordu modelinə keçidini sürətləndirir, həm də regional sabitlik və təhlükəsizliyin qorunmasında etibarlı tərəfdaş rolunu möhkəmləndirir.

* * *

Onu da qeyd edək ki, NATO da Azərbaycanla əməkdaşlıqda maraqlıdır. **Ukraynalı hərbi ekspert və tarixçi Mixaylo Jiroxov** hesab edir ki, NATO ilə Azərbaycan arasında yaxınlaşma prosesi qarşılıqlı maraq doğurur: “Hazırda NATO-nun marağı aydındır. Onlar son illər baş vermiş bütün müharibələri



təhlil etməyə çalışırlar. Xüsusilə Rusiya–Ukrayna və Azərbaycan–Ermənistan müharibələri onların diqqət mərkəzindədir. Məsələn, Rusiya və sovet istehsalı olan hava hücumundan müdafiə sistemlərinə qarşı real döyüş təcrübəsinə, eləcə də pilotsuz uçuş aparatlarının tətbiqi



təcrübəsinə malik olan yeganə ölkə Azərbaycandır. Bu təcrübə spesifik dağlıq şəraitdə əldə edilsə belə, son dərəcə dəyərlidir.

Digər tərəfdən, Azərbaycan ordusu postsovet modelindən müasir ordu modelinə keçid prosesindədir. NATO standartlarından və Qərb silahlarından daha üstün alternativin mövcud olmadığını isə biz öz müharibəmizin timsalında gördük. Qərb silahlanmasına keçid həm təcrübə mübadiləsini, həm də müəyyən texnoloji və əməliyyat biliklərinin paylaşılmasını nəzərdə tutur. Buna görə də bu, tamamilə təbii bir prosesdir və zaman keçdikcə bu cür əməkdaşlıq daha da genişlənəcək”.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Süni intellekt hədəflərimiz

**(əvvəli 1-ci səhifədə)**

Bəs, okeanın o tayında müzakirə olunan suveren süni intellekt infrastrukturu nələri əhatə edir? İlk olaraq, AzInTelecom-un qurduğu ilk Superkompüter Mərkəzi ölkədə süni intellekt üçün yüksək hesablama gücü təmin edən milli platforma kimi ön plana çıxır. Azərbaycan reallığında “suveren Sİ infrastrukturu” dedikdə ilk növbədə yüksək hesablama gücü və məlumat mərkəzləri nəzərdə tutulur. Artıq ölkədə ilk superkompüter mərkəzi qurulub və ən müasir GPU əsaslı hesablama sistemləri ilə təchiz olunub. Bununla dövlət və özəl qurumlar Aİ layihələrini xarici resurslardan asılı qalmadan ölkə daxilində həyata keçirə bilir, dövlət məlumatlarının emalı üçün təhlükəsiz lokal mühit təmin olunur. Suveren infrastrukturun digər vacib tərəfi bulud platformaları və data mərkəzləridir. Hazırda ölkədə iki müasir data mərkəzi fəaliyyət göstərir, daha ikisinin tikintisi davam edir. Bu resurslar sayəsində məlumatlar ölkə daxilində saxlanılır və milli süni intellekt sistemlərinin fasiləsiz işi təmin olunur.

Bundan başqa, lokal böyük dil modelləri və məlumat bazaları suveren süni intellektin tərkib hissəsidir. Azərbaycan dilində və yerli reallığa uyğunlaşdırılmış intellektual həllər hazırlanmalıdır. Məsələn, strateji hədəf kimi 2029-cu ilə qədər Azərbaycan dilində generativ süni intellekt (GenAİ) modelinin dövlət idarəçiliyində tətbiqi planlaşdırılır, bu da ölkənin rəqəmsal suverenliyini möhkəmləndirəcək.

Dövlət xidmətlərinin rəqəmsal modernizasiyasında da süni intellekt bir çox istiqamətdə sürətli nəticə verə bilər. Məlumat emalı və qərar dəstəyi tələb olunan sahələrdə bunun tətbiqi iş proseslərini xeyli sürətləndirə və avtomatlaşdıra bilər. Artıq hüquqi sənədlərin intellektual axtarışı və təhlili üçün ölkəmizdə süni intellekt əsaslı sistem istifadəyə verilib. Bu texnologiya saniyələr içində qanunvericilik bazasında mürəkkəb axtarışlar apararaq vətəndaşlara lazım olan cavabları təqdim edir.

Sosial təminat sektorunda da yeni texnoloji reallıq dərhal faydasını göstərir. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial portalında süni intellekt aztəminatlı ailələri proaktiv müəyyənləşdirərək onlara avtomatik yardım təyin olunmasına imkan verib. Nəticədə xidmətlərin əlçatanlığı yüksəlib, şikayətlərin sayı isə əhəmiyyətli dərəcədə azalıb. Ümumilikdə, süni intellekt böyük həcmli məlumatları təhlil etdiyi hər bir dövlət xidmətində proseslər sürətlə yaxşılaşır. Xarici ekspertlərin fikrincə, bu həllər sayəsində hətta məhkəmə sistemi və ümumi dövlət idarəçiliyində bir neçə həftə ərzində nəzərəçarpacaq irəliləyiş əldə etmək mümkündür. Beləliklə, süni intellektin inteqrasiyası dövlət xidmətlərini həm daha sürətli, həm də daha şəffaf edə bilər.

Süni intellekt kimi sürətlə inkişaf edən sahədə ixtisaslı kadr çatışmazlığı qlobal problemdir və Azərbaycan da istisna deyil. Lakin bu boşluğu doldurmaq üçün artıq konkret addımlar atılır. Qeyd edək ki, Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında Sərəncamı ölkədə Süni İntellekt Akademiyasının yaradılmasını da nəzərdə tutur. 2026–2027-ci illərdə fəaliyyət başlayacaq bu akademiya vasitəsilə yüzlərlə mühəndisin hazırlanması və minlərlə gəncin cəlb olunduğu geniş Aİ icmasının formalaşdırılması hədəflənir.

Onu da bildirək ki, ölkəmizdə Milli Süni İntellekt Mərkəzi də fəaliyyət göstərir. Artıq mərkəz 3 süni intellekt layihəsini istifadəyə verib. Bununla yanaşı, mərkəz ilk yerli mütəxəssislərini yetişdirməyə başlayıb. İndiyədək 15-dən çox mütəxəssis hazırlanıb və hazırda 100-dən artıq gənc mühəndis təhsil alır. Bundan əlavə, bu sahədə çalışan xaricdəki azərbaycanlıların təcrübəsindən faydalanmaq üçün ABŞ-da, Silikon Vadisindəki mütəxəssislərlə görüşlər keçirilib, onların ölkənin rəqəmsal inkişafına töhfələri müzakirə olunub.

Kadr potensialını gücləndirmək üçün beynəlxalq onlayn tədris resurslarının lokalizasiyası da diqqətdədir. Məsələn, Coursera platformasındakı qabaqcıl Sİ kurslarının Azərbaycan dilinə tərcüməsi təşəbbüsləri start götürüb ki, gənclər dil maneəsi olmadan qlobal biliklərə yiyələnsin.

Qeyd edək ki, ölkə başçısının birbaşa diqqət və qayğısı nəticəsində “2026–2029-cu illər üçün rəqəmsal iqtisadiyyat” strategiyasında ilk dəfə Generativ Süni İntellekt (GenAI) texnologiyalarının iqtisadiyyata təsiri ilə bağlı real hədəflər öz əksini tapıb. Bu sənədə görə 2029-cu ilə qədər Azərbaycan dilində generativ süni intellekt modeli dövlət idarəçiliyində tətbiq ediləcək. Mütəxəssislər hesab edir ki, generativ Sİnin geniş tətbiqi ölkə iqtisadiyyatına əlavə milyardlarla dollar dəyər verə bilər. Lakin bu potensialı gerçəkləşdirmək üçün təkcə plan kifayət etmir, fiziki addımların paralel atılması vacibdir.



***Ekspert rəyi***

**Elvin ABBASOV,**
**“Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) Sənayesi Assosiasiyası” İctimai Birliyi İdarə Heyətinin sədri**



ABŞ-da keçirilən görüşlərdə diqqətçəkən məqamlardan biri də "Suveren Süni İntellekt infrastrukturu" anlayışının müzakirəsi idi. Ümumiyyətlə, bu anlayış Azərbaycan reallığında milli data suverenliyini və təhlükəsizliyi təmin edən üç əsas komponenti əhatə etməlidir. Birincisi, Fizik İnfrastruktur: Ölkə daxilində yerləşən, TIER III sertifikatlı data mərkəzləri ilə dəstəklənən və İqtisadiyyat Nazirliyinin tabeliyindəki Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) və "AzInTelecom"un qurmaqda olduğu kimi, NVIDIA H200 qrafik çiplərinə əsaslanan və gücü 1.2 PFLOPS təşkil edən Yüksək Performanslı Hesablama (HPC) mərkəzləri şəbəkəsi. Bu güc, Azərbaycanın regional Süni İntellekt rəqabətində irəli çıxması üçün kritikdir. İkincisi, Məlumat və Model Suverenliyi: Azərbaycan dilində və lokal ehtiyaclara uyğun öyrədilmiş, xarici siyasi təsirlərdən asılı olmayan milli böyük dil modellərinin (LLM) və digər Süni İntellekt modellərinin yaradılması. Üçüncüsü, Kadr və Tənzimləmə Suverenliyi: Süni İntellektin etik istifadəsini tənzimləyən milli qanunvericilik bazasının yaradılması və lokal mütəxəssislərin bu infrastrukturu idarə etmək qabiliyyəti.

Süni İntellekt texnologiyalarının dövlət xidmətlərinin modernizasiyasında tətbiqi ən sürətli nəticəni təkrarolunan, böyükhəcmli sənəd emalı və vətəndaş müraciətlərinin ilkin idarə edilməsi sahələrində verə bilər. Bu sahələrə elektron hökumət portalı üzərindən daxil olan müraciətlərin təsnifləşdirilməsi və avtomatik yönləndirilməsi, habelə vergi, gömrük və notariat əməliyyatlarında sənədlərin ilkin yoxlanılması daxildir. Süni İntellektin bu cür "Back-Office" əməliyyatlarına tətbiqi həm insan resurslarının yükünü azaldır, həm də xidmətlərin sürətini, şəffaflığını və dəqiqliyini kəskin şəkildə artırır. Bu, vətəndaş məmnuniyyətinə dərhal təsir edəcək qısa müddətli qələbə (quick win) sahələridir.

Bəli, Azərbaycan qlobal bazara nisbətən Süni İntellekt üzrə ixtisaslı kadr çatışmazlığı problemi ilə üz-üzədir. Bu boşluq, xüsusən Süni İntellekt mühəndisliyi, data elmləri və Süni İntellekt etikası/hüququ sahələrində daha kəskindir. Bu problemin aradan qaldırılması üçün üç istiqamətli yanaşma tələb olunur: 1) Xarici tərəfdaşlarla (NVIDIA və OpenAI kimi) birgə intensiv kadr hazırlığı proqramlarının yaradılması və yerli universitetlərin tədris proqramlarının qlobal standartlara uyğunlaşdırılması. 2) İT mütəxəssislərinin reskilling (yeni ixtisaslaşma) və upskilling (təkmilləşdirmə) proqramlarına cəlb edilməsi. 3) "Beyin axını" riskini azaltmaq məqsədilə yerli Süni İntellekt mühəndislərinə rəqabətədavamlı əməkhaqları və HPC kimi müasir infrastrukturda işləmək imkanının təmin edilməsi.

"Rəqəmsal İqtisadiyyatın İnkişafına dair 2026–2029-cu illər üçün Strategiya”da Generativ Süni İntellektin (GenAI) iqtisadiyyata təsirləri ilə bağlı real hədəflərin müəyyənləşdirilməsi müsbət və zəruri bir addımdır. ABŞ-da keçirilən görüşlərə paralel olaraq fiziki addımlar dərhal atılmalıdır. Bu fiziki addımlara daxildir: 1) 4SİM və AzInTelecom-un Superkompüter mərkəzlərinin tam gücü ilə işə salınması və startaplara əlçatanlığının təmin edilməsi. 2) Əməkdaşlıq çərçivəsində NVIDIA və OpenAI-dən mütəxəssislərin cəlb edilməsi ilə Lokal Süni İntellekt Tədqiqat Laboratoriyalarının (Research Labs) qurulması. 3) Süni İntellektin tətbiqini sürətləndirmək üçün pilot dövlət layihələrinin (məsələn, səhiyyə və ya təhsil sahəsində) maliyyələşdirilməsinə başlanılması. Sözdə olan hədəflər dərhal konkret, ölçüləbilən və vaxtı müəyyən edilmiş icra planlarına çevrilməlidir.

***Nurla ABDALOV***
***XQ***

# Ölkəmizdə regionun ən iri batareya saxlanc sistemi yaradılır

**Azərbaycanda bərpaolunan enerji mənbələrinin (BOEM) dinamik inkişafı üçün "AzərEnerji" tərəfindən genişmiqyaslı Batareya Enerji Saxlanc Sistemlərinin qurulmasına başlanılıb.**

Bütünlükdə MDB məkanında gücünə və tutumuna görə ən böyük Batareya Saxlanc Sistemləri olan bu enerji obyektləri paytaxta yaxın 500 kV-luq "Abşeron", eləcə də ölkənin mərkəz hissəsində yerləşən 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində qurulur.

Ümumi gücü 250 meqavat, enerji tutumu isə 500 meqavat-saat olan mərkəzlər üçün batareya saxlanc sistemlərinin ilk partiyası artıq bu günlərdə ölkəyə gətirilib. Çinin "Great Power" zavodunda sifariş əsasında yığılan avadanlıqlar Azərbaycana gətirilib. Hər birinin çəkisi 36 ton olan batareya saxlanc sistemləri polis müşahidəsi ilə xüsusi qaydada təyinatı üzrə yerlərinə çatdırılaraq quraşdırılıb. Artıq saxlanc sistemlərinin 15 faizi ölkəyə gətirilib və qalan 85 faizi isə aprel ayına qədər gətirilərək quraşdırılacaq.

Qeyd edək ki, "AzərEnerji" tərəfindən Batareya Saxlanc Mərkəzlərin yaradılması enerji sisteminin dayanıqlılığının artırılması, tezliyin sabit saxlanılması, BOEM-lərdə dəyişkənliyin balanslaşdırılması, pik yüklərin ödənilməsi, günəş enerjisinin azalması saatlarında yük qrafikinin hamarlanması və qəza hallarında enerji sisteminin sıfırdan bərpası baxımından strateji əhəmiyyət daşıyır. Bu sistemlər Azərbaycanın enerji müstəqilliyini gücləndirməklə yanaşı, enerji şəbəkəmizin həm qonşu ölkələrlə paralel, həm də müstəqil rejimində etibarlı fəaliyyətini təmin edəcək.



***XQ***

**Azərbaycan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizində əsas tranzit həlqələrindən biri kimi çıxış edərək Avrasiyanın nəqliyyat xəritəsində mühüm strateji rol oynayır. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən coğrafi mövqeyi ölkəmizi regional və qlobal yük axınları üçün etibarlı logistika mərkəzinə çevirir. Dəmir yolu, avtomobil yolları, liman və logistika infrastrukturlarına qoyulan investisiyalar ölkəmizin bu dəhliz üzrə daşımalarda rəqabətqabiliyyətli və alternativsiz marşrutlardan birinə çevrilməsini təmin edib.**

# Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilib

## *Daşımaların yolu və müddəti 2,5 dəfə qısalıb*



Qeyd edək ki, Şimal–Cənub dəhlizi Avropa, Rusiya və Mərkəzi Asiya bazarlarını İran və Fars körfəzi vasitəsilə Cənubi Asiya ilə birləşdirən mühüm nəqliyyat arteriyası kimi beynəlxalq ticarətdə vaxt və xərclərin azaldılmasına xidmət edir. Dəhlizin qərb marşrutu Hindistan və Körfəz regionundan yüklərin Azərbaycan üzərindən Rusiya, Qərbi Avropa, Baltik və Skandinaviya ölkələrinə çatdırılmasını təmin edir. Bu marşrutun əsas üstünlüyü digər istiqamətlərlə müqayisədə tranzit məsafəsi və vaxtın iki-üç dəfə qısalmasıdır. Belə ki, dəniz yolu ilə daşımalar 45–60 gün çəkirsə, Şimal-Cənub dəhlizi vasitəsilə bu müddət 20–25 günə enir.

Ötən ay Bakıda Müstəqil Dövlətlər Birliyinin Dəmiryol Nəqliyyatı Şurasının 83-cü iclasının keçirilməsi də Azərbaycanın nəqliyyat diplomatiyasının və regional koordinasiya imkanlarının göstəricisi oldu. Toplantı çərçivəsində Azərbaycan, Rusiya və İran arasında “Şimal–Cənub dəhlizinin qərb marşrutu üzrə rəqabətqabiliyyətli birbaşa tariflərin formalaşdırılması və logistik xidmətlərin inkişafı barədə Memorandum”un imzalanması xüsusi əhəmiyyət daşıdı.

Sənəd tarif yanaşmalarının uzlaşdırılmasını, vahid kompleks tarif mexanizminin yaradılmasını, müntəzəm blok-qatarların təşkili və daşımalarla bağlı prosedurların təkmilləşdirilməsini nəzərdə tutur. Bu mexanizmlərin tətbiqi üç ölkə arasında daha proqnozlaşdırıla bilən, sürətli və iqtisadi baxımdan səmərəli logistika zəncirinin formalaşmasına imkan yaradacaq, eyni zamanda Azərbaycan, Rusiya və İranın beynəlxalq nəqliyyat dəhlizlərində etibarlı tərəfdaş kimi mövqelərini gücləndirəcək və region üzrə tranzit axınlarının davamlı artması üçün əlverişli şərait formalaşdıracaq.

Ötən aylarda Rusiya–Azərbaycan münasibətlərində yaranmış müəyyən durğunluğa baxmayaraq, Rusiya tərəfi Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb istiqamətinin inkişafını davam etdirmək niyyətindədir. Bunun əsas səbəbi həmin marşrutun Fars körfəzinə çıxış baxımından coğrafi cəhətdən daha qısa və səmərəli olmasıdır. Rusiya Dəmir Yollarının açıqladığı statistik məlumatlar Şimal–Cənub dəhlizi üzrə daşımaların artan tempini təsdiqləyir. 2025-ci ilin yanvar–oktyabr aylarında qərb, yəni Azərbaycan marşrutu ilə 6600 TEU konteyner daşınıb ki, bu da əvvəlki dövrlə müqayisədə 58,3 faiz artım deməkdir. Eyni dövrdə şərq (Türkmənistan, Qazaxıstan) marşrutu üzrə konteyner daşımalarının həcmi 2300 TEU təşkil edib. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi baxımından ən mühüm göstəricilər ümumi dəyəri təxminən 5 milyard ABŞ dolları olan Rusiya–Azərbaycan ticarət dövriyyəsi, eləcə də cari ilin sonunda həcmi təqribən 30 milyard dollar səviyyəsində proqnozlaşdırılan Rusiya–Qazaxıstan ticarət dövriyyəsidir.

Yeri gəlmişkən, Şimal–Cənub dəhlizinin Azərbaycandan keçən hissəsində aparılan işlər dəhlizin inkişafına əhəmiyyətli töhfə verir. Sumqayıt–Yalama dəmir yolu xəttinin yenidən qurulması işlərinin ilin sonuna qədər tamamlanması planlaşdırılır. Eyni zamanda, ADY tərəfindən İran ərazisində Astara Terminalının inşası davam etdirilir və terminalın tikintisinin 2026-cı ilin birinci rübündə yekunlaşacağı gözlənilir.

Bununla yanaşı, regionda digər strateji nəqliyyat layihələri də Şimal–Cənub dəhlizinin effektivliyini artırır. Bu kontekstdə Zəngəzur dəhlizi xüsusi diqqət çəkir. Ekspertlərin fikrincə, bu dəhliz Azərbaycan-İran-Rusiya marşrutlarının birləşməsinə töhfə verərək Şimal–Cənub dəhlizinin tranzit potensialını gücləndirəcək. Həmçinin Araz dəhlizi də cənub istiqamətində Azərbaycan ilə İran arasında yük daşımalarını asanlaşdıraraq ticarət axınlarının davamlılığını təmin edə bilər. Bu dəhlizlərin inkişafı nəticəsində Şimal–Cənub marşrutunun tranzit imkanları daha da genişlənəcək. Eləcə də yükgöndərənlər və daşıyıcılar üçün daha əlverişli, sürətli və dayanıqlı nəqliyyat infrastrukturu formalaşdıracaq.

***Musa BAĞIRLI***
***XQ***

***Ekspert rəyi***



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Azərbaycanın qlobal yükdaşımalar sistemində oynadığı rol xüsusi aktuallığa malikdir. Ölkə əsasən iki strateji istiqamət üzrə – Şimal–Cənub və Şərq–Qərb (Orta Dəhliz) nəqliyyat marşrutları çərçivəsində mühüm tranzit mərkəzi kimi çıxış edir. Məhz bu reallıq fonunda 26 noyabrda MDB Dəmir Yolu Nəqliyyatı Şurasının Bakıda keçirilən iclası və Rusiya, Azərbaycan və İran dəmir yolu şirkətləri arasında imzalanmış üçtərəfli memorandum regionda nəqliyyat-logistika əməkdaşlığının dərinləşdirilməsi baxımından mühüm addım kimi qiymətləndirilə bilər.

Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi əsasən Hindistan və digər Asiya ölkələrindən gələn yüklərin İran üzərindən Azərbaycan vasitəsilə Rusiyaya və Avropa istiqamətində daşınmasını nəzərdə tutur. Mövcud geosiyasi şəraitdə Rusiya–Avropa münasibətlərinin mürəkkəbliyinə baxmayaraq, bu marşrut regional yükdaşımalar üçün strateji əhəmiyyətini saxlayır və yeni əməkdaşlıq formatları ilə daha da gücləndirilir.

Digər tərəfdən, Şərq–Qərb Nəqliyyat Dəhlizi, yəni Orta Dəhliz çərçivəsində Çin və Mərkəzi Asiya ölkələrindən gələn yüklərin Azərbaycan üzərindən Gürcüstan və Türkiyə vasitəsilə Avropa bazarlarına çatdırılması, eləcə də əks istiqamətdə daşınması nəzərdə tutulur. Bu marşrutda Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə yanaşı, Zəngəzur dəhlizi də perspektiv baxımından mühüm element kimi ön plana çıxır.

Məlum olduğu kimi, beynəlxalq müstəvidə Şimal–Cənub və Şərq–Qərb marşrutları arasında rəqabət mövzusu zaman-zaman gündəmə gətirilir. Xəzər regionunda birbaşa iştirak etməyən bəzi xarici strategiyalar və oyunçular bu marşrutlar arasında süni rəqabət yaratmağa çalışa, xüsusilə infrastruktur layihələrinin maliyyələşdirilməsində prioritetlərin dəyişdirilməsinə təsir göstərmək istəyə bilərlər.

Lakin region ölkələrinin milli maraqları və uzunmüddətli inkişaf strategiyaları baxımından bu yanaşmanın rasional əsası yoxdur. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi, Trans Xəzər marşrutu, Zəngəzur dəhlizi, Orta Dəhlizin İran istiqamətləri və digər nəqliyyat arteriyaları bir-birinə alternativ deyil, əksinə, bir-birini tamamlayan və regionun tranzit potensialını gücləndirən vahid nəqliyyat-logistika ekosisteminin tərkib hissələridir.

Üstəlik, bu dəhlizlər təkcə yükdaşımaları ilə məhdudlaşmır. Onlar enerji infrastrukturu, kabel-kommunikasiya xətləri, elektrik ötürücü şəbəkələr və rəqəmsal bağlantılar kimi strateji sahələri də əhatə edir. Bu baxımdan, Azərbaycan regionda yüklərin, enerjinin və məlumat axınlarının təhlükəsiz və fasiləsiz ötürülməsini təmin edən çoxşaxəli nəqliyyat qovşağı rolunu daha da möhkəmləndirir.

*16 Dekabr Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günüdür*

# Fövqəladə Hallar Nazirliyi: 20 ilin yüksəliş salnaməsi

## *Fəlakətlərin sipəri, dara düşənlərin arxa-dayağı*

**Müasir cəmiyyətdə və dövlət idarəçiliyində təhlükəsizlik anlayışı təkcə hərbi və ya hüquqi çərçivə ilə məhdudlaşmır. Bu, eyni zamanda, iqtisadi inkişafın davamlığı, sosial rifahın qorunması, insan həyatının və maddi-mənəvi sərvətlərin təhlükəsizliyi olaraq mühüm əhəmiyyətə malikdir. Məhz bu baxımdan yanaşdıqda, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk dövrlərindən etibarən mülki müdafiə və fövqəladə halların idarə olunması sahəsinə xüsusi diqqət yetirməsi zəruri addımlarla müşayiət olunub və strateji xarakter daşıyır.**

> *Fövqəladə Hallar Nazirliyinin yaranması ölkəmizin həyatında çox əlamətdar bir hadisə idi. Həyat göstərdi ki, nazirliyin yaranmasında böyük zərurət var idi. Fövqəladə Hallar Nazirliyinin yaranması, formalaşması və bugünkü uğurlu fəaliyyəti Azərbaycanın inkişafı üçün çox müsbət rol oynamışdır. İstər mülki məsələlərdə, istər təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini biz görürük, Azərbaycan ictimaiyyəti də görür və bunu yüksək qiymətləndirir.*
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Dövlətimizin başçısı ölkəyə rəhbərliyə başlayarkən cəmiyyətin təhlükəsizliyini iqtisadi inkişafla paralel şəkildə dəyərləndirərək, təbii fəlakətlərin, texnogen qəzaların və yanğınların qarşısının alınması, onların nəticələrinin operativ və səmərəli şəkildə aradan qaldırılması üçün vahid idarəetmə mexanizminin yaradılmasını zəruri hesab etdi. Bu yanaşma dövlətin gücünü yalnız iqtisadi göstəricilərlə deyil, həm də insan həyatının qorunması səviyyəsi ilə ölçən müasir idarəçilik fəlsəfəsinin bariz nümunəsi idi.

Prezident İlham Əliyevin belə bir strateji baxışının məntiqi nəticəsi olaraq, 2005-ci il dekabrın 16-da imzaladığı müvafiq sərəncamla Fövqəladə Hallar Nazirliyi (FHN) yaradıldı. Qurumun təsis edilməsi ilə təbii və texnogen fəlakətlərə qarşı mübarizədə sistemli yanaşmanın keyfiyyətcə yeni mərhələsinin əsası qoyuldu. Bu addımla təhlükəsizlik infrastrukturu möhkəm olmayan bir dövlətin dayanıqlı inkişafından danışmağın mümkünsüzlüyü bir daha təsdiqləndi.

FHN-in yaradılması ilə əhalinin mülki müdafiəsi, yanğın təhlükəsizliyi, su hövzələrində insanların qorunması, xilasetmə və qəza-xilasetmə işlərinin təşkili, dövlət material ehtiyatları fondlarının idarə olunması, radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənaye və dağ-mədən sahələrində texniki təhlükəsizliyə nəzarət, tikintidə təhlükəsizlik standartlarının qorunması kimi son dərəcə mühüm funksiyalar vahid mərkəzdə cəmləşdirildi. Eyni zamanda, böhranların idarə olunması, strateji obyektlərin mühafizəsi, nüvə və radioloji təhlükəsizlik sahəsində münasibətlərin tənzimlənməsi, əhalinin və ərazilərin radiasiya təhlükəsizliyinin gerçəkləşdirilməsi istiqamətində müvafiq strukturlar yaradıldı.

Təhlükəsizliyin həyatın bütün sahələrində bir mərkəzdən idarə olunması Prezident İlham Əliyevin mülki müdafiə sisteminə uzaqgörən və kompleks yanaşmasının məntiqi nəticəsi idi. Bu siyasətin davamı olaraq, dövlət başçısının 2006-cı il dekabrın 8-də imzaladığı sərəncamla hər il dekabrın 16-sı FHN İşçilərinin Peşə Bayramı Günü kimi təsis olundu. Bu qərar dövlətin təhlükəsizlik sahəsində çalışan insanlara verdiyi yüksək dəyər və etimadın bariz ifadəsi idi.

Ümummilli lider Heydər Əliyevin dövlət təhlükəsizliyinə və vətəndaşların həyatının qorunmasına verdiyi xüsusi önəmin məntiqi nəticəsi olaraq yaradılan FHN qloballaşan risklər, texnogen təhlükələr, təbii fəlakətlər və fövqəladə situasiyalar şəraitində vahid mərkəzdən idarə edilən, çevik və peşəkar bir qurum kimi qısa müddət ərzində formalaşaraq müasir strukturlaşma yolu keçdi, normativ-hüquqi baza yaradıldı, kadr potensialı gücləndirildi və beynəlxalq standartlara uyğun fəaliyyət mexanizmləri işə salındı.

Ötən müddətdə nazirliyin fəaliyyətində risklərin idarə edilməsi və insan amilinin önə çəkilməsi ilə bərabər, həm də baş verən hadisələrə dərhal müdaxilə olunması, risklərin əvvəlcədən qiymətləndirilməsi, profilaktik tədbirlərin gücləndirilməsi və təhlükəsizlik mədəniyyətinin formalaşdırılması kimi məsələlər də daim diqqətdə saxlanılıb. Belə bir yanaşma son illərdə xüsusilə öz səmərəliyi ilə fərqlənib. Başqa sözlə, nazirliyin strukturuna daxil olan Dövlət Yanğından Mühafizə Xidməti, Xüsusi Riskli Xilasetmə Xidməti, Mülki Müdafiə Qoşunları, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi, Fövqəladə Halların İdarə Olunması üzrə mərkəzlər vahid koordinasiya sistemi çərçivəsində fəaliyyət göstərərək fövqəladə halların idarə edilməsində çevikliyi və operativliyi ilə seçilib.

FHN-in fəaliyyətində sistemlilik və yüksək hazırlıq prinsipi hər zaman xüsusi diqqət çəkib. Bu, iqlim dəyişiklikləri fonunda təbii fəlakət risklərinin artdığı, sənaye obyektlərində təhlükəsizlik tələblərinin sərtləşdiyi, urbanizasiya ilə bağlı risk amillərinin daha çox nəzərə çarpdığı indiki şəraitdə özünü daha qabarıq büruzə verib. Məsələn, belə hallar son bir il ərzində çox sayda yanğın hadisəsinin qarşısının operativ şəkildə alınması, yanğın təhlükəsizliyi sahəsində əməliyyat şəraitinin diqqət mərkəzində saxlanılması, bu hadisələrin qarşısının çevik alınaraq yayılıb ağır fəsadlarla nəticələnməsinə imkan verilməməsi, su basmaları, sürüşmələr və güclü küləklərlə bağlı hadisələrdə əhalinin təhlükəsizliyinin təmin edilməsi zamanı göstərib. Sənaye, ticarət və sosial obyektlərdə yüzlərlə texniki təhlükəsizlik yoxlamalarının aparılması, əhali arasında maarifləndirmə tədbirlərnin genişləndirilməsi isə nazirliyin artıq müasir risk-menecment modeli ilə proaktiv təhlükəsizlik fəaliyyəti göstərməsində təsdiqini tapıb.




FHN-in fəaliyyəti son illər ölkəmizin ərazi bütövlüyünün bərpası prosesi fonunda yeni mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, nazirliyin strukturları işğaldan azad edilmiş ərazilərdə formalaşdırılıb, təhlükəsizlik infrastrukturunun bərpası və qurulması istiqamətində ardıcıl addımlar atılıb. Dövlət Yanğından Mühafizə Xidmətinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Dövlət Yanğından Mühafizə hissələrinin fəaliyyəti reallaşdırılıb. Həmin hissələr müasir texnika və avadanlıqlarla təchiz edilib. Bununla da bölgədə yaşayışın təhlükəsiz təşkili və gələcək inkişafı üçün möhkəm zəmin yaradılıb.

Nazirlik tərəfindən işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizləmə prosesində aidiyyəti qurumlarla sıx əməkdaşlıq qurulması, Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı xüsusi təyinatlı hərbi hissəsinin minalardan təmizlənmə işlərində fəal iştirak etməsi bunun bariz ifadəsidir.



Yeri gəlmişkən, ölkə başçısının diqqət və qayğısı sayəsində alınmış ən müasir minatəmizləyən robotlar və digər vasitələr tətbiq olunmaqla minatəmizləmə işlərində yüksək nəticələr əldə edilib, nazirliyin tabe qurumları tərəfindən işğaldan azad olunmuş ərazilərdə yanğın təhlükəsizliyi daim nəzarətdə saxlanılıb, baş verən yanğınların operativ söndürülməsi təmin edilib, aparılan yenidənqurma layihələri ilə əlaqədar müvafiq təhlükəsizlik tədbirləri görülüb, dağıdılmış infrastrukturun təhlükəsizlik baxımından qiymətləndirilməsi aparılıb, yeni yaşayış sahələrində yanğın və texnogen təhlükəsizlik sistemləri yaradılıb.

Bütün bunlarla bərabər, keçmiş məcburi köçkünlərin mərhələli qayıdışı zamanı mülki-müdafiə tədbirlərinin gücləndirilməsi, xüsusilə "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyaları çərçivəsində qurulan yaşayış məntəqələrində FHN-in müasir texnologiyalara əsaslanan təhlükəsizlik modellərinin tətbiq olunması diqqətdə saxlanılıb. Başqa sözlə, nazirliyin "ağıllı" layihələr əsasında yaşayış məntəqələrində rəqəmsal təhlükəsizlik və erkən xəbərdarlıq mexanizmlərinin tətbiqinə regionda uzunmüddətli sabitliyin əsas şərti kimi yanaşılıb.

### Güclü imkanlar və beynəlxalq etimad

Müasir dövrdə fövqəladə halların qarşısının alınması və onların nəticələrinin minimuma endirilməsi dövlət təhlükəsizliyinin əsas tərkib hissələrindən biridir. Bu baxımdan FHN ötən illər ərzində həm texniki imkanlarına, həm də institusional potensialına görə regionun ən qabaqcıl qurumlarından birinə çevrilib. Nazirliyin fəaliyyətində əsas prioritet kimi insan həyatının qorunması, risklərin qabaqlanması və operativ reaksiya mexanizmlərinin daim təkmilləşdirilməsi dayanır.




FHN-in son illərdə texnika parkının sistemli şəkildə yenilənməsi və zənginləşdirilməsi bu qurumun fövqəladə hallara hazırlıq səviyyəsini keyfiyyətcə yeni mərhələyə yüksəldib. Yanğınsöndürmə və qəza-xilasetmə texnikaları, xüsusi təyinatlı maşın və mexanizmlər, mina və partlamamış hərbi sursatların aşkarlanıb zərərsizləşdirilməsi üçün müasir sistemlər, dənizdə xilasetmə əməliyyatlarını həyata keçirən katerlər və axtarış gəmiləri, habelə "Be-200 ÇS" tipli amfibiya təyyarəsi və helikopterlər fövqəladə vəziyyətlərdə çevik və səmərəli müdaxiləni təmin edir. Bu texniki üstünlüklər nazirliyə həm quru, həm hava, həm də dəniz məkanında geniş fəaliyyət imkanları yaradır.

Rəqəmsallaşma və informasiya texnologiyalarının tətbiqi də FHN-in fəaliyyətində mühüm yer tutur. Nazirliyin müasir İT infrastrukturu, elektron xidmətlərin təşkili, fövqəladə hadisələrin vahid statistik bazasının formalaşdırılması risklərin qabaqcadan qiymətləndirilməsini və qərarların daha dəqiq verilməsini şərtləndirir. Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və 112 qaynar xətti ölkə üzrə operativ əlaqələndirmə mexanizminin əsas dayaqlarından biridir. Eyni zamanda, ən müasir rabitə sistemləri ilə təchiz olunmuş mobil qərargah-avtobuslar hadisə yerində real vaxt rejimində böhranların idarə olunmasına imkan verir.



Beynəlxalq əməkdaşlıq FHN-in strateji fəaliyyət istiqamətlərindən biridir. Nazirlik qısa müddətdə bir çox ölkələrin müvafiq qurumları və beynəlxalq təşkilatlarla etibarlı tərəfdaşlıq əlaqələri qurub. Rusiya, Türkiyə, Fransa, Almaniya, Koreya və digər ölkələrlə əməkdaşlıq çərçivəsində birgə təlimlər, təcrübə mübadilələri və koordinasiyalı fəaliyyət mexanizmləri formalaşdırılıb. Eyni zamanda, ölkə daxilində Müdafiə, Daxili İşlər, Səhiyyə nazirlikləri və digər dövlət qurumları ilə keçirilən birgə təlimlər fövqəladə hallara kompleks yanaşmanı gerçəkləşdirir.

Humanitar missiyalar isə FHN-in beynəlxalq nüfuzunun ən parlaq göstəricilərindəndir. Azərbaycan Prezidentinin tapşırıqları əsasında müxtəlif ölkələrə humanitar yardımların çatdırılması, eləcə də İsrail, Gürcüstan və xüsusilə qardaş Türkiyədə meşə yanğınlarının söndürülməsində Azərbaycan xilasedicilərinin fəal iştirakı ölkəmizin həmrəylik və məsuliyyətli tərəfdaşlıq siyasətini aydın şəkildə nümayiş etdirir. Türkiyədə baş vermiş genişmiqyaslı meşə yanğınları zamanı FHN əməkdaşlarının peşəkarlığı, çevikliyi və fədakarlığı beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirildi.

### Fədakarlıq və peşə şərəfi

FHN fəaliyyətində insan resursları və peşəkarlıq məsələsinə də xüsusi əhəmiyyət verərək, bu yöndə müsbət nəticələr əldə edir. Bu uğurun təməlində isə peşəkar kadr və fədakar əməkdaş amili dayanır. Yüksək riskli şəraitlərdə həyatlarını təhlükə altına atan əməkdaşların vətəndaşların təhlükəsizliyi naminə şücaət göstərmələri də bunun bariz ifadəsidir. Davamlı təlimlərin keçirilməsi, beynəlxalq təcrübə mübadiləsi, texniki təminatın gücləndirilməsi isə insan kapitalının inkişafına yönəlmiş strateji xəttin göstəricisidir.

FHN-in fəaliyyətində insan kapitalının inkişafı xüsusi önəm daşıyır. Nazirliyin əməkdaşları xarici ölkələrin nüfuzlu ali təhsil və ixtisasartırma müəssisələrində müasir bilik və bacarıqlara yiyələnir, qabaqcıl beynəlxalq təcrübəni mənimsəyirlər. 2008-ci ildə yaradılmış FHN Akademiyası isə peşəkar kadr hazırlığının milli modelini formalaşdıraraq, nazirliyin davamlı inkişafının təminatına çevrilib. Akademiya müasir maddi-texniki bazası və tədris proqramları ilə fövqəladə hallarla mübarizədə peşəkar yanaşmanı gücləndirir.

Beləliklə, FHN-in 20 il ərzində keçdiyi yol sübut edir ki, dövlətin güclü iradəsi, yüksək mənəvi keyfiyyətlərə malik şəxsi heyətin fədakar və peşəkar fəaliyyəti, eləcə də müasir yanaşmaları nəticəsində bu qurum cəmiyyətin etibarlı dayağına çevirib. Davamlı təlimlər keçirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, texniki təminatın yenilənməsi bu peşənin risklərini minimuma endirib və səmərəliyi artırıb.

Nazirliyin qarşıdakı dövrdə əsas prioritetləri sırasında rəqəmsal idarəetmə və analitik mərkəzlərin genişləndirilməsi, erkən xəbərdarlıq sistemlərinin gücləndirilməsi, iqlim dəyişmələrinə uyğun fəaliyyət mexanizmlərinin hazırlanması, regionlarda təhlükəsizlik infrastrukturunun daha da möhkəmləndirilməsi xüsusi yer tutur. Bu hədəflər FHN-in yalnız bugünün deyil, gələcəyin təhlükəsizlik arxitekturasını formalaşdıran qurum olduğunu göstərir.

***Vaqif BİNYATOĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 372** — **4 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki "Nafta" Elmi İstehsalat Birliyinin, "Aşqar" Elmi İstehsalat Birliyinin və "Kompozit" Elmi İstehsalat Birliyinin ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamının 1.1.5-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki "Nafta" Elmi İstehsalat Birliyi, "Aşqar" Elmi İstehsalat Birliyi və "Kompozit" Elmi İstehsalat Birliyi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi "Nafta" Elmi İstehsalat Birliyinin, "Aşqar" Elmi İstehsalat Birliyinin və "Kompozit" Elmi İstehsalat Birliyinin ləğv edilməsi ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq zəruri tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn digər məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374** — **4 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 noyabr tarixli 356 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1279 (Cild I); 2024, № 12 (I kitab), maddə 1323) 1-ci hissəsinin "Şuranın üzvləri:" bölməsinin ikinci, yeddinci və on dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"Həsənov Ceyhun Rafiq oğlu - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Aparatının Makroiqtisadi proqnozlaşdırma və təhlil şöbəsi müdirinin müavini – iqtisadi statistika sektorunun müdiri

Hüseynzadə Samir Allahverən oğlu - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Baş katibinin müavini – Hüquq və sosial tərəfdaşlıq şöbəsinin müdiri

Abdullayev Cəlal Rövşən oğlu - Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin hüquq məsələləri üzrə meneceri".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 376** — **4 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2019–2021-ci illərdə icrası üzrə Fəaliyyət Planının 8.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət qulluğu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 28 sentyabr tarixli 142 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 755 (Cild I); 2024, № 4, maddə 437, № 12 (II kitab) maddə 1444) aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Dövlət orqanlarında (mərkəzi icra hakimiyyəti orqanlarında, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərində, mərkəzi icra hakimiyyəti orqanlarının tabeliyində olan orqanlarda) kadr qurumları həmin orqanların mövcud ştat sayı dairəsində işçilərinin sayına mütənasib olaraq aşağıdakı cədvələ uyğun olaraq təşkil edilir:

| Sıra №-si | Vəzifələr nomenklaturu üzrə kadr xidməti göstərilən işçi sayı | Kadr məsələləri üzrə ştat sayı və ya müvafiq struktur bölmə |
|---|---|---|
| *1.* | *işçi sayı 100 nəfərədək olduqda* | *kadr məsələləri üzrə maksimum 2 ştat vahidi* |
| *2.* | *işçi sayı 101 nəfərdən 200 nəfərədək olduqda* | *kadr məsələləri üzrə 2 ştat vahidi və ya sektor* |
| *3.* | *işçi sayı 200 nəfərdən çox olduqda* | *sektor və ya şöbə* |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 380** — **9 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 149 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin həyata keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 373** — **4 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası"nın təsdiq edilməsi və "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 2 iyun tarixli 402 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165 (Cild I); 2025, № 9, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambuladan "1.3-cü," və ", 1.13-cü" sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "Fitosanitar sertifikatının nümunəvi forması"," və "Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin Siyahısı"," sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 378** — **5 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Xüsusi icra məmurunun standart haqqının və əlavə icra haqqının hesablanması meyarları və hədlərinin, habelə standart haqq üzrə avansın məbləği"nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.1.2-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Xüsusi icra məmurunun standart haqqının hesablanması meyarları və hədləri" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** "Xüsusi icra məmurunun standart haqq üzrə avansın məbləği" təsdiq edilsin *(əlavə olunur)*.

**3.** "Xüsusi icra məmurunun əlavə icra haqqının hesablanması meyarları və hədləri" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 381** — **9 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Keyfiyyət informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Keyfiyyət informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik):

2.1. Keyfiyyət informasiya sisteminin formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili, saxlanması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Keyfiyyət informasiya sistemində formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Agentlik ilə birlikdə Keyfiyyət informasiya sisteminin "Hökumət buludu"na keçidinin təşkili, aparılması və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 383** — **9 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100) ilə təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası"nın II bölməsinin 3-cü hissəsinin birinci cümləsində "qurumunun" sözü "xidmətinin" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 573 (Cild I); 2025, № 8, maddə 800) ilə təsdiq edilmiş "Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydası və şərtləri"nin 4-cü hissəsində və 5-ci hissəsinin ikinci cümləsində "qurumunun" sözü "xidmətinin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 384** — **10 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sənədlərin saxlanmasına, komplektləşdirilməsinə və mühafizəsinə dair Qaydalar"da dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 161-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 186 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Sənədlərin saxlanmasına, komplektləşdirilməsinə və mühafizəsinə dair Qaydalar"ın 1.4-cü bəndində "Əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa, yaxud təbii inhisara malik olan hüquqi şəxslər malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar üzrə" sözləri "Təbii inhisar subyektləri istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısı, məhsullar üzrə qiymətlərin siyahısı (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə), müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtlər, müqavilənin forması və bağlanılması qaydası, müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasına aid informasiyalar üzrə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 386** — **10 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

**2.** "Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin xidməti attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 499 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2163 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Təqvim yada salır*

# Milli pediatriyanın Adilə Namazova zirvəsi

**Xalqımızın yaddaşında zəkanın nuru, fədakarlığın və humanizmin parlaq nümunəsi kimi əbədi iz qoymuş akademik Adilə Namazovanın ömür yolu təkcə bir insan taleyi deyil. Bu yol Azərbaycan pediatriyasında elmi məktəbin əsasını qoymuş novator alim, minlərlə uşağa şəfa bəxş etmiş mərhəmətli həkim, eyni zamanda, dövlət və cəmiyyətin həyatında fəal mövqe tutmuş görkəmli ictimai xadimin şərəfli və mənalı missiyasıdır.**





Adilə Namazovanın elmi irsi, yüksək peşəkar prinsipləri və vətəndaş mövqeyi milli pediatriyanın inkişaf tarixində silinməz iz buraxıb. Onun təşəbbüsləri və elmi yanaşmaları uşaq sağlamlığının qorunması, xəstəliklərin profilaktikası və pediatrik təhsilin formalaşmasında mühüm rol oynayıb. O, yeni nəsillərə elmi biliklərlə yanaşı, həkim peşəsinin mənəvi dəyərlərini aşılayıb.

Azərbaycanın sağlam gələcəyinə ürəyinin bütün istiliyini bəxş edən bu işıqlı simanın zəngin elmi və ictimai irsini ehtiramla anırıq. Bu gün tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, Rusiya Elmlər Akademiyasının üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli Adilə Namazovanın vəfatından 5 il ötür.

Adilə xanım 1926-cı ilin sentyabrında Ağdam rayonunun Seyidli kəndində dünyaya göz açıb. Həkim olmaq arzusu ilə gənc qız orta təhsilini müvəffəqiyyətlə başa vurub və 1944-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olub. 1949-cu ildə ali məktəbi uğurla bitirən Adilə xanım doğma yurdu Ağdama qayıdıb rayon uşaq məsləhətxanasının rəhbəri kimi çalışıb. Fədakar həkim təkcə doğma rayonunda deyil, bütün Qarabağ bölgəsində peşəkarlığı və xəstələrinə qayğıkeş yanaşması ilə tanınıb və sevilib.

Gələcəyin alimi bununla kifayətlənməyib, bilik və bacarığını daha da artırmaq, səhiyyənin inkişafına öz töhfəsini vermək üçün təhsilini davam etdirib, elmi axtarışlara başlayıb.

Ölkəmizdə pediatriya elmi məktəbinin olmaması problemi uzun müddət idi ki, Adilə xanımı narahat edirdi. Bu məqsədlə alim Azərbaycanda ilk dəfə E.Əfəndiyev adına 2 saylı Şəhər Xəstəxanasında xüsusi biokimyəvi laboratoriya və ürək, tənəffüs sisteminin funksional fəaliyyətini müəyyənləşdirən elektrofizioloji elmi mərkəz yaradır, istedadlı gənc həkimləri, tələbələri mərkəzdə elmi fəaliyyətə cəlb edir. Bununla Azərbaycanda yeni pediatriya elmi məktəbi formalaşmağa başlayır. O, Azərbaycan elmini zənginləşdirmək, müasirləşdirmək məqsədilə ardınca namizədlik, doktorluq dissertasiyaları müdafiə edir. Beləliklə, Azərbaycanda ilk dəfə olaraq Adilə Namazovanın rəhbərliyi ilə pediatriya elmi məktəbi inkişaf yoluna qədəm qoyub.

Heç də təsadüfi deyil ki, Adilə xanım Namazova səhiyyə sahəsindəki xidmətlərinə və tibb elminə verdiyi töhfələrinə görə 1971-ci ildə keçmiş SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilən ilk azərbaycanlı qadın alim olub.

Adilə xanım praktik həkimlik fəaliyyəti ilə yanaşı, durmadan elmi araşdırmalarını davam etdirib. Odur ki, SSRİ-nin süqutundan sonra da həmyerlimizin elmi nailiyyətləri yüksək qiymətləndirilib, o, Rusiya Tibb Elmləri Akademiyasına üzv seçilib. 1981-ci ildə elmi fəaliyyətinə və beynəlxalq miqyasda yüksəkixtisaslı kadrların yetişdirilməsində göstərdiyi əməyə görə Əməkdar elm xadimi fəxri adına, 1982-ci ildə Azərbaycan pediatriya elminin inkişafında verdiyi ciddi töhfələrə görə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülüb.

Akademik Adilə Namazovanın böyüklüyü yalnız elmi nailiyyətlərlə ölçülmürdü. O, mürəkkəb ictimai prosesləri incəliklə dərk edən, məsuliyyətli qərarlar verməyi bacaran və cəmiyyət maraqları naminə ardıcıl mövqe sərgiləyən virtuoz siyasi düşüncəyə malik bir şəxsiyyət idi. Dövlətin və cəmiyyətin həyatında apardığı fəaliyyət elmlə siyasətin, humanizmlə dövlət məsuliyyətinin ahəngdar və inandırıcı vəhdətini nümayiş etdirirdi.

Öz sahəsini sevməsi və elmə bağlı olduğu qədər ölkəmizin ictimai həyatında da yaxından iştirak edən akademik 1972-ci ildə Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, 1973-cü ildə isə SSRİ Uşaq Həkimləri Cəmiyyəti İdarə Heyətinin üzvü, 1995-ci ildə Türkdilli Ölkələrin Pediatrlar Assosiasiyasının vitse-prezidenti, Ümumdünya Pediatrlar Assosiasiyası İdarə Heyətinin üzvü seçilib.

Adilə Namazova Azərbaycan torpaqlarının erməni vandalları tərəfindən işğalı, bunun nəticəsində 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü dövrdə keçmiş SSRİ-nin millət vəkili kimi yüksək kürsülərdə hər zaman öz sözünü deyib. O, erməni işğalçılarının Dağlıq Qarabağla bağlı əsassız iddialarının puçluğunu tutarlı faktlarla sübuta yetirməyə səy göstərib.

Keçmiş sovet ordusunun 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda və ətraf bölgələrdə amansız vəhşiliklər, qırğınlar törətdiyi zaman Adilə xanım Namazova qaniçənlərə qarşı fəal mübarizə aparıb. O, Xalq artisti, bəstəkar Arif Məlikov və fəhlə Sara Vəzirova ilə birlikdə "Salyan" kazarmasına və digər yerlərə gedərək sovet ordusu komandirləri tərəfindən tərksilah edilərək zirzəmilərə salınan 300-dən çox Azərbaycan hərbçisinin azad edilmələrinə nail olub.

Adilə xanım uzun illər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərib. 20 il Azərbaycan Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının, eləcə də uzun müddət Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin tibb bölməsinin sədri olub.

Adilə Namazova SSRİ Dövlət İxtira Komitəsindən 5 ixtira vəsiqəsini elmdəki yeniliklərinə görə əldə edib. Adilə Namazova dünyada ilk və yeganə pediatr idi ki, uşaqlarda anadangəlmə ürək qüsurları zamanı belə sanballı, çoxtərəfli, dərin elmi tədqiqatlar aparıb konservativ və cərrahi müalicə üsullarını işləyib.

Ulu öndər Heydər Əliyev akademik Adilə Namazovanın fəaliyyətini hər zaman yüksək qiymətləndirirdi, onu Azərbaycanda elmi pediatriyanın banisi adlandırırdı. Adilə Namazova xatirələrində bildirirdi ki, onun kadr hazırlığı sahəsində gərgin fəaliyyətinə akademik Zərifə Əliyeva da hər zaman dəstək olub.

Eyni zamanda, akademik Adilə Namazovanın Türkiyənin görkəmli elm adamlarından biri, ictimai-siyasi xadim, Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri, professor İhsan Doğramacı ilə sıx dostluq əlaqələri Azərbaycan Pediatrlar Assosiasiyasının beynəlxalq tədbirlərdə ölkəmizi təmsil etməsinə əlverişli zəmin yaradıb.

Akademik Adilə Namazovanın elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq elmi jurnallarda dərc olunub, Yaponiya, ABŞ, İngiltərə, Hindistan, Əlcəzair, Avstriya, İtaliya, Türkiyə, Fransa, Almaniya, Rusiya, İsrail, Argentina, Belçika, İspaniya, Misir və digər xarici ölkələrdə keçirilən elmi konqres və konfranslarda dinlənilərək yüksək qiymətləndirilib. Adilə xanım 350-dən çox məqalənin, 30-dan çox monoqrafiya, dərslik və kitabın, eyni zamanda MDB məkanında "Tibbi etika" adlı ilk dərsliyin müəllifidir.

Görkəmli alim elmi-ictimai fəaliyyətinə və xidmətlərinə görə ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1996-cı ildə "Şöhrət" ordeni, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni və Azərbaycanda tibb elminin inkişafında roluna, tibb kadrlarının yetişdirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Ömrünün 70 ilə yaxın bir dövrünü səhiyyəmizin, tibb elminin inkişafına, şəxsi nümunəsində yeni həkim nəslinin, yüksəkixtisaslı tibb mütəxəssislərin yetişdirilməsinə həsr edən, insanlara şəfqət sovqatı bəxş edən pediatr alim bu yolda səmimiyyətlə, ardıcıl və yorulmadan fəaliyyət göstərib. Onun rəhbərliyi ilə yaratdığı elmi məktəbin yetirməsi olan 60-dan artıq alim namizədlik və doktorluq dissertasiyasını müdafiə edərək, təkcə Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həkimlik və elmi fəaliyyətlərini uğurla davam etdirirlər.

Akademik Adilə Namazovanın adı Azərbaycan pediatriyasının tarixində təkcə bir alim kimi deyil, düşüncə mədəniyyəti, peşə etikası və vətəndaş ləyaqəti nümunəsi kimi yaşayacaq. Onun zəngin irsi bu gün də yol göstərir, sabah isə yeni nəsillər üçün mənəvi və intellektual dayaq olaraq qalacaq.

***Təranə TAĞIZADƏ,***
***Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Tibb Universiteti II uşaq xəstəlikləri kafedrasının dosenti***

# DTX-nın Mətbuat xidmətinin məlumatı




**Balakən Rayon İcra Hakimiyyətinin sabiq başçısının cinayət əməlləri ifşa olunmuşdur.**

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri zamanı Balakən Rayon İcra Hakimiyyətinin başçısı olmuş Rzayev İslam Vahid oğlunun həmin vəzifədə işlədiyi müddətdə öz qulluq mövqeyindən istifadə etməklə, ona etibar edilmiş külli miqdarda özgə əmlakını mənimsəməsinə və çoxsaylı korrupsiya cinayətlərinə yol verməsinə əsaslı şübhələr yaranmışdır.

Müəyyən olunmuşdur ki, İslam Rzayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində fəaliyyət göstərdiyi dövrdə dövlət büdcəsindən işsiz və aztəminatlı şəxslərə, rayon ərazisində təmir-tikinti və abadlıq-quruculuq işlərinə ayrılmış maliyyə vəsaitlərini vəzifə səlahiyyətlərindən sui-istifadə edərək mənimsəmiş, belə vəsaitlərin təyinatı üzrə xərclənməsini təşkil etməmiş, eləcə də vəzifəli şəxslərdən və iş adamlarından rüşvət almışdır.

Faktla bağlı DTX-nin İstintaq baş idarəsində başlanılmış cinayət işi üzrə İslam Rzayev saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə məsuliyyətə cəlb olunmuş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***Sosial layihələr***

**Yeni iqtisadi çağırışlar fonunda işsiz əhalinin sosial müdafiəsinin daha təkmil və dayanıqlı mexanizmlər əsasında qurulması zərurətə çevrilib. Bu baxımdan, ölkəmizdə həyata keçirilən kompleks islahatlar nəticəsində məşğulluq imkanları artmışdır. İşsizlik və yoxsulluğun səviyyəsi sürətlə azalaraq 5,5 faizə düşmüşdür. Sosial ödənişlərdə isə dəfələrlə artımlar edilmişdir. Azərbaycanda işsizlikdən sığorta proqramlarının təşkili və inkişafı birbaşa dövlətin sosial siyasətinə bağlıdır.**

# İşsizə – dəstək, məşğulluğa – "yaşıl" işıq!

Dövlət bu sahədə əsas təşkilatlandırıcı və nəzarətçi orqan kimi çıxış edir, hüquqi və institusional mexanizmləri təkmilləşdirir, proqramların effektivliyini artırır. Həmçinin sığorta fonduna əlavə vəsait ayırmaq, riskləri bölüşdürmək və sistemin dayanıqlılığını qorumaq üçün müxtəlif iqtisadi və sosial alətlərdən istifadə edilir, işsizlərin kilinə, işsizliyə görə sığorta ödənişlərinə, peşəyönümü məsləhət xidmətlərinin göstərilməsinə, peşə standartlarının hazırlanmasına, sosial iş yerlərində əməkaqqının bir hissəsinin maliyyələşdirilməsinə, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsinə və digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcək. Həmin xərclərin işsizliyə görə sığorta ödənişləri, həmçinin özünüməşğulluq proqramının icrası, peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin və əlavə təhsilin təşkili, peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi, peşə standartlarının hazırlanması, sosial iş yerlərində əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi, sosial müəssisələrin yaradılması, məqsədli proqramların həyata keçirilməsi və digər aktiv məşğulluq tədbirlərinə yönəldilməsi nəzərdə tutulur.



məşğulluq imkanlarının artırılması üçün müxtəlif proqramlar və layihələr həyata keçirilir. Bu proqramlar çərçivəsində işsizlərə peşə hazırlığı kursları, təlimlər, yeni iş yerlərinin yaradılması və işə düzəlmək üçün məsləhət xidməti təqdim olunur.

Dövlətin sosial müdafiə siyasəti, eyni zamanda, işsizlikdən sığorta proqramlarının əhatə dairəsinin genişlənməsinə, əhalinin bütün təbəqələrinin bu imkanlardan bərabər şəkildə faydalanmasına şərait yaradır. İşsizlikdən sığorta sistemi yalnız fərdi səviyyədə deyil, bütövlükdə əmək bazarı və iqtisadiyyat üçün böyük əhəmiyyət daşıyır. Bu mexanizm cəmiyyətin sosial sabitliyinin qorunmasına, işçi qüvvəsinin motivasiyasının artırılmasına və işsizlik səviyyəsinin idarə olunmasına kömək edir.

İşsizlikdən Sığorta Fondunun əsas məqsədi işsiz qalan şəxslərə maddi dəstəkdir. Fondda toplanan vəsaitlər sığorta haqlarından, işəgötürən və işçilərin ayırmalarından, dövlətin əlavə yardımlarından və digər qanuni mənbələrdən formalaşır. Fondun idarə olunması şəffaflıq, səmərəlilik və hesabatlılıq prinsiplərinə əsaslanır. Fonddan ayrılan vəsaitlər işsiz qalan şəxslərə yönəldilir və onların yenidən işə düzəlməsi dövründə sosial təminat kimi istifadə olunur. Fondun gəlirlərinin əsas hissəsini işəgötürənlər və işçilər tərəfindən ödənilən sığorta haqları təşkil edir. Bu məbləğlər dövlət tərəfindən ciddi şəkildə nəzarətdə saxlanılır və illik büdcə planlaması zamanı nəzərə alınır. Sosial müdafiə xərclərində artım dinamikası sosial islahatların davamlı olduğunu, əhalinin rifahının yüksəldilməsi və həssas qrupların sosial müdafiəsinin dövlətin diqqət mərkəzində dayandığını bir daha təsdiqləyir.

İşsiz vətəndaşlara sosial dəstək əsasən işsizlik müavinəti formasında olur: bu, işini itirmiş şəxslərə müəyyən müddət ərzində dövlət tərəfindən verilən maddi yardımdır, onların sosial rifahını qorumağı və yeni iş tapmalarına kömək etməyi hədəfləyir. Bu, rəsmi işsiz statusu almış şəxslər üçün nəzərdə tutulub. İşsizlikdən sığortanın məqsədi Azərbaycanın əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir.

Ölkəmizdə İşsizlikdən Sığorta Fondunun yaradılması müvafiq sığorta ödənişləri ilə yanaşı, aktiv məşğulluq tədbirlərinin genişləndirilməsində, məşğulluq xidmətlərinin inkişaf etdirilməsində də mühüm rola malikdir. İctimaiyyətlə əlaqələr şöbəsindən sorğumuza verilən cavaba görə, fond gələn il də bu sahədə mühüm dəstək olacaq. Belə ki, İşsizlikdən Sığorta Fondunun 2026-cı il üzrə gəlirləri 2025-ci ilin təsdiq edilmiş göstəricisindən 31,9 milyon manat, yaxud 15,5 faiz çox olmaqla 238,3 milyon manat həcmində nəzərdə tutulur. Fondun 2026-cı il üzrə xərclərinin 266,4 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq edilmiş göstəricisindən 5,7 milyon manat və ya 2,2 faiz çoxdur.

Proqnozlaşdırılan xərclər özünüməşğulluq proqramının, peşə hazırlığı və əlavə təhsilin, haqqı ödənilən ictimai işlərin təş-

Ümumilikdə, gələn il İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına 450 minə yaxın şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması gözlənilir. O cümlədən, 2026-cı ildə 170 minə yaxın şəxsin işlə təminatına dəstək veriləcək. Ötən dövrdə 111 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək onlar üçün proqramın dəstəyi ilə kiçik bizneslər yaradılıb. Gələn il də aktiv məşğulluq tədbirlərindən olan özünüməşğulluq proqramı davam etdiriləcək. Növbəti ildə 15 min



ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur. Onlardan 8 mini üçün fondun vəsaiti hesabına, 7 mini üçün isə Dünya Bankı layihəsi çərçivəsində isə kiçik ailə təsərrüfatları qurulacaq.

Qeyd etdiyimiz kimi, İşsizlikdən Sığorta Fondu işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsil imkanlarının genişləndirilməsində də dəstəkdir. Gələn il 17500-ə yaxın şəxsin Dövlət Məşğulluq Agentliyi tərəfindən peşə hazırlığı kurslarına cəlb edilməsi, 100 yeni peşə və kvalifikasiya standartlarının hazırlanması və 135 peşə və kvalifikasiya standartlarının yenilənməsi, 180 əmək yarmarkasının keçirilməsi də nəzərdə tutulur və növbəti ildə peşəyönümü məsləhət xidmətləri ilə əhatə olunacaq şəxslərin sayının 230 mindən çox olacağı gözlənilir.

Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, cari ilin 10 ayında məşğulluq orqanları 158 min nəfər işsiz və işaxtaran şəxsi işlə təmin edib. 2026-cı ildə isə 170 minə yaxın insanın işə düzəlməsinə dəstək veriləcəyi gözlənilir. Əhalinin məşğulluğunun təmin edilməsində fəal tədbirlərdən olan özünüməşğulluq proqramı növbəti ildə də davam etdiriləcək. İşsizlikdən Sığorta Fondunun büdcəsinin xərclərinin 29 faizini təşkil edəcək.

Bütün bunlar bir daha təsdiq edir ki, ölkəmizdə əhalinin rifahının dayanıqlılığını gücləndirməyə yönəlmiş kompleks məşğulluq tədbirləri davamlı olaraq genişlənir. Sosial müdafiə mexanizmlərinin gücləndirilməsi ilə yanaşı, məşğulluq imkanları artırılır, dəstək proqramları genişləndirilir, o cümlədən özünüməşğulluğa meydan açılır.

***Mustafa KAMAL***
***XQ***

# Sağlam inancdan kamil əxlaqa mənəvi körpü

**Dünən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə gənclərin milli-mənəvi dəyərlərə, Vətənə sədaqət ruhunda böyüməsi, dini-ideoloji təsirlərdən qorunması istiqamətində maarifləndirmə işlərinin təşkili məqsədilə "Dini düşüncə mədəniyyəti: pedaqoji perspektivlər" mövzusunda konfrans keçirildi.**



Tədbirdə Elm və Təhsil Nazirliyinin əməkdaşları, Dövlət Komitəsinin rəhbərliyi, Milli Məclisin deputatları, Azərbaycan İlahiyyat İnstitutunun məsul şəxsləri, Bakı şəhəri üzrə orta məktəblərin psixoloq və müəllimləri iştirak edirdilər.

"Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi: pedaqoji yanaşmalar və müasir təlim modelləri" və "Dini fanatizm, xurafat və radikalizmlə mübarizədə məktəbin maarifləndirici missiyası" adlı panellərdə müvafiq dövlət qurumlarının nümayəndələri və mütəxəssislərin çıxışları dinlənildi.

***Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov XQ-yə açıqlamasında bildirdi ki, təbiətə qarşı həssaslıq, mərhəmət, estetik zövq və təmizlik anlayışı universal insani dəyərlərdir:***



– Ümumilikdə, biz hamımız yaşayış üçün əlverişli mühitin formalaşmasında birbaşa iştirak edirik. Məhz bu anlayış dəyərlər sisteminin əsas hədəfidir. Bu hədəfə çatmaq üçün hansı dəyərlər ön plana çəkilməlidir? Burada əsas təhlükə ondadır ki, dəyərləri öyrədərkən verdiyimiz nümunələr bəzən insanın yaşadığı mühitə və mədəni yaddaşına uyğun olmur. Halbuki, dəyər təliminin əsas prinsiplərindən biri nümunələrin yerli mədəniyyətə uyğun olmasıdır. Məhz buna görə dəyər təlimində müxtəlif metodlardan düzgün və məqsədyönlü şəkildə istifadə etmək xüsusi əhəmiyyət daşıyır.

Bu metodlardan biri beynəlxalq praktikada "DIE metodu" adlandırılan, yəni "təhsildə drama" yanaşmasıdır. Təhsildə drama metodu şagirdin passiv dinləyici yox, prosesin fəal iştirakçısı olmasını təmin edir. Teatral üsullardan istifadə etməklə dəyərlər şagirdin zehnində abstrakt anlayış kimi yox, konkret obraz və hadisə kimi formalaşır.

Analitik düşünmə qabiliyyəti insanlarda, əsasən, 10 yaşdan sonra daha sistemli şəkildə inkişaf etməyə başlayır. Xüsusilə, aşağı yaş qruplarında bu qabiliyyət zəif olur. Bu səbəbdən, dəyərləri yalnız nəzəri şəkildə izah etmək effekt vermir. Mütləq şəkildə konkretləşdirmə aparılmalıdır. Məsələn, sevgi, mərhəmət və ya mədəniyyətə aid hər hansı bir dəyər öyrədilirsə, bu anlayış şagirdin gözündə real situasiya və davranış nümunələri ilə canlandırılmalıdır.

Bu məqsədlə şagirdlər arasında tərbiyəvi mövzularda səhnələrin qurulması, rolların paylaşdırılması çox təsirli nəticə verir. Mütəxəssislər yekdil şəkildə qəbul edirlər ki, müəllimin mühazirə oxuması ilə dəyər aşılanması mümkün deyil. Şagird mərkəzdə olmalı, özü düşünməli, ifadə etməli, nəticə çıxarmalıdır.

Məsələn, tolerantlıq mövzusunu öyrətmək üçün şagirdləri müxtəlif inanc mərkəzlərinə aparmaq olar. Məscid, sinaqoq və kilsənin eyni məkanda, yanaşı fəaliyyət göstərdiyini canlı şəkildə görən şagirdin şüurunda tolerantlıq anlayışı formalaşır. O anlayır ki, ölkənin əksəriyyəti müsəlman olsa da, burada digər dinlərin nümayəndələri də sülh içində yaşayır.

***Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu vurğuladı ki, din tarix boyu təhsil sahəsində öncül rol oynayıb:***



– Məsələn, eramızın 64-cü ilində yəhudi ruhani rəhbəri belə bir göstəriş vermişdi ki, bütün yəhudi kişilər Talmudu (yəhudi dini qanunlarını, əxlaqi prinsipləri və həyat qaydalarını əhatə edən əsas kitab) oxuya bilsinlər. Bu, sadəcə dini bilik yox, eyni zamanda savadlılığın təşviqi demək idi. Belə bir təşəbbüs yəhudi xalqının yüz illərlə davam edən səyləri nəticəsində reallaşmışdı. Müqayisə üçün qeyd etmək olar ki, digər xalqlar üçün, məsələn, almanlar üçün bu proses daha qısa müddətdə baş verib. Bu nümunə göstərir ki, din həm fərdi, həm də cəmiyyət səviyyəsində təhsildə mütərəqqi rol oynaya bilər və savadlılığın yayılmasına xidmət edir.

Azərbaycanın təhsil tarixinə baxsaq, məktəblərin ilk təməli zərdüştlük dini ilə bağlı olub. Sonradan İslam dini Azərbaycanda qəbul edildikdən sonra məktəb sistemi mədrəsə formasında inkişaf edib. Demək, din və elmi-dünyagörüşü bir-birini istisna etmir; hər ikisi insanın dünyanı daha yaxşı başa düşməsi üçün vacibdir. Faktları öyrətmək ilə dəyərləri öyrətmək fərqli, amma əlaqəlidir.

Təhsil metodikası baxımından "reaktiv" və "spontan" öyrənmə anlayışları önəmlidir. Reaktiv öyrənmə – proqramda nəzərdə tutulmuş bilikləri çatdırmaqdır. Spontan öyrənmə isə uşağın marağı və ortaya çıxan sualları əhatə edərək dərsi genişləndirməkdir. Bunun üçün məşhur "5 niyə?" metodu istifadə olunur. Uşaq bir hərəkət göstərdikdə və ya dini sual verdikdə, müəllim davamlı olaraq "niyə?" sualını verərək uşağın davranışının, düşüncəsinin və psixoloji vəziyyətini öyrənir.

Proses sadədir: uşaq bir hərəkət göstərdikdə və ya sual verdikdə, müəllim ona "niyə belə etdin?" soruşur. Uşaq cavab verdikdən sonra müəllim həmin cavaba əsaslanaraq yenidən "niyə?" sualını verir və bu proses adətən beş dəfə təkrarlanır. Artıq şagird səthi və avtomatik cavablardan uzaqlaşıb öz daxilinə baxmağa, davranışının və qərarlarının səbəblərini anlamağa başlayır. "5 niyə?" metodu həm psixoloji inkişaf, həm də tədris prosesində uşağın düşüncə tərzinin dərinləşdirilməsi üçün önəmli vasitə sayılır.

Dini xurafatların təhsilə, ailəyə, əmək münasibətlərinə və hətta dövlət təhlükəsizliyinə təsir etməsidir. Təhsil işçiləri və müəllimlər burada məqsəd olaraq dini xurafatları aradan qaldırmalı və din haqqında düzgün, sosial və elmi əsaslı məlumatları uşaqlara çatdırmalıdırlar.

***İlahiyyat İnstitutunun müəllimi, fəlsəfə doktoru Elvüsal Məmmədov söylədi ki, bilik insan üçün zəruridir. Amma təhsil tərbiyə ilə, mənəvi dəyərlərlə əlaqəli aparılmırsa, o kamil şəxsiyyət yetişdirə bilmir:***



– XVII əsrdən başlayaraq dünyada bilik anlayışı dəyişməyə başladı. Empirik və fiziki biliklər, yəni yalnız təcrübəyə, ölçüyə, maddi faktlara əsaslanan biliklər ön plana keçdi. Nəticədə mənəvi biliklər, dəyərlər, vicdan, əxlaq məsələləri tədricən ikinci plana sıxışdırıldı. Belə yanaşma zamanla "dialektik materializm" adlanan düşüncə sistemini formalaşdırdı.

Bu sistemdə əsas olan maddə, ölçüləbilən, görünən sübutlardır. Mənəviyyat isə əsas meyar sayılmır. Sovet dövründə bu düşüncə rəsmi ideologiya idi. Lakin sovet hakimiyyəti artıq yoxdur və biz nəzəri olaraq bu ideologiyadan imtina etmişik. Amma problem ondadır ki, ideologiya dağılsa da, hələ də müxtəlif sahələrdə bu hallarla rastlaşırıq.

Mövzunu daha yaxşı başa düşmək üçün təfəkkür formalarından bəhs etmək yerinə düşər. Məntiqi təfəkkür analiz etmək, nəticə çıxarmaq üçündür. Emosional təfəkkür hisslərimizlə qərar verməyimizdir. Bir də mənəvi təfəkkür var. Əsas məsələ məhz budur. Mənəvi təfəkkür insanın qəlbinin səsinə qulaq asmasıdır. Orta məktəbdən başlayaraq uşaqlara məsuliyyət hissi aşılanmalıdır. Bu məsuliyyət iki cürdür: birincisi, insanın özünə qarşı məsuliyyəti, yəni etdiyi hərəkətə görə cavabdeh olması, ikincisi isə ətrafdakılara, cəmiyyətə qarşı məsuliyyət, dürüstlük, prinsipiallqdır.

Bəs orta məktəblərdə bu mənəvi dəyərləri necə aşılamalıyıq? Mənim təklif etdiyim üsullardan biri biblioterapiyadır. Biblioterapiya xüsusi seçilmiş oxu materialları vasitəsilə insanın mənəvi - psixoloji problemlərini azaltmaq, daxili dünyasını zənginləşdirmək məqsədi daşıyır. Burada mütaliə materialı deyəndə yalnız ibrətamiz hekayələr nəzərdə tutulmur. Əsas məqsəd zəkanı tərbiyə etməkdir. Bu, çox vacib və bəzən unudulan anlayışdır: zəka tərbiyə olunmalıdır.

Əgər biz zəkanı düzgün şəkildə tərbiyə etsək, insan çətin, böhranlı vəziyyətlərdə özünü nəzarətdə saxlaya biləcək.

Biblioterapiya, əsasən, hekayələrdən istifadə üzərində qurulur. Çünki hekayələr "güzgü" funksiyasını yerinə yetirirlər. Yəni hekayələrin model funksiyası var. Hekayədəki obrazlar, davranışlar insan üçün nümunəyə çevrilir. Oxucu həmin obrazı özü üçün ideal kimi seçə bilir və şüuraltı şəkildə "mən də belə davrana bilərəm" deyə düşünməyə başlayır.

Məsələn, türkiyəli psixoloq Nevzat Tarxan "Məsnəvi ilə terapiya" adlı kitab yazıb. Bu əsərdə diqqətimi xüsusilə cəlb edən məqam hekayə əsaslı tərbiyə yanaşmasıdır. Bir tərəfdən insanda mövcud olan konkret mənəvi problemi göstərir, digər tərəfdən isə ona uyğun mənəvi dəyəri təqdim edir. Müəllif bunları elə bir vəhdətdə verir ki, uşaq həm çatışmazlığın özündə olduğunu anlayır, həm də hekayənin təsiri ilə həmin mənəvi dəyəri tədricən mənimsəyir.

***Fidan ƏLİYEVA***
***XQ***

---

# "Anlamaq" dərdi, yoxsa "anlatmaq" bəlası?

## *Şagirdlər təcrübə istəyir, proqram isə daha çox nəzəriyyə təqdim edir*

**Məktəblərdə tədrisin keyfiyyətinin artırılması ilə bağlı müxtəlif islahatlar həyata keçirilsə də, bəzi ciddi problemlər hələ də öz həllini tapmayıb. Bu çatışmazlığın ən nəzərəçarpan tərəfi fizika, kimya və informatika kimi fənlərin tədrisində əyaniliyin zəif olmasıdır.**

Bu fənlər mahiyyətcə təcrübə üzərində qurulan sahələrdir və şagird yalnız nəzəri izahla deyil, gördüyü, sınadığı və tətbiq etdiyi biliklərlə inkişaf edir. Lakin mövcud infrastruktur bir çox məktəbdə bu imkanı yaratmır.

Bu gün bəzi məktəblərdə kimya və fizika laboratoriyalarının ya ümumiyyətlə olmaması, ya da çox məhdud avadanlıqla işləməsi dərslərin tam şəkildə keçirilməsinə mane olur. Təcrübə üçün tələb olunan reaktivlər, təhlükəsizlik vasitələri, laborator stollar və əsas cihazlar çox vaxt tapılmır. Mövcud avadanlıqlar isə ya köhnə, ya da istifadəyə yararsız vəziyyətdədir.

Belə olan halda, müəllim məcburən bütün prosesi şifahi izahla aparır və şagirdlər dərsin ən maraqlı hissəsi olan eksperimentdə iştirak edə bilmirlər. Eyni vəziyyət informatika dərslərində də özünü göstərir. Bir çox məktəbdə kompüterlərin sayı sinifdəki şagird sayına uyğun gəlmir, bəzi hallarda isə ümumiyyətlə dərsin tam praktik keçirilməsinə imkan olmur. Halbuki informatika fənni konkret bacarıqların formalaşdırılmasını tələb edir və şagird kompüter qarşısında işləmədən bu bacarıqları qazana bilməz. Bu çatışmazlıqlar nəticəsində praktiki dərslərlə dəstəklənməyən tədris şagirdlərdə analitik düşünmə, problem həll etmə, araşdırma aparmaq kimi mühüm bacarıqların inkişafı ləngiyir.

Eyni zamanda, STEM (Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat) sahələrinə marağın azalması gələcəkdə mühəndislik və texnologiya üzrə kadr çatışmazlığına gətirib çıxara bilər. Universitetə qəbul zamanı laboratoriya işlərini və təcrübi tapşırıqları yerinə yetirməkdə çətinlik çəkən abituriyentlər bunun yükünü daha çox hiss edərlər. Bu isə ölkənin texnoloji inkişaf tempinə, rəqəmsal transformasiya istiqamətlərinə də birbaşa təsir göstərər.

Problemin həlli isə sistemli yanaşma tələb edir. İlk növbədə məktəblərdə müasir laboratoriyaların qurulması, mövcud laboratoriyaların standartlara uyğun şəkildə yenilənməsi, təhlükəsizlik avadanlıqlarının təmin edilməsi vacibdir. Kompüter təminatının genişləndirilməsi və məktəblərin fərdi kompüterlərlə təchiz olunması tədrisin keyfiyyətinə birbaşa təsir edən əsas faktorlardandır. Bununla yanaşı, regionlarda internet və elektrik infrastrukturunun yaxşılaşdırılması praktiki dərslərin davamlı keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Həmçinin müəllimlərin praktiki tədris üzrə müasir təlimlərə cəlb edilməsi, avadanlıqlardan səmərəli istifadə bacarığının artırılması da vacib məsələlərdəndir.

Elm və Təhsil Nazirliyinin statistikası göstərir ki, son 5 ildə məktəblərə 36 min kompüterin verilməsi, şagirdlərin fərdi rəqəmsal resurslara çıxış imkanlarını genişləndirən ən vacib addımlardan biri olub.

Bununla paralel olaraq ölkə üzrə 420-dən çox məktəb əsaslı şəkildə yenidən qurulub, təhsil infrastrukturu tamamilə müasir standartlara uyğunlaşdırılıb. İnfrastrukturun təkmilləşməsi isə tədrisin mahiyyətinin dəyişməsi baxımından mühüm rol oynayır. Yeni məktəb binalarında laboratoriyalar, fənn kabinetləri, müasir texniki avadanlıqlar və təhlükəsizlik standartları təhsilin keyfiyyətini birbaşa yüksəldən əsas elementlərdir.



Xüsusilə, orta məktəblərin internet təminatı 78 faizə çatdırılıb. İnternetin əlçatanlığı rəqəmsal təhsil, onlayn resursların istifadəsi, elektron platformaların tətbiqi və distant təlim imkanlarının genişlənməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu tendensiya həm də region məktəbləri ilə paytaxt məktəbləri arasındakı fərqin tədricən azalmasına şərait yaradır.

Bundan əlavə, 2025–2026-cı tədris ili üçün artıq 40 minə yaxın kompüterin şagirdlərə paylanması ilə proses daha da sürətlənib. İl sonuna qədər əlavə kompüterlərin də verilməsi planlaşdırılır və bu, şagirdlərin kompüter təminatını ölkə üzrə daha yüksək səviyyəyə çatdıracaq.

Son 3 ildə ölkədə geniş tətbiq olunan "Rəqəmsal bacarıqlar" layihəsi bu siyasətin ən vacib komponentlərindəndir. Əgər ötən il bu layihədə 516 min şagird iştirak etmişdisə, bu il artıq 565 min şagird prosesə cəlb olunacaq. Layihə şagirdlərdə məntiqi təfəkkür, yaradıcı düşüncə, problem həlletmə bacarıqları kimi müasir kompetensiyaları formalaşdırmağa yönəlib. Bu, gələcək peşə seçimində STEM sahələrinə marağı artırmaq, startap və innovasiya mədəniyyətinin formalaşmasına zəmin yaratmaq baxımından da əhəmiyyətlidir. 2019-cu ildən tətbiq olunan layihənin coğrafiyasının daha da genişlənməsi və iştirak edən məktəblərin sayının artması onun kütləvi və davamlı platformaya çevrildiyini göstərir.

Ümumilikdə, təqdim olunan rəqəmlər göstərir ki, Təhsil Nazirliyi son 5 ildə infrastruktur, sosial təminat, rəqəmsal imkanlar və motivasiya mexanizmlərini paralel şəkildə gücləndirməklə təhsil sistemində yeni mərhələ formalaşdırıb. Doğrudur, orta məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi üçün infrastrukturun yenilənməsi, kompüter təminatının artırılması və laboratoriyaların qurulması vacib şərtlərdəndir.

Bəs, son texnologiyalarla təchiz olunmuş təhsil müəssisələrində müasir avadanlıqlardan səmərəli istifadə edilirmi? Təəssüf ki, xeyir. Bir çox məktəbdə laboratoriyalar qurulsa da, fizika və kimya dərslərində eksperimentlərin keçirilməməsi artıq illərdir davam edən problemdir. Bu laboratoriyalar bir növ "göstəriş üçün" qurulub: şkaflar, cihazlar, təhlükəsizlik vasitələri var, lakin şagird bu kabinetə adətən imtahan öncəsi baxış və ya sadəcə müəllimin etdiklərini izləmək üçün daxil olur.

İnformatika dərslərində də mənzərə oxşardır. Kompüter təminatının yaxşılaşdırılmasına baxmayaraq, bəzi müəllimlərin dərsi hələ də lövhədə kod nümunəsi göstərməklə və ya proqramları sadəcə izah etməklə aparması, praktiki işləməyə kifayət qədər vaxt ayırmaması nəticədə şagirdin real bacarıqlar qazanmamasına gətirib çıxarır. Müəllimlərin nəzəriyyəni üstün tutması məsələsi də çoxqatlıdır, çünki bu, onun özünün laboratoriya işlərini aparmaq və ya komputerdə işləmək bacarığının məhdudluğu ilə əlaqədar ola bilər. Yaşlı müəllim təhsil aldığı dövrdə praktiki dərslər aparılmadığı üçün onun özündə də bu vərdiş formalaşmayıb.

Daha bir diqqətçəkən məqam isə şagirdlərin rəqəmsal mühitdə davranış formasıdır. Müasir şagird texnoloji baxımdan yetərincə çevikdir. O, sosial şəbəkələrdə sərbəst hərəkət edə, internetdə məlumat axtara bilir. Lakin təhsil prosesində bu qabiliyyətindən istifadə etmir. Bu baxımdan, məktəblərdə fənn kabinələrinin, laborotoriyaların yaradılması problemin həlli deyil, onlardan daha səmərəli istifadəni təmin etmək əsas şərtdir.



**Bu barədə təhsil eksperti Elçin Əfəndi qeyd edir ki, biz kimya, fizika və informatika dərslərini məktəblərdə səmərəli şəkildə tədris etməyi qarşıya məqsəd qoyuruqsa, təkcə nəzəri biliklərlə kifayətlənə bilmərik, bu, mümkün deyil.** Bu istiqamətdə şagirdlərə həm də praktiki bacarıqların aşılanması vacibdir. Yalnız nəzəriyyə ilə praktik tətbiqin paralel aparıldığı halda real effektivlik əldə oluna bilər.

Şagirdlərin rəqəmsal savadlılığının artırılması baxımından da eyni yanaşma keçərlidir: nəzəri biliklər qədər praktiki məşğələlər də zəruridir. Hazırda paytaxt məktəblərində fərdi kompüterlərlə təminat nisbətən yaxşıdır. Lakin bölgələrdə bu sahədə müəyyən çatışmazlıqlar hələ də qalmaqdadır. Ümid edirik ki, qarşıdakı illərdə regionlarındakı məktəblərin də kompüterlərlə təminatı, laboratoriyaların yaradılması və internetə çıxış tam şəkildə həll ediləcək. Bundan sonra informatika üzrə praktiki vərdişlərin, laboratoriyada çalışma bacarıqlarının şagirdlərə daha effektiv ötürülməsi mümkün olacaq.

Mövcud problemlərin əsasını isə maliyyə çatışmazlığı, eləcə də infrastrukturla bağlı məsələlər təşkil edir. Xüsusən, internet təminatının yaxşılaşdırılması, stabil elektrik təchizatı və digər əlaqəli xidmətlərin dayanıqlılığı məktəblərin ümumi vəziyyətinə təsir edən amillərdir. Bu problemlər birdən-birə həll olunmasa da, mərhələli şəkildə aradan qaldırılması istiqamətində addımlar atılır.

Dünya təcrübəsi ilə müqayisədə inkişaf etmiş ölkələrdə orta məktəblərin texniki təchizatı daha yüksək səviyyədədir. Azərbaycanda isə bu istiqamətdə işlər zamanla irəliləyir və mövcud boşluqlar tədricən aradan qaldırılır. Şagirdlərin gələcəkdə texniki və ya mühəndislik ixtisaslarına marağının artırılması məsələsinə gəldikdə, qeyd etmək lazımdır ki, artıq elə bir dövrdə yaşayırıq ki, informasiya texnologiyaları hər gün inkişaf edir, yeni texnoloji alətlər ortaya çıxır. Bir neçə ildən sonra bu texnologiyalara tələbat daha da artacaq və nəticədə bu sahədə kadr ehtiyacı da yüksələcək.

Həm Elm və Təhsil Nazirliyi, həm də aidiyyəti dövlət qurumları şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı istiqamətində müxtəlif tədbirlər həyata keçirir. Festivallar, yarışmalar, təlim proqramları təşkil olunur. Paralel olaraq, məktəblərin fərdi kompüterlərlə təminatı istiqamətində işlər görülür.

Digər qurumların da üzərinə düşən mühüm vəzifələr var. Hesab edirəm ki, yaxın illərdə məktəblərdə internet təminatının yaxşılaşdırılması, elektrik təchizatının dayanıqlı hala gətirilməsi kimi məsələlər də mərhələli şəkildə həll ediləcək.

***Ləman TƏHMƏZ***
***XQ***

# Anar Ələkbərov Xalq şairi ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Xalq şairi Ramiz Rövşənin evində qonaq olub. Anar Ələkbərov bu barədə sosial şəbəkə hesabında paylaşım edib:**

"Dəyərli Xalq şairimiz Ramiz Rövşəni ad günü münasibətilə şəxsən təbrik etmək, mədəniyyətimizin bir hissəsinə çevrilmiş bu insanın qonağı olmaq çox xoş idi. Ramiz Rövşən Azərbaycan ədəbiyyatının və poeziyasının inkişafına böyük töhfə verib, onun yaradıcılığını müxtəlif nəsillər tanıyır və sevir. Ona möhkəm cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram", – paylaşımda deyilir.

***XQ***



*15 Dekabr Dünya Türk Dili Ailəsi Günü*

# Qardaş xalqların dünyaya açılan mənəvi pəncərəsi

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 15 Dekabr Dünya Türk Dili Ailəsi Günü münasibətilə "Dilin gücü, mədəniyyətin yaddaşı: Türk dünyasında ortaq dəyərlər" mövzusunda I beynəlxalq elmi simpozium keçirilib.**



Məclisi giriş sözü ilə açan Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli elmi simpoziumun Dünya Türk Dili Ailəsi Günündə keçirilməsinin təsadüfi olmadığını deyib. O bildirib ki, UNESCO-nun Səmərqənddə keçirilmiş Baş Konfransında bu əlamətdar günün qeyd olunması ilə bağlı tarixi qərarın qəbul edilməsi türk xalqlarının ortaq mənəvi köklərinin və dəyərlərinin beynəlxalq səviyyədə tanınmasının təsdiqidir. UNESCO-nun bu xoş məramı həm də türkdilli ölkələrin elmi və mədəni təşkilatları, xüsusilə TÜRKSOY və digər qurumlar arasında əməkdaşlığın daha da dərinləşməsinə geniş imkanlar açır.

Direktor müavini Türk dövlətləri arasında əməkdaşlıq və inteqrasiyanın hazırda ən yüksək səviyyədə davam etdiyini söyləyərək, türk dilləri ailəsinin yalnız dilçilik kateqoriyası deyil, ortaq mədəni yaddaşın, tarixi irsin və mənəvi birliyin daşıyıcısı olduğunu qeyd edib.

Mehman Həsənli beynəlxalq tədbirin Türk dünyası ilə əlaqələrin daha da möhkəmləndirilməsinə, yeni ortaq layihələrin formalaşmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra Türkiyənin Qafqaz Universitetinin Əbul Həsən Xorasani Tədqiqat və Tətbiq Mərkəzinin müdiri, dosent Məhəmməd Alparslan Qartal, Uludağ Ətraf Mühit Agentliyinin rəis müavini, professor Məhmət Uca, Özbəkistanın Beynəlxalq Buxara Universietinin rektoru professor Şərif Baratov, Ədəbiyyat İnstitutu Ədəbiyat nəzəriyyəsi şöbəsinin müdiri, professor Tahirə Məmməd və başqaları türk dillərinin inkişaf etdirilməsi, dünyada işləkliyinin yüksəldilməsi, I Türkoloji Qurultayın 100 illiyininə hazırlıq tədbirləri ilə bağlı mülahizələrini söyləyiblər.

Simpozium işini panellərlə davam etdirib. "Türk coğrafiyası ədəbiyyat və mədəniyyətdə: ortaq dəyərlər", "Türk dil tarixi, söz varlığı və ortaq dil məsələləri", "Türk dünyasında söz mədəniyyəti: folklor və ortaq dəyərlər", "Klassik və modern türk ədəbiyyatı: mətnlər, şeir və kimlik", "Tarix, milli dəyərlər və siyasət", "Din, dəyərlər, təhsil və tarixi irs", "Türk ədəbiyyatında qədim dəyərlər" adlı məruzələr dinlənilib, müzakirələr aparılıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

*I Türkoloji Qurultay*

# Özbəkistan nümayəndələri Bakı məclisində

**Azərbaycanda Türkoloji Qurultaya hazırlıq işləri başlayanda Yeni Əlifba Komitəsinin xüsusi diqqət yetirdiyi əsas ölkələrdən biri Türküstan, əsas xalqlardan biri isə özbəklər idi. Bu seçim təsadüfi deyildi. Çünki həmin dövrdə mərkəzi Daşkənd sayılan Türküstan həm Türk dünyasının qədim mədəniyyət qaynağı, həm də elmi və ictimai fikrin inkişaf etdiyi coğrafiya kimi tanınırdı.**



Burada dil, əlifba, maarif və milli kimlik məsələləri ətrafında gedən müzakirələr türk xalqlarının gələcək inkişaf strategiyasına birbaşa təsir edirdi. Bu səbəbdən Türküstanın, xüsusilə də özbəklərin iştirakı qurultayın ümumtürk miqyasında əhəmiyyətini daha da artırırdı.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin yerləşdiyi binanın böyük salonunda keçirilmiş möhtəşəm toplantıda müxtəlif türk xalqlarının nümayəndələri sırasında 9 nəfərdən ibarət özbək nümayəndə heyəti də iştirak etmişdir. Bəzi mənbələrdə bu sayın bəzən 4, bəzən də 11 nəfər olduğu göstərilir. Onlar qurultayda türk xalqlarının birliyi, dilin və mədəniyyətin gələcəyi, eləcə də latın qrafikasına keçid məsələləri ətrafında fikir mübadiləsi aparmış, ortaq elmi və mədəni məqsədlər naminə fədakarlıq göstərmişlər.

Türkoloji Qurultayda Səmərqənddən Rəhim Axundcan oğlu İnoqamov, Abdurrəşid Abducabbarov və Qazi Alim Yunusov, Daşkənddən Məşriq Yunus oğlu İlbək və Şakircan Rəhimi, Fərqanədən Aşıralı Zahiri, Xarəzmdən Bikcan Rəhmanov, Buxaradan isə İsmayıl Sədri iştirak etmişlər. Bundan başqa, Özbəkistandan gəlib Bakıda müəllim işləyən, eyni zamanda "Divani lüğət it-türk" əsərini ilk dəfə dilimizə tərcümə edən özbək türkü Xalid Səid Xocayev də qurultayın fəal iştirakçılarından olmuşdur.

Elmi-mədəni məclisdə özbəklərin çoxsaylı və fəal iştirakı, onların elmi və mədəni potensialının yüksək olması ilə izah edilə bilər. Türk xalqları arasında mədəni, dil və tarixi baxımdan çox qədim əlaqələr mövcud olduğundan, özbəklərlə azərbaycanlılar arasında da qardaşlıq münasibətləri daim qorunub saxlanmışdır. Aralarında Xəzər dənizi kimi böyük bir məsafə olsa da, bu xalqların mənəvi yaxınlığı onları hər zaman bir-birinə bağlamışdır.

Özbəkistan nümayəndə heyətinə göstərilən xüsusi diqqət və ehtiram qurultayın rəsmi açılışında da öz əksini tapmışdır. Təşkilat Komitəsinin sədri Səmədağa Ağamalıoğlu qısa giriş nitqindən sonra ilk sözü Özbəkistan Akademiya Mərkəzinin sədri, hörmətli alim Abdurrəşid Abducabbarova (bəzi təqdimatlarda Əbducabbar Əbducabbarov kimi də göstərilir) vermişdir. O, qurultayda yaradılacaq komissiyaların – rəyasət heyətinin, fəxri rəyasət heyətinin, mandat komissiyasının, redaksiya heyətinin və katibliyin tərkibi barədə nümayəndə heyətləri adından razılaşdırılmış təklifləri özbək dilində elan etmişdir. Bu fakt həm qurultayın beynəlmiləl ruhunu, həm də türk xalqları arasında bərabərhüquqlu elmi əməkdaşlığın möhkəm təməl üzərində qurulduğunu göstərirdi.

Qəbul olunan qərarlara əsasən, Rəhim Axundcan İnoqamov rəyasət heyətinə, Abdurrəşid Abducabbarov mandat komissiyasına, Şakircan Rəhimi isə redaksiya heyətinə üzv seçilmişdir. Onların fəaliyyət istiqamətləri və çıxışları qurultayın təşkilati və elmi baxımdan səmərəli keçməsində mühüm rol oynamışdır.

Qurultay günlərində Özbəkistan və özbəklərlə bağlı yaddaqalan hadisələrindən biri, böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin 500 illik yubileyinin keçirilməsi üçün xüsusi komissiyanın yaradılması idi. Bu qərar qurultayın əhvali-ruhiyyəsinə böyük təsir göstərmiş, türk xalqları arasında mədəni birliyin rəmzinə çevrilmişdi. Əlişir Nəvai yalnız özbək xalqının deyil, bütün türk dünyasının ortaq fəxri kimi dəyərləndirilirdi.

I Türkoloji Qurultayda aparılan müzakirələrdə və səslənən məruzələrdə özbək xalqına, onun dilinə, ədəbiyyatına və mədəniyyətinə böyük ehtiramla yanaşılmışdır. V.V.Bartold, M.F.Köprülüzadə, A.N.Samoyloviç, B.Çobanzadə kimi tanınmış alimlər özbək elminin və mədəniyyətinin türk dünyası üçün əhəmiyyətini xüsusi vurğulamışlar.

Müzakirə edilən məsələlərdən biri də növbəti — II Türkoloji Qurultayın keçirilməsi ilə bağlı idi. Qurultay iştirakçılarının yekdil rəyinə əsasən, ikinci toplantının Türküstanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Səmərqənd şəhərində keçirilməsi təklif olunmuş və bu qərar rəsmi şəkildə qəbul edilmişdi. Bu, təsadüfi deyildi. Çünki Səmərqənd təkcə özbək xalqının deyil, ümumilikdə türk-islam mədəniyyətinin beşiyi sayılır, burada yüzillər boyu alimlər, şairlər və mütəfəkkirlər yetişmişdi. Elə həmin səbəbdən də qurultayın Səmərqənddə keçirilməsi Türk dünyasının elmi birliyinin rəmzi kimi nəzərdə tutulurdu.

Əslində, həmin dövrdə Səmərqənddə qurultay keçirmək üçün həm siyasi, həm də elmi baxımdan münasib şərait mövcud idi. 1920-ci illərin ortalarında Özbəkistan Elmlər Akademiyası və müxtəlif maarif təşkilatları türk xalqlarının elmi-mədəni inteqrasiyasına böyük diqqət yetirir, türk dillərinin ortaq prinsiplərlə öyrənilməsi istiqamətində ciddi addımlar atırdılar. Səmərqənddə fəaliyyət göstərən alimlər və ziyalılar – Abdurrəşid Abducabbarov, Rəhim Axundcan İnoqamov, Şakircan Rəhimi və başqaları bu ideyanın həyata keçirilməsi üçün böyük həvəslə çalışırdılar.

Lakin 1920-ci illərin sonlarından etibarən Sovet İttifaqında siyasi mühit kəskin şəkildə dəyişdi. Mərkəzi hakimiyyətin ideoloji nəzarəti gücləndi, milli elmi təşəbbüslərə, xüsusilə də türk xalqlarının mədəni yaxınlaşmasını təşviq edən hər cür fəaliyyətə şübhə ilə baxılırdı. Türkoloji Qurultayın Səmərqənddə keçirilməsi ideyası da bu yeni siyasi ab-havanın təsiri altında ləğv edildi. Rəsmi şəkildə heç bir qadağa sənədləşdirilməsə də, faktiki olaraq, Sovet rəhbərliyi belə bir toplantının "pantürkist" meyilləri gücləndirəcəyindən ehtiyat edirdi.

Akademik Nizami Cəfərovun qeyd etdiyi kimi, II Türkoloji Qurultayın baş tutmaması təkcə elmi deyil, həm də tarixi baxımdan böyük bir itki olmuşdur. Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni və elmi birliyinin təməlini qoyduğu kimi, onun davamı kimi nəzərdə tutulan II Qurultay da bu birliyin siyasi səbəblərlə qarşısı alınmış bir simvoluna çevrildi. Latın əlifbasına keçid məsələsi elmi müstəvidə öz həllini tapsa da, türk xalqlarının birgə elmi gələcəyi üçün nəzərdə tutulan bu böyük təşəbbüs – Səmərqənd Qurultayı – reallaşmadı və bu günə qədər tarixçilər və türkologiya tədqiqatçıları üçün açılmamış bir sirr olaraq qalmaqdadır.

I Türkoloji Qurultayda Özbəkistan nümayəndələrinin iştirakı həm elmi-intellektual mühit, həm də siyasi-mədəni mənada xüsusi bir məna daşıyırdı. Bu iştirak, təkcə özbək alimlərinin fərdi fikirləri və elmi töhfələri ilə məhdudlaşmır, bütövlükdə türk xalqlarının ortaq kimlik, dil və mədəniyyət məsələlərinə verdiyi strateji əhəmiyyəti nümayiş etdirirdi.

Özbək alimləri qurultayda yalnız müşahidəçi olmamış, müzakirələrin fəal iştirakçılarına çevrilmişdilər. Onların dil islahatı, əlifba dəyişikliyi, türkologiyanın elmi prinsiplərinin formalaşdırılması, ortaq ədəbi dil məsələsi və türkologiyanın gələcək inkişaf strategiyası ilə bağlı irəli sürdükləri tezislər qurultayın ümumi intellektual xəttinə yön verən mühüm elementlərdən biri olmuşdur.

Xüsusilə, latın qrafikalı yeni əlifba məsələsində özbək nümayəndələri həm nəzəri, həm də praktik arqumentlərlə çıxış edərək dəyişiklik prosesinin türk xalqları üçün yaratdığı imkanları əsaslandırmış, bu addımın ümumtürk mədəni inteqrasiyasına verəcəyi töhfələri vurğulamışdılar. Onların bu yanaşması qurultayda formalaşan ortaq mövqenin meydana gəlməsinə ciddi təsir göstərmişdir.

Eyni zamanda, Özbəkistan nümayəndələrinin Bakı məclisində iştirakı siyasi yöndə də mühüm addım olmuşdu. Çünki 1920–1930-cu illərin mürəkkəb geosiyasi şəraitində müxtəlif türk respublikalarından olan alimlərin eyni masa arxasında toplaşaraq ortaq gələcək haqqında müzakirə aparması milli-mədəni həmrəyliyin nümunəsi kimi qiymətləndirilirdi. Bu birlik, sovet məkanında türk xalqlarının intellektual cəbhədən bir-birinə dəstək verdiyini göstərən ən parlaq hadisələrdən biri olmuşdur.

Özbəkistan nümayəndələrinin I Türkoloji Qurultaydakı fəaliyyəti yalnız bir elmi tədbirin uğurlu təşkili deyil, həm də XX əsrin əvvəllərində türk xalqlarının elmi, mədəni və ideoloji baxımdan bir araya gəlmək potensialını parlaq şəkildə nümayiş etdirmişdir. Bu iştirak, Türkoloji Qurultayın tarixində özünəməxsus iz qoyan faktorlardan biri kimi bu gün də xüsusi dəyərlə xatırlanır.

Təəssüf ki, 1926-cı il Türkoloji Qurultayında iştirak etmiş özbək ziyalılarının sonrakı həyatı faciə ilə nəticələnmişdir. Elm və mədəniyyətin inkişafı uğrunda çalışan bu maarifpərvər şəxslər 1937–1938-ci illərdə Stalin repressiyalarının qurbanına çevrilmişlər. Onlar "pantürkist" və ya "xalq düşməni" damğası ilə ittiham olunaraq güllələnmiş, Uzaq Sibirə və Mərkəzi Asiyanın kimsəsiz bölgələrinə sürgün edilmişdir. Ailələri də bu repressiyanın ağrısını yaşamış, bir çoxları illərlə həbs düşərgələrində qalmış və məhv olmuşlar. Bu, divantutma təkcə insan talelərinin faciəsi deyil, həm də türkoloji elmin və ümumilikdə türk xalqlarının intellektual inkişafına vurulan ən ağır zərbələrdən biri kimi tarixə düşmüşdür.

***Namiq ƏHMƏDOV***
***XQ***

*Xatirələrdə yaşayanlar*

# Sağlığında qiymətini almış şair

**Bu günlərdə Xalq şairi, Əməkdar incəsənət xadimi Cabir Novruzun xatirəsi ehtiramla anıldı. O, bu dünyanın əlifbasının, ilk nəğmənin məhəbbət olduğunu poetik dillə ifadə etmiş, oxucularını da buna inandıra bilmişdi. Onun üçün dünya özü boyda sevgi yuvası idi:**



***O bu boyda bir cahanı yaradıb,***
***Yeri, göyü, asimanı yaradıb.***
***İnsan onu, o insanı yaradıb.***
***Bu həyatın əlifbası məhəbbət.***
***Həm var olan, həm yox olan məhəbbət...***

Bəlkə də poeziyamızda məhəbbətin belə aydın və yığcam "düsturunu" verən ikinci şeir olmayıb. Həmin misralar illərdir ki, şirin nəğmə kimi ürəklərə nur çiləyir.

Cabir Novruz (12 mart 1933–12 dekabr 2002) poeziyası, məhəbbət və səmimiyyətlə yoğrulub. Bu, şairin ilham pərisinin daim işıqlı ideallarla yaşaması, poeziyasının, şəxsiyyətinin bütövlüyü, təbiiliyi ilə bağlıdır. Müasir dövrdə cəmiyyətimizin belə abırlı yazarlara çox ehtiyacı var. Çünki Cabir Novruz sözləri ilə əməlləri vəhdət təşkil eden bir şəxsiyyət idi.

Onun poeziyası təbii duyğu – düşüncələrdən qaynaqlanıb. Filologiya elmləri doktoru Vaqif Yusifli "Unudulmayan Cabir Novruz" adlı məqaləsində bu barədə belə yazır: " Cabir Novruzun bütün yaradıcılığında - hər kiçik şeirində və hər böyük poemasında təbiilik ən müqəddəs bir duyğu kimi vəsf olunur. Onun poeziyasında yaxşılıq, pislik, mərdlik, qəhrəmanlıq, gənclik, qocalıq, zəriflik anlayışları da məhz təbiilik prizmasından baxılıb qiymətləndirilir".

Şair şeirlərinin birində yazır ki, "nə qədər ki, yaşayıram bu cahanda, fərq olmayıb, olmayacaq işlərimlə sözlərimin arasında"...

Cabir Novruzun şeirlərində dünyanın, insanlığın bu günü, sabahı üçün daim narahat və həssas şair ürəyi döyünür:

***Dünyada nə olsa - ürəyimdədir,***
***Bir insan sevinsə, bir gül açılsa,***
***Bir ömür məhv olsa, bir ev uçulsa,***
***Bir güllə açılsa - ürəyimdədir.***

Şairin poeziyası ədalətə, haqqa, saflığa çağırış ruhludur. O, insanı, onun arzularını, xeyirxah əməllərini daim uca tutur və hər kəsə sağlığında qiymət verilməsini istəyir:

***Bir arzum var, ey adamlar, qoyun deyim.***
***Sağlığında qiymət verin insanlara.***
***Yaxşılara sağlığında yaxşı deyin,***
***Sağ olanda yaman deyin yamanlara...***

Şair diri üçün iynə boyda yaxşılığı, ölü üçün qoyulan min heykələ dəyişmədiyini bildirir.

Xalq şairi yaradıcılığının bütün dövrlərində Vətənin keşiyində kəsərli qələmi ilə dayanan mübariz bir əsgər idi. Azərbaycanın Qarabağ dərdinə həsr etdiyi "İxtiyarım olsa idi..." poeması və silsilə şeirləri çox təsirli, ağrılıdır. "Özünü qoru, xalqım" şeiri bir qədər kədər notları üzərində köklənsə də, xalqı bir olmağa, işğal olunmuş torpaqlarımızı azad etməyə səsləyir:

***Müqəddəs, ulu xalqım***
***Gözümün nuru, xalqım.***
***Ən dəhşətli zamandır,***
***Özünü qoru, xalqım!***

Bu o zamanlar idi ki, haqq səsimizi dünya eşitmək istəmirdi. Bu o çağlar idi ki, Azərbaycanın başı üzərindən qara buludlar dağılmaq bilmirdi, hər gün qan-qada ilə üzləşirdik. Vətənin dərdləri onun sinəsində bir düyünə çevrilmişdi. Həssas, kövrək şairin ürəyi ağrılara dözmədi, 69 yaşında dünyasını dəyişdi...

Onun qələmindən çıxan misralardan məhəbbət süzülür və ürəklərdə sevgi çələnginə dönüb, dodaqlarda mahnılara çevrilirdi. Elə buna görə də oxucularının çoxu üçün Cabir Novruz zərif duyğular, məhəbbət şairidir. Onun şeirlərində, belə demək olarsa, məhəbbətin hər çaları var – uğursuz ilk sevgi də, ömrün xəzan çağında vədəsiz gələn, gecikmiş, üzücü məhəbbət də:

***Sən elə bir vaxtda rast gəldin mənə,***
***Qurumuş budağam, bulanmış suyam...***
***Sən elə bir vaxtda rast gəldin mənə,***
***Oxunmuş nəğməyəm, çalınmış toyam.***
***Nə deyə bildim ki, ürəksən mənə,***
***Nə deyə bildim ki, ürək deyilsən...***
***Nə deyə bildim ki, gərəksən mənə,***
***Nə deyə bildim ki, gərək deyilsən...***

Şairin şeirlərinə yazılmış çoxsaylı mahnılar uzun illərdir ki, dillər əzbəridir. "Ey həyat, sən nə qəribəsən", "Tələbəlik illəri", "Məhəbbət"", "Bakının qızları", "Mənim duyğularım", "Cavanlığım", "Bulaq suyu, dağ havası", "Dünya düzələn deyil", "Böyüməyə tələsmə", "Bu necə sevgidir", "Səsim səsinə öyrəşib", "Ömür keçir" və sair. Bu bəstələr musiqisevərlər tərəfindən bu gün də böyük rəğbət və sevinclə qarşılanır.

O, uzaq bir dağ kəndində, kasıb ailədə dünyaya göz açmışdı. Lakin istedadı və çalışqanlığı ilə həyatda layiqli mövqe tutmuşdu. Əvvəlcə Pedaqoji Texnikumda oxumuş, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini, sonra Moskvada Qorki adına Ümumittifaq Ədəbiyyat İnstitutunu bitirmişdi. Əmək fəaliyyətinə 1958-ci ildə "Bakı" qəzetində ədəbi işçi kimi başlamış, "Ulduz" dərgisinin, "Azərbaycan" ədəbi-bədii jurnalının, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdı. O, 1970-1997-ci illərdə isə Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdu. Əsərləri müxtəlif xalqların dillərinə tərcümə edilib və nəşr olunub. Dünya poeziyasının bir sıra qiymətli nümunələri onun tərcüməsində oxucularımıza çatdırılıb.

Cabir Novruz çox sevilən şair idi. Onun çıxış edəcəyi salonlar daim dolu olardı...

Sonda onu da deyək ki, şairin oğlu Müşfiqlə bir neçə il eyni redaksiyada çalışmışdıq. Cavan, atasına layiq, səmimi bir oğul idi. O vaxt Cabir müəllimlə bir neçə dəfə telefon söhbətimiz olmuşdu... Təəssüf ki, Müşfiq də böyük qardaşları kimi çox tez dünyasını dəyişdi.

Bu qeydləri böyük şairimiz Cabir Novruzun illər əvvəl mənə bağışladığı kitabı təkrar oxuduqdan sonra, vəfa borcu kimi yazdım.

**Ruhları şad olsun!**

***Səməd MƏLİKZADƏ,***
***yazıçı-publisist***

# Sumqayıtın "İçərişəhər"i



**Azərbaycanın qədim məskənlərindən olan Coratın səsi-sorağı eramızın IV–VII əsrlərindən gəlir. Bura Xəzərin sahilində narın qızılqumları, böyük karvansaraları, barlı bağları ilə tanınan bir məkandır. Abşeron yarımadasını şimaldan gələn quldur gəmilərinin basqınlarından qorumaq üçün XII əsrdə ucaldılmış müdafiə sədləri, qala və qəsrlər arasında Corat qalasının da adı çəkilir. "Cürət qalası" kimi tarixə düşən bu abidənin Simu və ya Simurq adlı bir qəhrəman tərəfindən qorunduğuna dair rəvayət də var.**

XII-XIV əsrlərin görkəmli dövlət xadimi, tarixçisi Fəzlullah Rəşidəddin "Camiyyəti təvarix" əsərində xatırlanan türk–monqol etnonimləri sırasında Corat qəbilə adını da çəkib ki, bu da Azərbaycan ərazisindəki Corat yer adında öz izini saxlayır. Əlavə edək ki, hazırda dünyada yüzdən çox "Corat" deyilən yer, qəsəbə, insan, hərəkat və s. bildirən ad var. Məsələn, Tailandda Corat qəsəbəsi mövcuddur.

Coratın köhnə bağ yerləri – "Çalour", "Dəhnə", "Hacıdərə", "Astanbəy", "Möməli yeri", "Həbib bağı" yaşlı sakinlər tərəfindən xatırlanmaqdadır. Deyilənə görə, "Dadaş bağı" İosif Stalinin inqilabi fəaliyyəti dövründə müvəqqəti daldalandığı yer imiş. Coratlıların bostan yerləri əsasən indiki Hacı Zeynalabdin qəsəbəsinin ərazisində, dəniz qırağında olub. "Təsdim", "Qurd dərəsi", "Dovşan yatağı", "Sarıqaya" yerləri indi də el arasında olduğu kimi adlandırılır. Tarixi adlar mədəni irsi öyrənmək üçün dəyərli tutarqadır.

Corat ərazi cəhətdən Abşeronun ən iri kəndlərindən olub və Böyük İpək Yolunun üstündə yerləşib. Camaat bu yola Karvan yolu, El yolu da deyib. Coratda 7 karvansara fəaliyyət göstərib.

Tarixin "üz qırışları"nı xatırladan kənddə çoxlu qədim abidələr vardı. Cümə,



Gülxatun, Hacı Kiçikbəy, Hacı Hümbət məscidləri, pir və ocaqlar, qalalar, 14-cü əsrə aid hamam, ehsanlıq su quyuları... Təəssüf ki, əksəriyyəti artıq yoxdur. Okean səviyyəsindən 28 metr aşağıda yerləşən Coratın evləri, abidələri ötənlərdə dəfələrlə dəniz sularının altında qalıb. 16-cı əsrə aid Şah Abbas karvansarasının müəyyən qalıqları hifz olunur.

Coratda inşa edilmiş dörd məsciddən ikisi bu günümüzə gəlib çıxmış, digər ikisi 1937-ci ildə dağıdılmışdır. Sakinlər arasında qadın məscidi kimi tanınan məscidlərdən biri Hacı Kiçikbəyin adı ilə bağlıdır. Bu və Hacı Hümbət məscidi kimi tanınan ibadət evi 30-cu illərin "qurbanı"na çevrilmişdir. Cümə və Gülxatun məscidlərinin özünəməxsus memarlığı var. 18-ci əsrdə Hacı Əli adlı bir şəxsin inşa etdiyi Cümə məscidi 2004-cü ildə əsaslı təmir olunduqdan sonra bu gün Coratın gözəl memarlıq nümunəsi kimi göz oxşayır.

Qəsəbədə yerləşən Hacı Məcid hamamı isə XVI əsrin memarlıq nümunəsidir. Kükürdlü suyu ilə məşhur olan hamam hazırda yeraltı abidə kimi qorunub saxlanılır. Corat sakini Hacı Əmrulla bəyin sifarişi ilə tikilən 2-ci hamamın tarixi isə XVII əsrdən hesablanır. Günbəzşəkilli olan bu hamam da dövlət tərəfindən mühafizə edilir.

Bu sətirlərin müəllifinin valideynlərinin də uyuduğu Köhnə Corat məzarlığındakı sərdabələr, daş kitabələr, sənduqələr, pirlər, qəbirüstü yazılar uzaq keçmişdən soraq verir. Vaxtilə buradakı daş kitabələrdən biri Sankt-Peterburqdakı Ermitaj muzeyinə aparılıb. Başqa bir kitabə isə Bakıya, Qız qalasının yanındakı daş "qardaş"larının yanına qoyularaq əcnəbi turistlərə nümayiş etdirilib.

Coratda fiziki cəhətdən əngəlli adamların, sonsuz qadınların pənah apardığı Lələ pirinin kəramətinə dair rəvayətlər hələ də dillərdə dolaşır. 1918-ci ildə burada həyatını itirmiş türk əsgərinin məzarı Corat ziyarətgahları arasındadır. Burada Şıx ocağına, Seyyid Mirəziz Baba, Balıqçı Şıx Ağa, Şıx Kamil, Şıx Ağami ocaqlarına ehtiram böyükdür.

Coratı obrazlı şəkildə Sumqayıtın "İçərişəhər"i də adlandırırlar. Bu qəsəbə ötən əsrdə bir neçə dəfə sökülmək və ləğv olunmaq təhlükəsi ilə üzləşib. Qədim qəsəbəni şəhərə qatmaq istəyən "novator" məmurlar burada yeni mikrorayon salmaq eşqinə düşüblər. Amma hər dəfəsində vətənpərvər ziyalılar etiraz səslərini ucaldaraq buna yol verməyiblər. Bir vaxtlar Sumqayıt Şəhər Partiya Komitəsinin 1-ci katibi işləmiş Kamran Hüseynov, şəhər icraiyyə komitəsinin sədri olmuş Kamal Axundov, eləcə də qəsəbə sovetinin keçmiş sədri İsgəndər Qasımovun dirənişi sayəsində nadan memarların yanlış planı reallaşmayıb.

Qədim qəsəbə bu gün də böyüyür və gözəlləşir. Tarixi cizgiləri də yüksək etina ilə qorunub saxlanır.

***Ə.NƏCƏFXANLI***
***XQ***

# Horadiz – Qarabağın Stalinqradı

**Füzuli rayonu ərazisində – Araz çayının sahilində qərar tutan Horadizin adı gələndə öncə Azərbaycan hərb tarixinin 1994-cü ilin əvvəlində yazılmış şöhrət səhifəsi yada düşür. Oykonim kimi "oura" və "dizə" sözlərindən ibarət olub, "qala kənd" mənasına gələn Horadizin – bu tarixi qalanın o zaman ermənilərdən geri alınması böyük Zəfərimizə aparan yola işıq salıb.**



Birinci Qarabağ müharibəsi zamanı – 1993-cü ilin yazında Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu, professor Tağı Xalisbəyli, bu yaxınlarda dünyasını dəyişmiş şair Əlisəmid Kür, Tofiq Qaraqaya ilə mən və televiziya çəkiliş qrupumuz şəhərə yaxın Məngələn Ata yüksəkliyinin yenicə alındığı rayona səfər etmişdik. Bütün çətinliklərə baxmayaraq, Füzuli qorunur, özünümüdafiə dəstələri və camaat geri durmaq istəmirdi. Qacar kəndinin yandırılmış evlərinin tüstüsü göyə ucalırdı...

Onda biz Horadiz stansiyasına da getdik, dağıdılmış kəndin sakinləri ilə görüşüb ürək-dirək verdik. Amma "qaya kölgəsi"ndə yatan ermənilər oktyabr ayında oranı işğal etdilər. Bu isə cəmi 73 gün çəkdi. Ulu öndərin tapşırığı ilə Milli Ordumuzun reallaşdırdığı əks-hücum nəticəsində Füzulinin 22 yaşayış məntəqəsi və Qarabağın Stalinqradı olmuş Horadiz azad edildi. Xeyli itki verən düşmən atəşkəs müqaviləsi imzalamağa məcbur oldu. Məşhur Horadiz döyüşləri Füzuli rayonunun işğaldan azad edilmiş hissəsinə "Kiçik Qayıdış"ı təmin edən uğurlu əməliyyat kimi tarixə düşdü. Bu, ozamankı Azərbaycan dövləti və xalqımız üçün çox çətin bir dövrdə əldə edilmiş ilk hərbi və siyasi qələbə olmaqla milli ruh dirçəlişinin başlanğıcı sayılır.

Prezident İlham Əliyevin 23 oktyabr 2007-ci il tarixli sərəncamı ilə Horadiz qəsəbəsinə şəhər statusu verilib. Burada yandırılmış və dağıdılmış yüzlərlə ev bərpa olunub, qaz, elektrik xətləri çəkilib, digər mühüm infrastruktur layihələri yerinə yetirilib. Yenidən qurularaq genişlənən Horadiz Füzulinin işıqlı "peyk" şəhərinə dönüb.

Dövlət başçısı 2021-ci ilin oktyabrında azad Füzulidə rayon ictimaiyyəti nümayəndələri ilə görüşündə bu barədə deyib: "İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra olundu".

Horadizdə əhali sayı 8 minə qədərdir. Burada XIX əsrdə tikilmiş məscid, müxtəlif dövlət və qeyri–dövlət müəssisələri, digər əhəmiyyətli obyektlər yerləşir. Şəhərdə 3 tam orta məktəb, 2 uşaq bağçası, 2 kitabxana, 2 muzey, H.Əliyev Mərkəzi, şahmat və musiqi məktəbləri, Gənclər evi, Olimpiya idman kompleksi, stadion, rəsm qalereyası, xəstəxana, poliklinika, bank, bazar, hotel, şadlıq sarayları, istirahət parkları, abidə kompleksləri, dəmiryol vağzalı və avtovağzal, Bayraq muzeyi və meydanı, çörək və xalça kombinatları var.

Yollar bu gözəl diyarı daha parlaq sabahlara aparır. Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolu Hacıqabul–Horadiz–Ağbənd–Zəngəzur dəhlizi magistralının bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək. Uzunluğu 124 kilometrdir. Əhmədbəyli–Füzuli–Şuşa, Şükürbəyli–Cəbrayıl–Hadrut və Xudafərin–Qubadlı–Laçın avtomobil yolları da başlanğıcını məhz bu yoldan götürür.

Horadiz–Ağbənd dəmir yolu beynəlxalq nəqliyyat dəhlizləri üzərində tikilir. Artıq Bərdə–Ağdam xətti üzrə işlər tamamlanıb, vağzal kompleksi istifadəyə verilib. Horadiz–Ağbənd xəttində isə 2-ci mərhələ üzrə işlər sona yetməkdədir. Hazırda son 25 kilometrdə süni qurğuların tikintisi davam etdirilir. Yaxın aylarda Ağbəndə qədər bütün işlər yekunlaşacaq.

Arazboyu şəhər neçə illərdir ki, xoşbəxt günlərini yaşayır. Sakinlər buna görə özlərini məhz şəhid ruhlarına borclu sayırlar. Tarixi Zəfərin 5-ci ildönümü ərəfəsində şəhərdəki "Qəhrəmanlar parkı" elliklə ziyarət olunub. Abidə kompleksləri və şəhid şəkillərindən ibarət lövhələr ziyarət edilib, abidə önünə tər çiçəklər düzülüb. Bir neçə gün əvvəl şəhərdəki Mahir Səfərov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində "Konstitusiya və Suverenlik İli" ilə bağlı keçirilən maarifləndirici tədbirdə şagirdlərə Azərbaycan Konstitusiyasının əhəmiyyəti, dövlət suverenliyinin qorunması və milli dəyərlərimizin möhkəmləndirilməsi haqqında ətraflı məlumat verilib.

Məktəblilər dövlətimizin müstəqillik tarixi barədə fikirlərini fərəhlə bölüşüblər. Bir neçə gün əvvəl isə şəhərin Gənclər prospektində "Konstitusiya və Suverenlik İli" çərçivəsində ağacəkmə aksiyası keçirilib, 15 hektar ərazidə 100-ə qədər Eldar şamı, sərv, heyva və gavalı ağacı əkilib.

Horadiz Bələdiyyəsinin sədri Tural Nəbiyev ictimai həyatda fəallıq göstərən bu kollegial özünüidarə orqanı barədə söhbətində bildirdi ki, hazırda burada sosial məsələlər və şəhərin abadlığı üzrə xeyli iş görülür. Tullantılar yığılaraq daşınır, ərazilər təmizlənir. Rayonumuzun və şəhərimizin inkişafına dövlətin göstərdiyi diqqətdən hədsiz razıyıq.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Arıçı fermer*

# Zəngilanın da öz balı var

**Bu rayonun ərazisindən axan Araz, Oxçuçay, Bəsitçay və Həkərinin bol suları ilin bütün fəsillərində kənd təsərrüfatını inkişaf etdirməyə zəmin yaradır. Söhbət Zəngilandan gedir. Qarabağ və Şərqi Zəngəzurdakı torpaqlarımız işğaldan azad edildikdən sonra digər ərazilər kimi, burada da geniş quruculuq işləri həyata keçirilib və tarixi ənənəyə uyğun olaraq aqrar sahə yeni inkişaf dövrünə qədəm qoyub. Arıçılıq təsərrüfatları bu gün Zəngilanda daha geniş formada inkişaf edir.**



Rayonda "Qubad həkim" kimi tanınan Qubad Bağırovu hələ 1970-ci illərdən tanıyırdım. O, rayon baytarlıq idarəsinin baş həkimi işləyir, çiçəklərin şəhdini–şirəsini çəkən arılara qulluq edirdi. Qubad həkimin əldə etdiyi bal keyfiyyəti ilə məşhur idi. Rayon işğal ediləndən sonra, köçkünlük dövründə çətinliklə də olsa, ailəsi arıçılıq təsərrüfatını bərpa etdi. 10 ilə yaxın arıları müxtəlif ərazilərdə saxlamalı oldular.

Son illər təsərrüfata böyük oğlu Sərməs rəhbərlik edir. Onun dedikləri:

– Ailəmizin tarixi məşğulluq ənənəsini yaşatmaq üçün bir sıra çətinliklərlə qarşılaşsaq da, fikrimizdən dönmədik, arılarla "həmdərd" olmağa və təsərrüfatı inkişaf etdirməyə başladıq. Ən böyük arzumuz azad olunan yurdumuzda yaşamaq və təsərrüfatı dirçəltmək idi. Şükür, arzumuza çatdıq.

Torpaqlarımız azad edilən kimi birincilər sırasında rayona qayıdan fermer yaratdığı təsərrüfatı inkişaf etdirmək üçün son dərəcə əzmlə çalışır. Bununla bağlı söhbət zamanı o dedi:

– Əvvəllər arıları mövsümlə əlaqədar ayrı-ayrı rayonlarda gəzdirməli olduğumuz üçün çox əziyyət çəkirdik. Demək olar ki, onları aparmadığımız ərazi qalmamışdı. Bu da maliyyə sarıdan böyük çətinlik yaradırdı. İndi isə rayonumuzun iqlim şəraiti imkan verir ki, arı ailələrini bir yerdə saxlayaq, bu zəhmətkeş həşərat "azadlığına qovuşan" çiçəklərdən şipşirin bal çəksin və biz çox keyfiyyətli məhsul ala bilək.

Hazırda 50 arı ailəsinə baxan fermer Sərməs kişi ilə Bakıdan Zəngilana qədər yolyoldaşı olduq və təsərrüfatında xeyli söhbətləşdik. Bildirdi ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə 30 min 601 təsərrüfatda mövcud olan 579 min arı ailəsindən 5 min 166,3 ton bal, 132,1 ton mum, 8,5 ton vərəmum, 16,8 ton güləm və 239,3 kq arı südü əldə olunub. O da bu uğura öz töhfəsini verə bilib.

– Təsərrüfatımız dədə-baba evimizin yaxınlığındakı ərazidədir və təravətli bal istehsalı ilə seçilir. Topladığımız məhsulu satmaqda heç bir çətinliklə qarşılaşmırıq. "Böyük Qayıdış" layihəsi çərçivəsində Zəngilan şəhərində inşa edilən 2 mərtəbəli binada 3 otaqlı mənzillə təmin olunmuşuq. Bu günü səbirsizliklə gözləyirdik. Tezliklə yeni mənzilimizə köçərək əzəli yurdumuzda rahat və təhlükəsiz yaşamaqla, təsərrüfatı daha geniş şəkildə inkişaf etdirə biləcəyik.

Ali təhsilli fermer son günlər Zəngilan Rayon Qoruq İdarəsinə müfəttiş vəzifəsinə təyin olunub. Deyir ki, bu iş də ürəyimcə oldu, "çiçəklərlə danışmaq" və onların cəmiyyətə faydasından yetərincə bəhrələnmək mənə əlavə stimul verir. Çünki Zəngilan balı sağlamlığa fayda, dərdlərə məlhəmdir.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Qərbi Azərbaycan həqiqətləri məktəbdə

**Ucar rayon Boyat kənd tam orta məktəbində Elm və Təhsil Nazirliyinin elan etdiyi "Təhsildə könüllü fəaliyyətin təşkili"' qrant müsabiqəsi çərçivəsində hazırlanan "Tariximizin işığında - Qərbi Azərbaycanın izi ilə" kitabının təqdimatı keçirilib.**

Kitabda ölkə üzrə ümumtəhsil orta məktəblərinin XI sinif şagirdləri, peşə və kollec tələbələri arasında Qərbi Azərbaycan mövzusunda təşkil olunmuş esse müsabiqəsinin qaliblərinin yazıları yer alıb.

Tədbirdə şair-publisist Fəxrəddin Meydanlı kitabın əhəmiyyətindən danışıb, onun ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini bildirib. O, məktəbin müsabiqədə qalib gəlmiş 5 şagirdinə – 2-ci



yerlər üzrə Zeynəb Babayevaya və Xədicə İsraylovaya, 3-cü yerlər üzrə isə Müzəffər Niftəliyevə, Orucəli İsrayılova və Həmid Nəzərova "Dədə Ələsgər Ocağı"nın mukafatlarını təqdim edib.

***XQ***

# Astarada çayçılıq dirçəldilir

**Məlum olduğu kimi, hazırda "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası davam edir. Məqsəd ölkədə quru çaya olan tələbatı yerli məhsul hesabına ödəmək, çay emalı müəssisələrinin xammal təminatını yaxşılaşdırmaq, bu sənayeni inkişaf etdirmək, çay məhsullarının ixracını artırmaq və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün çayçılığın inkişafını stimullaşdırmaqdır. Dövlət Proqramının sayəsində 2027-ci ilədək yaşıl çay yarpağı yığımının 8,5 min tona, əkin sahələrinin 3000 hektara çatdırılması nəzərdə tutulur.**

Cənub bölgəsinin ən böyük çayçılıq rayonlarından biri Astaradır. Hazırda burada 232,1 hektar çay plantasiyası mövcuddur ki, bu da ölkəmizdəki ümumi çay sahələrinin təxminən dörddəbiri qədərdir. Çay istehsalının isə yarıdan çoxu Astaranın payına düşür.

Rayonda cari mövsümün çay yığımı uğurla yekunlaşıb. Sahələrdən 724,6 ton yaşıl çay yarpağı yığılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 57,7 ton və ya 8,7 faiz çoxdur. Ümumi məhsuldarlıq göstəricisi 31,3 sentner təşkil edib. Burada çayçılıqla məşğul olan 4 müəssisə tərəfindən 187,4 ton yaşıl çay yarpağı tədarük olunub. Bu göstərici ötən illə müqayisədə 0,5 faiz azdır. Müəssisələr üzrə məhsuldarlıq isə 9,9 sentner olub.

Çayçılıqda əsas yükü daşıyan əhali təsərrüfatları bu il daha yüksək nəticə əldə ediblər. Belə ki, fərdi təsərrüfatlar tərəfindən 537,2 ton yaşıl çay yarpağı tədarük edilib. Əhali təsərrüfatlarında məhsuldarlıq 127,3 sentner olub.

**Çayçı fermer Novruzəli Əhmədov:**

– Astarada çayçılıq kənd təsərrüfatının ənənəvi və gəlirli sahələrindən hesab olunduğu üçün bu ənənəvi sahənin intensiv inkişafı prioritet məsələ kimi qarşıya qoyulub. Biz qohum-qardaş olaraq hələ 2000-ci ildə Kijəbə qəsəbəsində ailə fermer təsərrüfatı yaratmışıq. Çayçılıq sahəmiz 12 hektardır. Bu, sitrusçuluqdan daha sərfəli sahədir. Cari mövsümdə 150 tona yaxın məhsul yığmışıq. Qazancımız yaxşıdır, dolanacağımız var.

***XQ***



*Araşdırma*

# “Sandıqlarda mürgüləyən” milyardlar...

**(əvvəli 1-ci səhifədə)**

Mərkəzi Bankının sədri, eyni zamanda, “əllərdəki” nağd manatın çox böyük hissəsinin bank sisteminə daxil olmadığını vurğulayaraq, əhalini vəsaitləri evdə saxlamaq əvəzinə banklara, bazara və ya investisiya vasitələrinə yönəltməyə çağırıb: “Bu pulların iqtisadiyyata daxil olması həm bazar üçün, həm də ölkənin maliyyə sabitliyi üçün vacibdir”. Bəs bu narahatlıq nədən qaynaqlanır, əhali niyə böyük maliyyə vəsaitini evdə saxlamağa üstünlük verir, onları banklara və ya kapital bazarlarına yönəltmir?

Bu sualların cavabı ilə bağlı fikirləri diqqətə çatdırmazdan əvvəl Mərkəzi Bankın sədrinin ölkə əhalisinin, təxminən,



10 milyard ABŞ dolları həcmində vəsaiti bank sistemindən kənarda – “yastıq altında” saxlaması ilə bağlı açıqlaması bir daha göstərdi ki, bu, maliyyə məsələsi olmaqla bərabər, həm də dərin sosial-iqtisadi problemdir. Söhbət sadəcə dövriyyədən kənarda qalan puldan həhs etmir, eyni zamanda, iqtisadi artımın mühüm mənbəyinin fəaliyyətsiz vəziyyətdə qalmasından gedir.

Mərkəzi Bank rəhbərinin bu vəsaiti “ölü kapital” adlandırması da iqtisadi baxımdan tam əsaslıdır. Çünki iqtisadiyyatın mühərriki sayılan maliyyə resursları dövriyyədən kənarda qaldıqca, kreditləşmə zəifləyir, investisiya imkanları daralır, iqtisadi artım potensialı məhdudlaşır. Dünya təcrübəsi də göstərir ki, yığımın investisiyaya çevrilməsi mexanizmi iqtisadiyyatın inkişafı üçün əsas prioritetdir. Azərbaycanda əgər bu vəsaitin heç olmasa üçdə biri bank sisteminə cəlb olunsaydı, real sektorda kreditlər ciddi şəkildə arta, kiçik və orta sahibkarlıq üçün maliyyə əlçatanlığı genişlənə, iqtisadi artım tempi isə əlavə 1–1,5 faiz qazana bilərdi.

Lakin gerçəkdə bu ehtiyatlar dövriyyədən kənarda qalaraq iqtisadiyyata xidmət etmir. Bəs başqa ölkələrdə vəziyyət necədir? Sualın cavabı ilə bağlı xatırladaq ki, nağd pulun ÜDM-də payı beynəlxalq statistikaya görə, Avrozonada 7-9 faiz, ABŞ-da, təxminən, 8 faiz, Türkiyədə 10-12 faiz, Gürcüstanda 13-14 faiz civarındadır. Azərbaycanda isə bu rəqəmin 20 faizə yaxınlaşdığı müşahidə olunur. Bu, inkişaf etmiş maliyyə sistemləri ilə müqayisədə ikiqat yüksək göstəricidir.

Əhalinin banklarda saxladığı əmanətlərə gəldikdə, statistikaya əsasən, Almaniyada vətəndaş illik gəlirinin 40-45 faizini banklarda saxlayır, Polşada bu göstərici 30 faizdən yuxarıdır, Estoniyada isə rəqəmsal bankçılıq sayəsində əhalinin 90 faizə yaxını nağd puldan istifadə etmir. Azərbaycanda isə əhalinin mühüm hissəsi bank hesabı olsa belə, real yığımlarını bankdan kənarda saxlamağa üstünlük verir. Respublikamızda belə bir etimadsızlığın səbəbi ekspertlərin fikrincə, uzun bir dövr davam edən bank böhranlarının təsiri ilə bağlıdır. Belə ki, son 20 ildə ölkədə bir neçə bankın ləğv edilməsi, əmanətlərin geri qaytarılmasında gecikmələr və hüquqi mexanizmlərin zəif işləməsi kollektiv maliyyə yaddaşında dərin iz buraxaraq hələ də silinmir.

Dünya Bankının tədqiqatlarına görə, maliyyə böhranı yaşayan ölkələrdə banklara etimadın əvvəlki səviyyəyə qayıtması üçün ən azı 10-15 il vaxt tələb olunur. Azərbaycanda isə bu proses hələ də davam edir. Əmanətlərin sığortalanması isə psixoloji yox, hüquqi təminatdır. Düzdür, formal olaraq əmanətlərin sığortalanması mövcuddur. Lakin vətəndaş üçün bankın bağlanması ilə əlaqədar problem yaranacağı təqdirdə pulunu nə qədər tez və nə qədər asanlıqla geri ala biləcəyi sualına cavab tapa bilməməsidir. Bax, həmin suala tam və birmənalı cavab tapılana qədər “yastıq altı” ehtiyat variant kimi saxlanılır.

Bankda pul saxlanılmasına inflyasiya amili də mənfi təsir göstərir. Yeri gəlmişkən, son illərdə ölkədə inflyasiya göstəricilərinin 8-10 faiz həddində dəyişdiyi, manatla depozit faizlərinin isə orta hesabla 6-7 faiz təşkil etdiyi müşahidə olunur. Bu, bankda pul saxlayan vətəndaşın real gəlirlə yox, real itki ilə üzləşdiyi deməkdir. İnkişaf etmiş ölkələrdə isə depozitlər inflyasiyanı ya üstələyir, ya da dövlət alternativ investisiya vasitələrinə üctünlük verir. Azərbaycanda bu mexanizmlərin kifayət qədər güclənməsinə müəyyən zaman tələb olunur.

Yuxarıdakı fikirlə bağlı ekspertlər bildirirlər ki, həqiqətən, inflyasiya bankda saxlanılan pulun real dəyərini azaldır, çünki 8-10 faiz inflyasiya 6-7 faiz depozit faizindən yuxarıdır. Bu da pulun satınalma qabiliyyətinin ildə, təxminən, 2-3 faiz itirilməsi deməkdir. Buna görə də vətəndaş pulunu daha gəlirli investisiyalara, məsələn, valyuta və daşınmaz əmlaka yönləndirməyə, eləcə də istehlakı artırmağa meyil edir, çünki bank depozitləri isə inflyasiyadan qorunma təklif etmir.

İnflyasiyanın təsirinə gəldikdə isə, məsələn, 1000 manat pul varsa və illik inflyasiya 8 faiz olarsa, ilin sonunda bu pul 920 manatlıq (1000 - 80) real dəyərə düşür, əgər 6 faizlə depozitə qoyularsa, 1060 manat olar. Amma ilin əvvəlindəki 1000 manatın 1080 manatlıq (1000 + 80) gücündəki məhsulu almaq üçün vətəndaşa 1080 manat lazım gəlir, deməli, real olaraq pulun dəyəri azalıb. Bu səbəbdən vətəndaş inflyasiyadan qorunmaq üçün depozit yerinə dollar/avro kimi xarici valyutaya, qızıl, daşınmaz əmlak və ya səhm kimi investisiyalara maraq göstərir.

Bank vəsaitlərinin artmasında kapital bazarı da alternativ rol oynaya bilmir. Fond bazarının zəif olması maliyyə sektorunun ümumi inkişafını ləngidir. Halbuki beynəlxalq təcrübədə fond bazarının ÜDM-ə nisbətinin dinamik artımı daim diqqət çəkir. Məsələn, bu göstərici ABŞ-da 150 faiz, Böyük Britaniyada 120 faiz, Türkiyədə 35-40 faizdir. Azərbaycanda bu rəqəm 10 faizdən də aşağıdır. Bu isə əhali üçün səhm və istiqraz bazarının real seçim kimi formalaşmaması deməkdir.

Yuxarıda sadalananlarla yanaşı, maliyyə savadlılığı problemi də bankda pul saxlanılmasına mənfi təsir edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının qiymətləndirmələrinə görə, maliyyə savadlılığı indeksi inkişaf etmiş ölkələrdə 65-70 bal, Azərbaycanda isə, təxminən, 45-50 bal səviyyəsindədir. Bu fərq investisiya davranışında açıq şəkildə hiss olunur.

Onu da qeyd edək ki, yüksək nağd dövriyyəsinin aparılması, böyük həcmdə vəsaitin bank sistemindən kənarda – “yastıq altında” saxlanılması nəticəsində yaranan “ölü kapital” kölgə iqtisadiyyatını genişləndirir, vergi daxilolmalarını azaldır və pul siyasətinin səmərəliyini zəiflədir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, nağd dövriyyənin yüksək olduğu ölkələrdə kölgə iqtisadiyyatının payı 25-35 faiz aralığında dəyişir. Azərbaycanda da bu risk daim ciddi narahatlıq doğurur.

Bu məsələdə vətəndaşın əski düşüncə ilə “pulun evdə saxlanmasının qorxusu yoxdur” məntiqi başa düşülür. Düzdür, bu düşüncə iqtisadi cəhətdən qeyri-səmərəli olsa da, psixoloji baxımdan təhlükəsiz görünür. Digər tərəfdən, vəsait banka yönəldilsə də belə, depozit faizləri inflyasiyanı üstələyə bilmir. Başqa sözlə, depozit gəlirliyinin aşağı səviyyədə olması inflyasiya həddini keçə bilmir. Bu isə o deməkdir ki, vətəndaş bankda pul saxladıqca real olaraq kasıblaşır. Nəticə etibarilə əhali üçün bankda vəsait saxlamaq nə yüksək gəlir gətirir, nə də inflyasiyadan qoruyur. Belə şəraitdə isə vətəndaşın bank sisteminə maraq göstərməməsi tamamilə rasional davranış kimi qiymətləndirilir.

Bəs çıxış yolları harada axtarılmalıdır? “Yastıq altında”, “sandıqlarda” saxlanılan “ölü kapital”ın “dirilib” önəmli yatırıma çevrilməsi üçün nə etmək lazımdır? Ekspertlərin fikrincə, problemin həllində çağırışa yox, stimullaşdırmaya üstünlük verilməlidir. Banklara olan etimadın bərpası məqsədilə, ilk növbədə, beynəlxalq təcrübəyə əsaslanan layihələr icra olunmalıdır. Əhalini banklara əmanət qoymağa çağırmazdan əvvəl bank nəzarətinin sərtləşdirilməsi, iflas risklərinin minimuma endirilməsi, depozitçilərin hüquqlarının real müdafiəsi önəmlidir. Bütün bunlarla bərabər, yeni maliyyə vasitələrinin tətbiqi də diqqətdə saxlanılmalı, inkişaf etmiş ölkələrdə geniş istifadə olunan pərakəndə dövlət istiqrazları, vergi güzəştli yığım hesabları, uzunmüddətli pensiya-investisiya fondları geniş şəkildə tətbiq olunmalıdır.

Beləliklə, “yastıq altı” pullar problemin nəticəsidir, səbəbini isə yuxarıda sadalanan amillər şərtləndirir. Azərbaycan əhalisinin evdə saxladığı milyardlar iqtisadi düşüncəsizlikdən yox, mövcud maliyyə sisteminin verdiyi siqnallardan qaynaqlanır. İnsanlar risk görmədikləri yerdə pul saxlayırlar. Əgər mövcud maliyyə sistemi banklara etibarın bərpası istiqamətində müəyyən layihələr gerçəkləşdirərsə, real gəlir təklif edə, şəffaf və sadə mexanizmlər yarada bilərsə “yastıq altı” vəsaitlər də təbii ki, iqtisadiyyata “axar”.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Əkrəm HƏSƏNOV,**
**bank-maliyyə eksperti**

Ölkədə “yastıq altında” saxlanılan vəsaitlərin həcmi illərdir artmaqda davam edir və bunun əsas səbəblərindən biri əhalinin banklara inamının tam formalaşmamasıdır. Şübhəsiz ki, bu inamsızlığı sözügedən sektorun bir neçə dəfə, belə demək mümkünsə, sarsılması, çox sayda bankların bağlanması, əmanətlərə beynəlxalq səviyyədə yanaşılmaması və valyuta dəyişikləri aparılmasının insanlarda ehtiyatlılıq yaratması şərtləndirir.

İnsanlar hələ də hesab edir ki, bankda saxlanılan vəsaitin taleyi qeyri-müəyyəndir. Xüsusilə də 2015-ci ildə baş verən devalvasiyadan sonra bu düşüncə daha da dərinləşdi və müəyyən əhali kəsimi üçün riskdən qaçmaq vasitəsi oldu. Bu psixologiya hələ də qalır və insanlar pullarını evdə saxlamağı daha təhlükəsiz hesab edirlər.

Bu pulların iqtisadiyyatdan kənarda qalmasının zərəri çox böyükdür. Çünki həm dövriyyədəki likvidlik azalır, həm də bankların kreditvermə imkanları daralır. Əgər deyilən 10 milyard dollar ölkənin maliyyə sisteminə daxil edilərsə, kredit faizləri ilə bərabər, biznesin genişlənməsi də reallaşar. “Ölü kapital” iqtisadi inkişafı yavaşladan ən əsas amillərdən biridir.

İndiki şəraitdə üzən məzənnəyə keçid məsələsi də bu kontekstdə müzakirə oluna bilər, lakin problemin əsas səbəbi təkcə məzənnə rejimi ilə bağlı deyil. İnsanlarda məzənnə ilə bağlı narahatlıq var, həqiqətdir. Üzən məzənnə uzunmüddətli sabitlik yarada bilər, amma bank sektoruna inam bərpa edilmədən bu məsələ köklü şəkildə həll olunmayacaq.

**Bu günlərdə dünya yeni bir terror hadisəsi silkələndi. Avstraliyanın Sidney şəhərindəki Bondi çimərliyində ağır faciənin baş verdiyi barədə xəbər yayıldı. Faciə çimərlik ərazisində Hanuka bayramı şənlikləri zamanı baş verib. “Euronews” bildirib ki, qəfildən açılan davamlı atəşlər nəticəsində ən azı 16 nəfər həlak olub. Hakimiyyət orqanları hadisəni terror aktı adlandırıb.**

# Sidney qətliamı: ərəb Əhməd əl-Əhmədin xilaskarlığı

Hadisədən dərhal sonra yerli polisin yaydığı məlumatda bildirilib ki, atəş açan terrorçulardan biri öldürülüb. Avstraliya hakimiyyəti bunu “yəhudi icmasını hədəf alan terror hücumu” elan edib.

Məlumata görə, atışma bazar günü yerli vaxtla saat 18:45 radələrində Sidneyin şərq ətrafındakı Bondi çimərliyində baş verib. Hər il keçirilən Hanuka bayramının ilk gecəsini qeyd etmək üçün keçirilən “Dəniz kənarında Hanuka” tədbirinə təxminən 1000 nəfər toplaşıb. Elə bu zaman qara geyimli iki silahlı şəxs çimərliyə aparan piyada körpüsündən uzun lüləli silahlarla atəş açmağa başlayıb və bu vəziyyət, təxminən, 10 dəqiqə davam edib.

Şahidlər bildiriblər ki, güllə yağışı altında yüzlərlə insan qum təpələrinin arxasından qonşu küçələrə qaçıb, bir çoxları əşyalarını ataraq xilas olmağa çalışıb, nəticədə ərazidə xaos və çaxnaşma yaranıb. 10 yaşdan 87 yaşa qədər azı 40 nəfər xəsarət alaraq xəstəxanaya yerləşdirilib. 3 uşağın vəziyyətinin ağır olduğu bildirilir. Əməliyyat zamanı ağır yara almış 2 polis məmuru da xəstəxanada yaralılar arasındadır.

İsrail Xarici İşlər Nazirliyinin məlumatına görə, qurbanlar arasında Xabad Bondi ravvininin köməkçisi və tədbirin əsas təşkilatçılarından olan ravvin Eli Şlanger, 12 yaşlı qız, Holokostdan sağ çıxmış Aleks Kleytman, Fransa vətəndaşı Dan Elkayam və başqa bir İsrail vətəndaşı da var.

Polis faciənin qarşısını almağa çalışıb, atəş açanlardan biri güllələnərək öldürülüb, digəri isə ağır yaralanıb.

Polis hücumçuların ata və oğul olduğunu müəyyən edib. 50 yaşlı ata hadisə yerində öldürülüb. Sidney ştatının polis komissarı Mel Lanyonun sözlərinə görə, 50 yaşlı ata son 10 ildə odlu silah saxlamaq üçün lisenziyaya sahib olub. Hücum yerində onun qeydiyyatdan keçmiş 6 silahı tapılıb. Güllə yarası almış 24 yaşlı oğul isə polis nəzarəti altında xəstəxanadadır, onun vəziyyəti orta-ağırdır.

Hücumçulardan birinin Avstraliyanın Bonniriqq şəhərindən olan Navid Əkrəm olduğu müəyyən edilib. Polis şübhəlilərdən biri ilə əlaqədar onun Bonniriqqdəki evində axtarış aparıb. Avstraliya Təhlükəsizlik və Kəşfiyyat Təşkilatının (ASIO) baş direktoru Mayk Burqess hücum edənlərdən birinin



indiyədək hüquq-mühafizə orqanlarına məlum olduğunu, lakin hələ heç bir təhlükəli addım atmadığını təsdiqləyib.

Hakimiyyət orqanları əvvəlcə hücumda üçüncü şəxsin də iştirak etməsindən şübhələnsə də, sonrakı araşdırmalar bu ehtimalı rədd edib. Polis sonradan silahlı şəxslərdən biri ilə əlaqəli axtarış apararkən Campbell Parade küçəsindəki bir avtomobildən əldəqayırma partlayıcı qurğu taparaq müsadirə edib.

Hadisə ilə bağlı əldə edilmiş videoda ağ köynək geymiş bir kişinin atəş açanlardan birinə hücum edərək tüfəngini götürdüyü görünür. Avstraliya mediası onun ərazidəki meyvə köşkünün sahibi, Sidneydən olan 43 yaşlı Əhməd əl-Əhməd olduğunu müəyyənləşdirib. Hücumçulardan biri ilə əlbəyaxa olarkən əl-Əhməd 2 dəfə – qolundan və əlindən yaralanıb. O, əməliyyat olunub və hazırda sağ-salamatdır. Yeni Cənubi Uels əyalətinin baş naziri Kris Minns onu “əsl qəhrəman” adlandırıb: “Onun cəsarəti sayəsində bu gün çoxlu insan sağdır”.

Avstraliyanın Baş naziri Entoni Albanese isə hadisəni “təmiz şər əməli, terror aktı” adlandırıb. O, eyni zamanda, çimərlik faciəsindən sonra milli silah qanunvericiliyinin sərtləşdirilməsini təklif edib. Baş nazir jurnalistlərə bildirib: “Hökumət bütün zəruri tədbirləri görməyə hazırdır. Buraya silah qanunlarının sərtləşdirilməsi zərurəti də daxildir... İnsanların vəziyyəti dəyişə bilir. Zamanla insanlar radikallaşa bilirlər. Ona görə də silah lisenziyaları əbədi olmamalıdır”.

Baş nazir lisenziya sahibinin əldə edə biləcəyi silah sayı da daxil olmaqla, yeni məhdudiyyətlər hazırlamağın zəruri olduğunu bəyan edib.

***Paşa ƏMİRCANOV***
***XQ***


## Azərbaycan Turizm və Menecment Universiteti

*aşağıda adları qeyd olunan kafedralarda vakant vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

**Humanitar və sosial elmlər kafedrası:**
Professor – 2 yer
Dosent – 3 yer
Dosent – 0,5 yer
Dosent – 0,5 yer
Dosent – 0,5 yer
**Ümumi fənlər kafedrası:**
Professor – 1 yer
Dosent – 5 yer

**Turizm işi kafedrası:**
Dosent – 1 yer
**Mehmanxana və restoran işi kafedrası:**
Dosent – 2 yer
**Dillər kafedrası:**
Dosent – 1 yer
**Menecment kafedrası:**
Dosent – 0,5 yer

Müsabiqəyə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları müraciət edə bilərlər.

Elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) sənədlər saat 10.00-17.00 arası Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim edilməlidir. Sənədlər hr@atmu.edu.az mail ünvanı vasitəsi ilə elektron qaydada da qəbul edilir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (4x6 sm ölçüdə fotoşəkillə).
3. Tərcümeyi-hal.
4. Şəxsiyyət vəsiqəsinin surəti.
5. Profilə uyğun olaraq ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
**6.** Elmi və elmi-metodiki işlərin siyahısı.

**Qeyd-1.** Müsabiqədə iştirak etmək üçün həmin ali təhsil müəssisələrində işləyən şəxsin yalnız rektorun adına ərizə, elmi və elmi-metodiki işlərin siyahısını təqdim etməsi kifayətdir.

2. Namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

**Telefon:** 012-564-42-33 (daxili - 115).

**Ünvan:** Bakı şəhəri, AZ1072, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, otaq 103.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 264 (30958) 16 dekabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Misli Premyer Liqasında XV tur

**Dünən futbol üzrə Misli Premyer Liqasında XV tura yekun vurulub. Günün ilk qarşılaşmasında "İmişli" Quba Olimpiya İdman Kompleksinin stadionunda "Karvan-Yevlax"ı qəbul edib.**



Görüşün 29-cu dəqiqəsində Dieqo Almeyda meydan sahiblərini irəli çıxarıb – 1:0. Bundan 10 dəqiqə sonra – 39-cu dəqiqədə yevlaxlılar Vadim Abdullayevin vurduğu qol sayəsində hesaba tarazlıq gətiriblər – 1:1. Qalan vaxt ərzində hesab dəyişməyib. Bu oyundan sonra "Qarabağ" 33 xalla turnir cədvəlinə başçılıq edir. "Sabah" 31 xalla 2-ci, "Zirə" və "Sumqayıt" 27 xalla 3-4-cü yerləri bölüşür. Sonuncu yerləri isə "Kəpəz" 9 xalla 10-cu, "Qəbələ" 8 xalla 11-ci, "Karvan-Yevlax" isə 6 xalla 12-ci pillədə qərarlaşıb.

Turun son matçında "Neftçi" "Palms Sports Arena"da "Sumqayıt"ı qəbul edib. Oyun 2: 2 hesabı ilə başa çatıb.

Qeyd edək ki, turun daha əvvəl baş tutan görüşlərində "Şamaxı" "Zirə"ni (2:1), "Sabah" "Turan Tovuz"u (3:1), "Kəpəz" "Qəbələ"ni (1:0), Qarabağ" "Araz-Naxçıvan"ı (5:1) hesabı ilə məğlub edib.

### Türkdilli Ölkələrin Şahmat Assosiasiyasının Baş Assambleyası

**Türkiyənin Qaziantep şəhərində Türkdilli Ölkələrin Şahmat Assosiasiyasının Baş Assambleyası keçirilib. İclasda Qaziantepdə baş tutan türkdilli ölkələr arasında şahmat üzrə 16 yaşlılar arasında komanda yarışının təşkilatçılığı yüksək qiymətləndirilib. Toplantıda növbəti illərdə qarşılıqlı əməkdaşlığı genişləndirmək istiqamətində təkliflər səsləndirilib və müzakirə olunub.**

Türkdilli Ölkələrin Şahmat Assosiasiyasının üzv federasiyaları növbəti illərdə aktiv fəaliyyət üçün geniş proqramın təsdiq olunacağını bildiriblər.

Qeyd edək ki, Türkdilli Ölkələrin Şahmat Assosiasiyasının iclasında ölkəmizi Azərbaycan Şahmat Federasiyasının baş katibi İlahə Qədimova təmsil edib. İ.Qədimova eyni zamanda Türkdilli Ölkələrin Şahmat Assosiasiyasının baş katibi vəzifəsində çalışır.

### 19 yaşlı Dünya çempionumuz



**Azərbaycan boksçusu Sübhan Mamedov (48 kq) Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb. İdmançımız finalda Rusiya təmsilçisi Edmond Xudayana qalib gəlib.**

O, bununla da Azərbaycanın ən gənc Dünya çempionu kimi tarixə düşüb.

Azərbaycan Boks Federasiyasının Çempionlar və Veteranlar Komitəsinin sədri Vüqar Ələkbərov mətbuata açıqlamasında bildirib ki, Sübhanın uğuru Azərbaycan Boks Federasiyasının idmançılara göstərdiyi qayğı və diqqətdən irəli gəlir. Onlara hər cür şərait yaradılıb. Boksçular daim təlim-məşq toplanışlarında, yarışlarda iştirak edirlər.

Qeyd edək ki, Dünya çempionatında ölkəmiz 11 boksçu ilə təmsil olunub. Daha əvvəl Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) bürünc medala sahib çıxıblar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2023-cü ildə Azərbaycan Universiteti tərəfindən Vəliyeva Qiymət Nizamxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

*Sadə peşə adamları*

# Kamil bir çəkməçi olsa da insan...

## Həkimlər isə deyirlər: "Ürəyin xəstədirsə, ayağını sağalt"

**Qədim və gərəkli peşələrdən biri də çəkməçi, dəri əşyaları bərpa edən pinəçilikdir. Xalq sənətkarlığında insanların gündəlik ehtiyaclarını ödəmiş bu sənət kosmos, süni intellekt əsrlərində də yaşayır və yeni-yeni davamçılarını yetişdirir.**



Pinəçinin işi dəqiqlik, səbir və əl qabiliyyəti tələb edir. Hər ayaqqabının materialını və quruluşunu tanımaq pinəçinin peşəkarlığının göstəricisidir. Belə ustaların müştərisi də bol olur, xətir-hörməti də öz yerində. Böyük Nizami demişkən: kamil bir palançı naşı papaqçıdan üstündür. Yaxşı pinəçi də pis ayaqqabı tikəndən faydalı insandır.

Hazırkı dövrdə ayaqqabı istehsalı artsa da, pinəçiliyin əhəmiyyəti hələ də qalır. Xüsusilə keyfiyyətli və bahalı ayaqqabıların təmiri üçün usta pinəçilərə hər zaman ehtiyac yaranır. Bundan başqa, pinəçilik peşəsi israfçılığın azalmasına, ayaqqabılardan daha çox istifadəyə kömək edir.

**"Pinəçilik, çəkmə tikmək zəhmətli iş olsa da, halal zəhmətlə yaşamağa imkan verir. Hər gün səni axtaran, xidmətinə ehtiyacı olan insanlar varsa, deməli, həmişə çörəyin olacaq, ailədə qazanın qaynayacaq, heç kəsə möhtac olmayacaqsan. İlk baxışda çirkli bir iş olan pinəçilik ən təmiz çörək ağacıdır". 27 yaşından üzü bəri 35 il pinəçiliklə məşğul olan Nizaməddin Abdullayev bu sözlərin davamında deyir:**

– Qazancımdan da razıyam. Əziyyət çəkməsən, tər tökməsən, çörək qazana bilməzsən. Elə çox vaxt istirahətimi iş başında edirəm. Alimdən tutmuş nazirə qədər işimi bəyənən, xətrimi istəyən çox müştərim var. Əvvəlki illərlə müştərisi bir qədər azalıb. Bunun səbəbi bazarda xarici ölkələrdən gətirilən ucuz, sağlamlıq üçün zərərli ayaqqabıların artmasıdır. Əhali ucuzluğuna görə bu ayaqqabılara maraq göstərir. Belə ayaqqabılar hava keçirməyən, yayda isti, qışda soyuq olan süni materialdan hazırlanmır. Bu da insana ziyandır. Onu da deyim ki, gətirilən ayaqqabılar qısa müddətdə zay olur.

Mən heç vaxt müştərilərimi aldatmıram. Bir də görürsən gətirdiyi ayaqqabı süni dəridir. İzah edirəm ki, bunu təmir etdirməkdənsə yenisini almaq daha yaxşıdır. Çünki bu cür ayaqqabıları bəzən təmir etmək olmur. Bir də ki, hər ayağın öz tələbi olur. Ayaq ölçüləri fərqli olan müştərilər də müraciət edir, yalnız keyfiyyətli və ekoloji ayaqqabı istəyənlər də... Müştəri gəlir, dərini, ayaqqabının içini, altına vurulan materialı belə özü seçir. Elə müştərim var ki, əldə hazırlanan ayaqqabının dəyərini bilir və qiymət yüksək olsa da, sifariş verir. Bəzi müştərilər də olur ki, sırf modeli bəyənir.

Ayaqqabı dəri olsa yaxşıdır. Əgər rezin, yaxud süni örtük materialıdırsa, ayaq içində xəstəlik tapacaq. Ayaqqabı rahat olmalıdır. Görünüşə görə yox, ayağın formasına görə almaq lazımdır. Həkimlər əbəs yerə deymirlər ki, ürəyin xəstədirsə, ayağını sağalt. Yəni ümumi rahatlıq və sağlamlıq bədənin bütün yükünü çəkən ayağa necə qulluq etməkdən çox asılıdır.

**Söhbətimizin şirin yerində bir müştəri içəriyə daxil olur. "Usta, ayaqqabım hazırdırmı?" Usta bir anlıq işindən ayrılıb, başını qaldıraraq müştərinin üzünə baxır. Bax odur, götürə bilərsən deyib, – söhbətinə davam edir:**

– Hər gün, təxminən, 25–30 ayaqqabı təmir edirəm, üstəlik, bir neçə ayaqqabı da tikirəm. Yay aylarında işim zəif olsa, da yeni modelli ayaqqabılar tikirəm. Elə ki, havalar soyuyur, həm yeni tikdiyim ayaqqabıya, həm də təmirə tələbat artır.



**Gözlənilmədən usta söhbətini yarımçıq kəsərək televizorda səslənən hava haqqında proqnoza diqqət yetirir. Çünki havaların qarlı-yağışlı keçməsi pinəçiyə olan tələbatı artırır. Soyuq aylarda iş o qədər çox olur ki, gecə yarısına kimi çalışır. Axı müştərini gözlətmək olmaz. Nizaməddin gülümsəyərək söhbətinə davam edir:**

– Müştərini razı salmaq, onun dediyi, istədiyi vaxta hazırlamasan bir də o çətin ki, müraciət edə. Hətta vaxtilə yaşadıqları bu ərazini (Xətai rayon, Neopol dairəsi) tərk edən müştərilərim indi Binədən, Mərdəkandan durub gəlirlər. Bu mənim əməyimə verilən qiymətdir. Bu cür hallarla rastlaşanda düşünürəm ki, çəkdiyim əziyyət hədər getməyib.

İndiki zamanda sənət öyrənmək yaxşıdır. Çəkmə tikmək, təmir etmək öz çörək ağacına qulluq etməkdir. Sənət isə düzgünlük, peşəkarlığı sevir. Əlimi hər dəfə üzümə toxunduranda halallığı suvaran tər damcıları məni rahatlaşdırır, yorğunluğum çıxır. Bu da məni işimə möhkəm bağlayır. Ümumiyyətlə, hər hansı bir sənətdə halallığı qorumasan, inkişaf edə bilməzsən. Qazandığın da bir anlığa yox olar. Mən ailəmi çəkmə tikməklə, köhnəlmiş ayaqqabını təmir etməklə dolandırıram. Kiməsə kənardan asan görünə bilər, amma xeyli əziyyətli işdir. Yapışqanın kəskin iyi, eləcə də əsas alət olan bizin barmaqlarda qoyduğu izləri yaşamasan, bu sənətin incəliyini, çətinliyini anlaya bilməzsən.

**Yenidən araya sükut çökür. Buna səbəb digər bir müştərinin təmirə verdiyi ayaqqabını götürməyə gəlməsidir. Bu qədər müştərini yadda saxlamaq, gətirdikləri ayaqqabıları dəyişik salmamaq o qədər də asan deyil. Söhbətin yönünü bu mövzuya çevirir:**

– İşlədiyim müddət ərzində hər hansı bir halla rastlaşmamışam. Yəqin bunun özü də bir bacarıqdır. Heç bir yazı və qeydiyyatdan istifadə etmədən kimin ayaqqabını nə vaxt və nə üçün verdiyini, təmir edib hara qoyduğum yeri əzbər bilirəm. Bir də görürsən ki, bir müştəri on beş-iyirmi gün yubanır. Hətta verdiyi ayaqqabının hansı hissəsini təmirə gətirdiyini belə yaddan çıxarır. Dərhal xatırladıram və yerini göstərirəm.

Bu arada pinəçiyə bir əhvalatı xatırladıram. Sovet dövründə kəndimizdə Gülağa adlı bir pinəçi var idi. Gördüyü işi hamı bəyənirdi, amma o, hər ayaqqabının qəbuledilmə və hazırolma vaxtını kağıza yazıb içərisinə qoyurdu.

Nizaməddin isə hər şeyi yadında saxlaya bilir. Sonda onu da qeyd etdi ki, ailə üzvlərinin ayaqqabıya pul verməməsi də onun bir qazancıdır. Qohum-əqrəba arasında əl tutduqları da az deyil. İmkansızlardan pul almadığı da olur.

Nəhayət, söhbətimi yekunlaşdırıb sağollaşıram. Bir neçə addım aralanmamış Nizaməddinin məni səslədiyini eşidirəm: "Yazı dərc olunan qəzetdən mənə çatdırmağı unutma".

Mən bu anda düşünürəm ki, "Kamil bir çəkməçi olsa da insan, yaxşıdır maraqsız yazı yazandan".

*Müşfiq MİRZƏ*
*XQ*

**"Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!**

31 yanvar 2026-cı il saat 13.00-da "Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və illik hesabatların təsdiqi.

**2.** Mənfəətin bölüşdürülməsi və dividendlərin verilməsi haqqında qərarın qəbul edilməsi.

Ümumi yığıncaq Bakı şəhəri, Böyükşor qəsəbəsi, 2062-ci məhəllədə keçiriləcəkdir. Səhmdarlardan şəxsiyyət vəsiqələri və bank rekvizitlərinin təqdim edilməsi xahiş olunur.

*Müşahidə şurası*

## HAVA

### Bəzi yerlərdə yağış, dağlıq rayonlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 3-5, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 771 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 10-13 dərəcə şaxta, gündüz 2-6 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və Administrasiyanın əməkdaşları

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əjdər və Çingiz Mustafayevlər ailələri ilə birlikdə

**QORXMAZ ASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi gender və tətbiqi psixologiya kafedrasının dosenti Elmina Kazımzadəyə həyat yoldaşı

**FİKRƏT KAZIMZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Messenat Holdinq-Şirkətlər Qrupu"nun kollektivi Hacı Tofiq İsayevə və Mirqasım İsayevə əzizləri, professor

**YUSİF QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2330
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00